RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 46 (9501) 29 FEVRAL 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan hər bir təxribatı dəf etməyə hazırdır

### Yeni savaş olarsa, bu, Ermənistanın tam iflası, havadarlarının isə qəti məğlubiyyəti ilə nəticələnəcək

Fransa özünü BMT və beynəlxalq prinsiplərə sadiq sivil dövlət kimi yox, irticaçı ölkə kimi aparır və kolonizator simasını gizlətmir.

Amma əminliklə deyə bilərik ki, Qərbin iftiraları, Fransanın hərbi dəstəyi bölgədə qüvvələr balansını dəyişməyəcək, Fransa Azərbaycanın hansı hərbi imkanlara malik olduğunu hələ bilmir. 23 saata ermənilərin 30 il ərzində qurduğu istehkamları məhv etmiş Azərbaycana Fransa və Hindistanın Ermənistana verdiyi texnikanı darmadağın etmək üçün bir neçə saat kifayətdir. Qafqazda ən güclü orduya malik ölkə olan Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da Silahlı Qüvvələrinin daha da modernləşməsi istiqamətində mühüm addımlar atır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, istehsal edilən yerli və xaricdən alınan hərbi texnikalar, silahlar Silahlı Qüvvələrimizin gücünə güc qatır.

Tarixinin ən qüdrətli Azərbaycanı İkinci Qarabağ müharibəsi və antiterror tədbirlərində öz hərbi gücünü dünyaya nümayiş etdirərək Silahlı Qüvvələrinin potensialını, nəyə qadir olduğunu göstərdi. Bəşər tarixində ilk "smart müharibə" aparan dövlət kimi dünya hərb salnaməsinə adını yazdıran Azərbaycan bu gün də Silahlı Qüvvələrini gücləndirir.

→ 5

# Prezident İlham Əliyev qəti şəkildə şərt qoydu

### "Əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik"



**Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Almaniya Federativ Respublikasının aparıcı şirkətlərinin rəhbərlərindən ibarət nümayəndə heyətinə Almaniya-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann, "Falk" konsaltinq şirkətinin icraçı direktoru Tomas Falk, "Uniper Global Commodities SE" şirkətinin birinci vitse-prezidenti Uve Fip, "Rhenus Group" beynəlxalq nəqliyyat şirkətinin layihələr üzrə idarə heyətinin direktoru Heinrix Kerstgens, "VNG" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Ulf Heitmüller və "HHLA International" şirkətinin icraçı direktoru Filip Sveens daxildir.

Dövlətimizin başçısı alman iş adamları ilə ötən il Berlində, bu yaxınlarda isə Münxendə keçirdiyi görüşlərini məmnunluqla xatırlayaraq, indi də böyük nümayəndə heyətinin iqtisadi əməkdaşlığın gündəliyinin müzakirəsi üçün Azərbaycana səfər etməsinin önəmini qeyd etdi.

Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Ralf Horlemann nümayəndə heyətinin adından İlham Əliyevin yenidən Prezident seçildiyi vaxtda qəbula görə minnətdarlığını bildirdi. Səfir Prezident İlham Əliyevin Münxen səfəri zamanı Almaniya Kansleri ilə keçirdiyi görüşlərinin təəssüratı altında olduqlarını dedi. O, eyni zamanda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün bu gün Berlində keçirilməsindən məmnunluqlarını ifadə etdi və ölkəsinin sülh prosesini konstruktiv şəkildə dəstəklədiyini vurğuladı.

Səfir qeyd etdi ki, COP29-un keçirildiyi bu ildə sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün bir imkan yaranıb, bu da öz növbəsində sabitlik, iqtisadi inkişaf, əmin-amanlıq baxımından çox önəmlidir.

→ 2

# XII Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları.

İlk növbədə, sizi XII Azərbaycan-Rusiya Regionlararası Forumunun açılışı münasibətilə təbrik etmək istərdim. Artıq yaxşı ənənəyə çevrilmiş bu tədbirin keçirilməsi Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verir.

Bu formatda regionlararası forumlar artıq öz səmərəliliyini sübuta yetirib. Hakimiyyət nümayəndələrinin, işgüzar və ekspert dairələrinin forum çərçivəsində görüşləri keçirilir, konstruktiv və açıq dialoq aparılır. Bu, əlaqələr qurmağa, gələcək birgə fəaliyyət naminə səylərimizi əyani surətdə koordinasiya etməyə, əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə etməyə imkan verir. Forum Azərbaycan Respublikasının regionları ilə Rusiya Federasiyasının subyektləri arasında birbaşa qarşılıqlı faydalı əlaqələrin yaradılması üçün tələbat duyulan platformadır.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan tərəfdaşlığımız çoxşaxəlidir və demək olar ki, bütün sahələri əhatə edir. Bu gün ölkələrimiz arasında iqtisadi-ticari əməkdaşlıq dinamik şəkildə inkişaf edir, ticarət dövriyyəsi artır, yeni istiqamətlər üzrə işlər davam etdirilir. Forum çərçivəsində nəqliyyat-logistika, sənaye, kənd təsərrüfatı və ekoloji sahələrdə qarşılıqlı fəaliyyətin müzakirəsi iki ölkənin regionlararası səviyyədə əlaqələri daha da dərinləşdirmək istəyini əyani şəkildə nümayiş etdirir.

Əlamətdar haldır ki, bugünkü forum Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin imzalanmasının ikinci ildönümündə keçirilir. İki il bundan əvvəl - 2022-ci ilin fevralında xalqlarımız arasında tarixi dostluq və mehriban qonşuluq ənənələrinə, dərin mədəni və humanitar əlaqələrə əsaslanaraq, dövlətlərarası münasibətlərimizi keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldıran bu mühüm sənəd imzalanıb.

Əminəm ki, bu forum əvvəlkilər kimi, yaradıcı atmosferdə keçiriləcək, ümumi yanaşmaların işlənib hazırlanması üçün əlamətdar hadisə olacaq və dost ölkələrimizin rifahı naminə nəzərdə tutulan bütün məqsədlərə nail olmağa kömək edəcək.

Forumun bütün iştirakçılarına uğurlu və səmərəli iş arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2024-cü il*

# Berlində Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında görüş keçirilib



Fevralın 28-də Berlində Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsini müzakirə etmək üçün iki ölkənin xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında ikitərəfli görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi özünün sosial şəbəkə hesablarında məlumat yayıb.

# Azərbaycan Fransanın əsarətindəki xalqların azadlıq carçısına çevrilib

### Müstəmləkəçi ölkə beynəlxalq səviyyədə ifşa olunur

Fransa Sakit və Atlantik okeanlarında dənizaşırı icma və ərazilərində yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmir, bu arzuların reallaşmasının qarşısının alınmasına mane olur.

Qvadelupa əhalisi dörd əsrdir ki, Fransanın əsarəti altında yaşayır. Ölkədə müstəqillik tərəfdarı olanlar Fransa tərəfindən öldürülür və onların sayı əhaliyə açıqlanmır.

→ 6

# Fransada fermerlər Makronu istefaya çağırdılar

### Etirazçılar polisi torpaq, saman və yumurta atəşinə tutublar

Fransızlar da Avropa Birliyinin "yaşıl siyasət"lərinə qarşı vahid cəbhə kimi çıxış edərək, ötən həftənin sonunda bir çox dünya mediasının diqqətini çəkiblər. Bazar günü səhər saatlarında etirazçılar Parisdə Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin pavilyonuna daxil olublar. Həmin vaxt prezident Emmanuel Makron orada olub. Etirazçılar dövlət başçısının fermerlər birliklərinin nümayəndələri ilə danışıqlar apardığı yerə yaxınlaşmaq istəsələr də, təhlükəsizlik orqanları əməkdaşları onların qarşısını kəsiblər. Nəticədə toqquşmalar olub, Makronu istefaya çağıran izdiham polisə torpaq, saman və yumurta atıb.

Makron isə öz növbəsində, qəzəbli etirazçıları sakitləşdirməyə çalışaraq bildirib ki, böhranı bir neçə saata həll etmək olmaz və bunun üçün vaxt lazımdır.

Xatırladaq ki, Beşinci Respublikada fermerlərin etirazları yanvarın 18-də başlayıb. Nümayişçilər hakimiyyətə 100-dən çox iddia təqdim ediblər.

→ 12

# SOCAR və bp ekologiyanı da birgə qoruyacaqlar

### COP29 ərəfəsində atmosferin mühafizəsi üzrə bu şirkətlər arasında əməkdaşlıq genişlənir

→ 10



# Prezident İlham Əliyev qəti şəkildə şərt qoydu

## "Əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik"

*Əvvəli 1-ci səh.*

O dedi ki, iş adamlarından ibarət böyük nümayəndə heyətinin Azərbaycana səfərinin əsas məqsədlərindən biri də ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını nümayiş etdirməkdən ibarətdir. Səfir vurğuladı ki, Azərbaycan Prezidentinin də inaqurasiya nitqində dediyi kimi iqtisadi, o cümlədən enerji sahəsində transformasiya məsələlərinin gündəlikdə durması əməkdaşlıq üçün böyük imkanlar yaradır. Xüsusi olaraq vurğuladı ki, Almaniya biznes dairələri və şirkətləri bu gündəliyə böyük töhfələrini verməyə hazırdırlar.

O, qəbula görə bir daha dövlətimizin başçısına minnətdarlığını bildirərək, nümayəndə heyətinin səfərinin əməkdaşlığın genişlənməsi baxımından səmərəli nəticələr verəcəyinə ümidvar olduğunu ifadə etdi.

Böyük nümayəndə heyətinin Azərbaycana səfərini yüksək qiymətləndirən dövlətimizin başçısı iqtisadi sahənin ikitərəfli münasibətlərimizdə həmişə mühüm rol oynadığını deyərək bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev keçən il Berlinə səfəri zamanı Almaniya Kansleri ilə görüşündə əlaqələrimizin geniş gündəliyinə daxil olan məsələlərin, o cümlədən iqtisadi əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu qeyd etdi. Eyni zamanda Kansler Şoltsun təşəbbüsü ilə bu yaxınlarda Münxendə Ermənistanın baş naziri Nikol Paşinyanla keçirilən görüşün sülh prosesinə dinamizm gətirilməsi baxımından önəmini vurğuladı. Bununla yanaşı, Almaniya tərəfinin təklifi ilə xarici işlər nazirləri arasında Berlində görüşün keçirilməsinin də Azərbaycan tərəfindən dəstəkləndiyini qeyd etdi. Belə ki, Almaniya qonşuluğunda yerləşən, necə deyərlər, alovun üstünə benzin tökən və Ermənistanı öldürücü silahlarla təchiz edən Fransadan fərqli olaraq sülh prosesində neytrallıq nümayiş etdirir.

"Beynəlxalq hüququn normaları bizim tərəfimizdədir", - deyən Prezident İlham Əliyev vurğuladı ki, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü təmin etməsi ilə bağlı bizi hər hansı günahlandırma cəhdləri tamamilə əsassız və qərəzlidir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır. Dövlətimizin başçısı təəssüf hissi ilə qeyd etdi ki, bu gün ikili standartlar bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilib. Bu baxımdan Cozef Borelin qeyri-adekvat bəyanatları bizi çox məyus edib. Əvvəla, onun bu bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. Belə ki, Borel bildirib ki, Azərbaycan Ermənistana hücum edərsə, bunun acı nəticələrini görəcək. Əvvəla, Borel bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur. Onlar cənab Makronun insinuasiyalarıdır. Bütün bunlar Fransanın guya Azərbaycanın Ermənistana hücuma hazırlaşması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir. Ermənistanla sərhəddə son dəfə 2023-cü ilin sentyabrında ciddi gərginləşmədən sonra bu ilin fevralınadək olan dövrdə sərhəddə vəziyyət sakit idi. Lakin fevral ayında erməni snayperi Azərbaycan əsgərini ağır yaraladıqdan sonra biz buna vaxtında adekvat və dəqiq cavab verməli olduq. Bizim bu cavab bir neçə dəqiqə çəkdi və Ermənistanın bunu dərk etməsinə kifayət etdi ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq və dediyim kimi, ötən ilin sentyabrından bu hadisə istisna olmaqla sərhəddə sakitçilik hökm sürür. Deməli, cənab Borel və cənab Makron bu informasiyanı reallıqdan deyil, öz xəyallarından götürürlər.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sülh prosesinə sadiqdir. Məhz biz İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış etdik. Əslində, biz sülh yolu ilə həllin beş əsas prinsipini işləyib hazırladıq və sülh müqaviləsinin mətninin layihəsini təqdim etdik. Beləliklə, biz əgər sülh istəmiriksə, niyə bunların hamısını hazırlamışıq?!



Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan əraziləri 30 il Ermənistanın işğalı altında olub. Ermənilər torpaqlarımızın 20 faizini işğal edərək həmin əraziləri dağıdıblar, o vaxt 1 milyona yaxın soydaşımız məcburi köçkün vəziyyətinə düşdü. Torpaqlarımızı işğal altında saxlayan Ermənistan bu müddətdə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, beynəlxalq hüququn normalarına, o cümlədən humanitar normalara məhəl qoymadı. İki gün əvvəl ildönümünü qeyd etdiyimiz Xocalı soyqırımını törətdilər. İndi biz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdikdən və Qarabağda separatizm yuvasını dağıtdıqdan sonra hücumlara məruz qalmışıq. Biz Makron, Borel və onlar kimi digər insanlar tərəfindən günahlandırılırıq. Ukraynanı götürək, Ukrayna öz ərazi bütövlüyünü bərpa etmək istəyir. Almaniya və digər ölkələr Ukraynaya silahlar göndərirlər. Siz hamınız bəyan edirsiniz ki, Ukrayna öz ərazi bütövlüyünü təmin etməlidir. Bəs bizim ərazi bütövlüyümüz?! Məgər bu məsələ Ukrayna məsələsindən daha az önəmlidir? Əfsuslar olsun ki, biz Cənubi Qafqazda ayırıcı xətlərin qurulması cəhdlərini görürük. Bununla bağlı Azərbaycanda bir çox insanlar belə düşünürlər ki, Avropa institutları tərəfindən Cənubi Qafqazda Gürcüstan və Ermənistanı çox yaxın qəbul etdikləri, Azərbaycanın isə demonizə edildiyi bir şəraitdə yeganə çıxış yolu bizim İslam dinimizdir. Mən demirəm ki, bu, mənim şəxsi fikrimdir, insanların çoxu belə düşünür. Biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edir. Əfsuslar olsun ki, bu qərar Almaniya parlamentinin üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs Kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu, ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?! Almaniya Kansleri qərəzsizlik nümayiş etdirir, onun bəyanatları və fəaliyyəti bunu əks etdirir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkaranə və məqsədyönlü şəkildə edir. Bildiyiniz kimi, biz bu qurumun sessiyalarında iştirak etməmək qərarına gəlmişik. Çünki əgər bizim öz mövqeyimizi bildirmək hüququmuz yoxdursa, nəyə görə orada olmalıyıq?!

Prezident İlham Əliyev bildirdi ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik. Dövlətimizin başçısı bir məsələni də təəssüf hissi ilə qeyd etdi ki, Almaniya mətbuatında Azərbaycan guya azadlıqların təmin olunmadığı, insanların öz fikirlərinə görə həbs olunduğu, diktaturanın hökm sürdüyü despotik bir ölkə kimi təqdim edilir. "Bu, tamamilə yalandır və mən bundan təəssüf hissi keçirirəm", - deyən Prezident İlham Əliyev bunu həmin yazıların müəlliflərinin özlərinin də yaxşı bildiyini vurğuladı və qeyd etdi ki, Azərbaycanda bir neçə ildir fəaliyyət göstərən Almaniya səfiri də ölkəmizdə gedən proseslərin şahididir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan haqqında biləkdən çox mənfi təəssürat yaradılır. Dövlətimizin başçısı dedi: "Bütün bunlar bizim həyata keçirdiyimiz işlərə mane ola bilərmi?! Xeyr! Biz istər ərazi bütövlüyünün bərpası, istər iqtisadi gündəliyimizlə bağlı öz xalqımızın, ölkəmizin rifahı naminə işlər görürük".

Azərbaycanın özünü təmin edən ölkə olduğunu qeyd edən dövlətimizin başçısı bildirdi ki, ölkəmizdə gedən proseslər və həyata keçirilən işlər Azərbaycanın normal həyatını təmin edir. Kimsə bizim inkişafımıza töhfə vermək istəyirsə, biz minnətdar olarıq. Bu olmazsa, biz yenə də təəssüflənməyəcəyik.

Sovet dövründə 70 il ölkəmizin dövlətçilikdən məhrum olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenicə bərpa etdiyi vaxtda Ermənistanın ölkəmizə qarşı təcavüzü ilə üzləşdi və müstəqilliyin bərpasından 4 ay sonra ermənilər Xocalı soyqırımını törətdilər. Yüzlərlə şəhər və kəndimizi işğal etdilər, oraları dağıtdılar. Otuzillik bir müddətdə özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya - həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. Biz öz torpaqlarımızı azad etməyə başlayanda bu üç ölkə bizə təzyiqlər göstərməyə başladı. Hər biri bizi öz yolumuzdan döndərmək üçün müxtəlif alətlərdən istifadə etdi. Onlar istəmirdilər ki, biz öz torpaqlarımızı azad edək. Ötən ilin sentyabrında biz separatizmə son qoyduğumuz zaman onlar yenə də səhv etdilər. Onların bəziləri indi də səhv edirlər. Mən ABŞ və Fransanı nəzərdə tuturam. Düşünürəm ki, Rusiya indi nəyin baş verdiyini yaxşı anlayır və yeni reallıqları qəbul edir. ABŞ və Fransa da eyni cür hərəkət etməlidirlər. Əks təqdirdə, vəziyyət onların planlaşdırdığı kimi olmayacaq. Bu ölkələr Cənubi Qafqazda buranın aparıcı ölkəsi, iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidirlər.

Almaniyanın ölkəmizdəki səfiri verilən məlumatlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və qeyd etdi ki, həqiqətən ölkəmiz haqqında təəssüratlara malik olmaq üçün buradakı prosesləri öz gözləri ilə görmək vacibdir və elə nümayəndə heyətinin səfərinin məqsədlərindən biri də bundan ibarətdir.

Mixael Harms Münxendəki görüşdən az müddət sonra yenidən Azərbaycan Prezidentinin qəbulundan şərəf hissi keçirdiklərini bildirdi və buna görə minnətdarlığını ifadə etdi. Qonaq ölkəmizə infrastruktur, sənaye, kənd təsərrüfatı, bank və maliyyə, alternativ enerji və digər sahələrlə məşğul olan 40-dan artıq şirkətin rəhbəri və nümayəndələri ilə gəldiklərini vurğulayaraq, Azərbaycanda səmərəli görüşlər keçirdiklərini bildirdi. O, müzakirələr zamanı belə bir nəticəyə gəldiklərini qeyd etdi ki, Azərbaycan iqtisadi islahatlarla bağlı böyük işlər həyata keçirir. Digər nəticə bundan ibarətdir ki, ölkələrimizin yalnız ənənəvi enerji sektorunda deyil, başqa sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanları var.

O vurğuladı ki, Almaniya biznes dairələri Azərbaycanın Cənubi Qafqazda sülh proseslərinə sadiqliyini yüksək qiymətləndirir və bu da öz növbəsində bütün regionda müsbət inkişafın əsasını qoya bilər.

Görüşdə iqtisadi əlaqələrin perspektivləri, o cümlədən energetika, birgə layihələr, investisiya və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Koreya Respublikasının hökuməti və xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Uzaqgörənliyiniz və liderliyiniz sayəsində Azərbaycan Respublikasının davamlı şəkildə inkişaf edəcəyinə əminəm.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulduğu 1992-ci ildən bəri müxtəlif sahələrdə dostluq və əməkdaşlıq münasibətlərimiz genişlənmişdir. Son dövrlərdə enerji, infrastruktur, səhiyyə, "ağıllı kənd" və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsindən xüsusilə böyük məmnunluq duyuram.

Əminəm ki, birgə səylərimizlə ölkələrimiz arasında ikitərəfli əlaqələr daha da inkişaf edəcəkdir.

Sizə cansağlığı, Azərbaycan Respublikasına daimi inkişaf arzu edirəm.

*Hörmətlə,*

***Yun Sok YOL,***
***Koreya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin Sizin rəhbərliyinizlə bundan sonra da möhkəmləndirilməsi istiqamətində Kubanın qətiyyətli mövqeyini bir daha ifadə edirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Ümumdünya Ərzaq Proqramının adından ən səmimi təbriklərimi çatdırıram.

Həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın evsahibliyi edəcək ölkə kimi seçilməsi ilə əlaqədar Sizi təbrik edirəm. Azərbaycan Respublikası üçün bu tarixi məqam qida təhlükəsizliyi, iqlim dəyişikliyi və sülh kimi məsələlərin qlobal siyasi gündəliyin ön sıralarına qoyulması baxımından fürsətdir.

Zati-aliləri, əminik ki, Sizin müdrik liderliyinizlə Azərbaycan Hökuməti münaqişədən əziyyət çəkən və digər həssas bölgələrdə iqlim dəyişikliyinin qida təhlükəsizliyinə təsiri kimi qlobal çağırışlarla mübarizəni davam etdirəcək.

BMT-nin Ümumdünya Ərzaq Proqramı qida təhlükəsizliyi və iqlim dəyişikliyi kimi prioritet məsələləri qlobal gündəliyin əsas mövzusu kimi saxlamaq üçün birgə çalışmağa hazırdır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

*Dərin hörmətlə,*

***Sindi MAKKEYN,***
***BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Bu il fevralın 7-də keçirilmiş seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Britaniya parlamentində Azərbaycanla dostluq qrupu adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram. Bu inamlı qələbə Sizin Azərbaycan xalqına sədaqətli xidmətinizin və xalqın Zati-alinizə olan güclü etimadının göstəricisidir.

Ölkələrimiz arasında strateji tərəfdaşlıq adlandırdığımız güclü ikitərəfli əlaqələr mövcuddur. Böyük Britaniya ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsində və genişlənməsində parlamentlərarası əlaqələrin mühüm rolu olmasından məmnunluq duyuruq.

Qarşıdakı illərdə Böyük Britaniya-Azərbaycan əlaqələrini daha da gücləndirmək üçün Sizinlə sıx əməkdaşlıq etməyi səbirsizliklə gözləyirəm.

Fürsətdən istifadə edərək Azərbaycanı bu ilin noyabrında COP29-a evsahibliyi etməsi münasibətilə təbrik edirəm və Böyük Britaniyanın COP-un uğurla keçirilməsində ölkənizə dəstək verməyə hazır olduğunu vurğulayıram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və bütün işlərinizdə davamlı uğurlar, o cümlədən Azərbaycan Respublikasına daimi rifah diləyirəm.

*Hörmətlə,*

***Bob BLƏKMƏN,***
***Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Qardaş Azərbaycan xalqının etimad göstərərək Sizi yenidən Prezident seçməsi münasibətilə zati-alinizə türkmən xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuruq. Bu etimad ötən illər ərzində Sizin müdrik rəhbərliyinizlə quruculuq, tərəqqi və firavanlıq istiqamətində görülmüş işlərin məntiqi təzahürüdür.

Seçkilərdəki qələbəniz ölkənizdəki nailiyyətləri və uğurlu islahatları cəsarət və bacarıqla davam etdirmək əzminizin, qardaş Azərbaycan xalqının inkişaf, rifah və yüksəliş arzularını həyata keçirməkdə zati-alinizə yüksək inamın təcəssümüdür.

Uca Allahdan Sizə möhkəm cansağlığı, Azərbaycan Respublikasına uğurlar diləyirik.

*Dərin ehtiramla,*

***Casim Məhəmməd Cəfər ƏL-BAYATİ,***
***İraq Türkmənləri İslam Birliyinin baş katibi, İraqın sabiq gənclər və idman naziri və deputatı***

# Vitse-spiker Adil Əliyev tələbələrlə görüş keçirib

Fevralın 28-də Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev "Azərbaycanda gənclər siyasəti: uğurlar və qarşıda duran vəzifələr" mövzusunda Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbələri ilə görüş keçirib. Görüşdə universitetdə təhsil alan şəhid ailələrinin üzvləri, qazilər, idmançılar və fəal tələbələr iştirak ediblər. Tədbir şəhidlərin xatirəsinin anılması və Dövlət himninin səsləndirilməsi ilə başlayıb.



Qonağı salamlayan Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov dövlət başçısının təhsilə və gənclər siyasətinə göstərdiyi yüksək diqqət və qayğıdan bəhs edərək, bu siyasətin uğurla həyata keçirildiyini qeyd edib. Rektor universitetdə təhsil alan şəhid ailələri və qazilərə yüksək həssaslıqla yanaşıldığını qeyd edərək, sağlam gəncliyin formalaşdırılması istiqamətində genişmiqyaslı işlərin aparıldığını bildirib.

Milli Məclisin Sədr müavini Adil Əliyev parlamentin fəaliyyəti, Gənclər və idman komitəsinin məşğul olduğu istiqamətlər barədə tələbələrə məlumat verib. Müasir gənclər siyasətinin məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən vitse-spiker Ümummilli Liderin imzaladığı müvafiq sərəncamla MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə ölkəmizdə gənclər üçün xüsusi günün təsis olunduğunu, hələ ötən əsrin 70-80-ci illərində yüzlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə göndərildiyini və müxtəlif ixtisaslar üzrə təhsil almalarına şərait yaradıldığını xatırladıb.

Adil Əliyev çıxışında Ulu Öndərin bütün sahələrdə olduğu kimi, gənclər və idman sahəsində də əsasını qoyduğu siyasətin müxtəlif çağırışlarla üzləşdiyini, çevrilişlərin qarşısını aldığını və sabitliyi təmin etməklə bərabər gənclər siyasətini hər zaman ön planda saxladığını bildirib. Qeyd edilib ki, bu məqsədlə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradılıb və 1996-cı il fevralın 2-də gənclərin I Forumu keçirilib, eləcə də bu sahədə zəruri qanunvericilik bazası formalaşdırılıb.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasətinin bu gün cənab Prezident İlham Əliyevin uğurla davam etdirdiyini bildirən A.Əliyev qeyd edib ki, Müzəffər Ali Baş Komandan gənclər və idman siyasəti sayəsində Azərbaycan idmanı və gənclər siyasəti böyük tərəqqiyə nail olub: "Azərbaycan gəncliyi ilə bağlı dövlət proqramları, gənclərin inkişaf strategiyası, eləcə də xaricdə təhsillə bağlı müxtəlif dövlət proqramları qəbul edilib. Hər il 10 gəncə Prezident təqaüdü verilir, gənclərin ictimai həyatda iştirakını təmin etmək məqsədilə gənclər mərkəzləri, evləri, olimpiya idman kompleksləri fəaliyyət göstərir".

Təhsilin dövlətimiz üçün olduqca vacib sahələrdən biri olduğunu vurğulayan vitse-spiker təhsil siyasətinin əsas hədəflərindən birinin gənc nəslin savadlı və vətənpərvər ruhda yetişməsi olduğunu, bu məqsədlə dövlət proqramlarının uğurla icra edildiyini və gənclərimizin xarici ölkələrdə təhsilə əlçatanlığının dövlət hesabına təmin edildiyini bildirib. "Gənclər də öz növbəsində dövlətin onlar üçün yaratdığı imkanlardan səmərəli istifadə edirlər. Azərbaycan gəncliyi istər Vətən müharibəsində, istərsə də ondan sonrakı dövrdə üzərinə düşən tarixi vəzifələrin öhdəsindən layiqincə gəldi. Dövlət başçısı 44 günlük döyüşlərdə bir fərarilik faktının belə qeydə alınmamasını, məhz bu qələbənin gənclərlə bağlı aparılan uğurlu siyasətin nəticəsi olduğunu bildirib", - deyə A.Əliyev əlavə edib.



Çıxışının sonunda COP29-un Azərbaycanda keçirilməsinə yekdil qərarın verilməsinin beynəlxalq ictimaiyyətin ölkəmizə göstərdiyi etimadın, dünyada artan nüfuzumuzun göstəricisi olduğunu deyən vitse-spiker gənclərin könüllü fəaliyyətinə xüsusi diqqət çəkib. Onlara bilik və bacarıqlarının inkişafına xüsusi diqqət ayırmağı tövsiyə edib.

Sonda tələbələri maraqlandıran mövzular ətrafında müzakirələr aparılıb və xatirə şəkli çəkdirilib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev yeni vəzifəyə təyin olunmuş ədliyyə nazirini kollektivə təqdim edib





Fevralın 28-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev ədliyyə naziri Fərid Əhmədovu kollektivə təqdim edib.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində çıxış edən Samir Nuriyev müstəqil Azərbaycan Respublikasında müasir ədliyyə sisteminin formalaşması və inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Qeyd edib ki, Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilmiş ardıcıl və məqsədyönlü hüquqi islahatlar nəticəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun yeni inkişaf yoluna qədəm qoydu, onun çoxşaxəli fəaliyyətini tənzimləyən normativ-hüquqi baza formalaşdırıldı, nazirliyin səlahiyyətləri genişləndirildi, cəmiyyətdə rolu artdı.

Prezident Administrasiyasının rəhbəri bildirib ki, hüquqi dövlət quruculuğu prosesini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ədliyyə sisteminin inkişafı məsələlərini və ümumilikdə hüquq islahatlarını daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısının təsdiq etdiyi qanunvericilik aktları ilə Ədliyyə Nazirliyinin yeni fəaliyyət istiqamətləri, vəzifə və hüquqları, ədliyyə orqanlarında qulluqkeçmənin qaydaları və şərtləri müəyyən olunub, ədliyyə orqanlarının inkişaf etdirilməsi məqsədilə müvafiq addımlar atılıb. Azərbaycan Prezidentinin hüquqi dövlət quruculuğu prosesində ədliyyənin rolunun gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər dövlət başçısının qanunun aliliyinin təmin olunmasına və insan hüquqlarının etibarlı qorunmasına xüsusi önəm verdiyini aydın göstərir.

Qarşıdan gələn dövrdə nazirliyin qarşısında duran vəzifələrlə bağlı Prezident İlham Əliyevin tapşırıqlarını diqqətə çatdıran Samir Nuriyev kollektivin öz səylərini əsirgəməyəcəyinə inandığını bildirib, bu işdə yeni təyin olunmuş nazirə və kollektivə uğurlar arzulayıb.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 106 **QƏRAR** Bakı şəhəri, 27 fevral 2024-cü il

### "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə maaşlarına xüsusi rütbəyə görə əlavə haqqın məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin vəzifə (tarif) maaşlarının məbləğlərinin müəyyən edilməsi haqqında" 2018-ci il 12 aprel tarixli 146-9 nömrəli və "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan işçilərinin vəzifə maaşlarına xüsusi rütbəyə görə əlavə haqqın məbləği"nin təsdiq edilməsi haqqında" 2010-cu il 4 iyun tarixli 106-6 nömrəli qərarlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 403 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 4235 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 403 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1557 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 mart tarixli 91 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişiklik təsdiq edilsin (əlavə olunur, məxfi).
2. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan və Almaniya xarici işlər nazirləri regionda normallaşma və sülh prosesini müzakirə ediblər

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniyaya işgüzar səfəri çərçivəsində fevralın 28-də bu ölkədən olan həmkarı Annalena Berbok ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyi, eləcə də Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı vəziyyəti, həmçinin perspektivləri müzakirə olunub.

Annalena Berbok iki ölkə arasında münasibətlərin əhəmiyyətini vurğulayıb, ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməsi münasibətilə təbriklərini çatdırıb.

Ceyhun Bayramov Azərbaycan ilə Almaniya arasında son dövrlər dinamik xarakter daşıması ilə seçilən təmasların məmnunluq doğurduğunu, xüsusilə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində ali səviyyədə aparılan müzakirələrin əhəmiyyətini vurğulayıb.

Almaniyanın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışıqların təşkilində göstərdiyi dəstəyə və təşəbbüsə görə təşəkkür ifadə edilib.

Nazir Ceyhun Bayramov ölkəmizin normallaşma və sülh gündəliyinin irəlilədilməsində qərarlı olduğunu bildirib. Buna baxmayaraq, 5 aya yaxın sürən sabitliyin Ermənistan tərəfindən pozulmasının sülh prosesinə zərbə vurmaq məqsədi daşıdığını diqqətə çatdırıb.

Bununla yanaşı, Ermənistanın Konstitusiyasında və qanunvericiliyində, siyasi və hüquqi proseslərdə ölkəmizə qarşı irəli sürülən ərazi iddialarını, qeyri-konstruktiv mövqe və ritorikasını davam etdirməsinin qəbuledilməz olduğu vurğulanıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar" mövzusunda ictimai dinləmə keçirilib

Fevralın 28-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin və Aqrar siyasət komitəsinin birgə təşkilatçılığı ilə "Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar" mövzusunda ictimai dinləmə keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev və Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov iştirakçıları salamlayıblar və bu dinləmənin keçirilməsi üçün göstərilən dəstəyə və yaradılan şəraitə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkür ediblər.

Komitə sədri Tahir Rzayev deyib ki, bu gün dünyada baş verən iqlim dəyişiklikləri, müharibələr, dövlətlərarası münasibətlərin pozulması su təsərrüfatında və onun idarə olunmasında ciddi problemlər yaradıb və bu problemlər Azərbaycandan da yan keçməyib. Azərbaycanda bu sahədə uğurlu layihələrin həyata keçirildiyini qeyd edən komitə sədri görülən işlərin, nəzərdə tutulan tədbirlərin su təsərrüfatı sahəsindəki problemlərin həllinə böyük inam yaratdığını bildirib.

Komitə sədri Sadiq Qurbanov bu gün dünyanı narahat edən su çatışmazlığı probleminin yaranma səbəblərindən, onun bəşəriyyətə, canlı aləmə və Azərbaycana təsirlərindən söz açıb. Etibarlı su təchizatını yeni minillikdə hər bir ölkənin qarşısında duran strateji məsələ adlandıran komitə sədri su təhlükəsizliyini ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi kimi xarakterizə edib, ölkə Prezidentinin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda su təminatı ilə bağlı həyata keçirilən nəhəng layihələrdən danışıb. O, respublikanın su ehtiyatlarının formalaşması, ölkənin su təsərrüfatının idarə olunması, içməli suya və suvarma suyuna olan tələbatın ödənilməsi, suyun keyfiyyəti və onun təmizlənməsi, suya qənaət edilməsi və ondan səmərəli istifadə barədə fikirlərini bölüşüb.

Sonra mövzu üzrə geniş məruzə ilə çıxış edən Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Azərbaycan dövlətinin ətraf mühitin qorunmasına, iqlim dəyişmələrinin qarşısının alınmasına xüsusi əhəmiyyət verdiyini deyib.

Zaur Mikayılov dünyada baş verən qlobal iqlim dəyişikliklərinin ətraf mühitə və onun ən əsas elementlərindən biri olan su ehtiyatlarına neqativ təsirlərini qeyd edərək, bununla bağlı ölkəmizin qarşısında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su itkilərinin qarşısının alınması, sistemlərin müasir səviyyədə yenidən qurulması, yeni su mənbələrinin yaradılması ilə bağlı çağırışlar ortaya qoyulduğunu bildirib. O, su ehtiyatlarının mühafizəsi və sudan səmərəli istifadə, əhalinin içməli su və suvarma suyu ilə təmin edilməsi və digər bu kimi xidmətlərin yaxşılaşdırılması istiqamətində geniş institusional islahatların həyata keçirildiyini, irimiqyaslı layihələrin icra olunduğunu diqqətə çatdırıb.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva su ehtiyatlarının gələcək proqnozlarının nikbin olmadığını qeyd edərək, su ehtiyatlarından səmərəli istifadə məsələsinin aktuallığını vurğulayıb. O, Azərbaycanda su ehtiyatlarının səmərəli istifadəsinə dair milli strategiya layihəsinin hazırlanması, su ilə bağlı vahid məlumat bazasının yaradılması haqqında məlumat verib. Umayra Tağıyeva alternativ su mənbələrindən istifadə sahəsində də təmsil etdiyi nazirliyin Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Kənd təsərrüfatı nazirinin müavini Sərvan Cəfərov isə qlobal iqlim dəyişmələrinin təsiri nəticəsində su ehtiyatlarının azalmasının aqrar sahənin su təminatında yaratdığı bir sıra çətinliklərdən danışıb. O, su ehtiyatlarından istifadənin və su təsərrüfatının idarə edilməsinin təkmilləşdirilməsi və bu sahədə operativ koordinasiyanın təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış komissiya tərəfindən bu istiqamətdə vacib tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb.

O deyib ki, komissiyanın tapşırıqları əsasında ölkə üzrə aqrar islahatların həyata keçirilən infrastruktur layihələri ilə uzlaşdırılması, su ehtiyatlarının mövcud vəziyyətinin dövri təhlilinin aparılması və tənzimlənməsi sahəsində operativ qərarların qəbul olunması istiqamətində Kənd Təsərrüfatı Nazirliyi ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi arasında qurumlararası koordinasiyalı fəaliyyət təşkil olunub. Eyni zamanda yerlərdə kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün suvarmanın növbəlilik əsasında təşkil edilməsi, sututarların artırılması, qapalı idarəolunan suvarma sistemlərinin təşviq edilməsi ilə əlaqədar mütəmadi işlər aparılır.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini Asim Mollazadə, deputatlar Fəzail Ağamalı, Fatma Yıldırım, Məlahət İbrahimqızı, Jalə Əliyeva, İltizam Yusifov, Azay Quliyev, Rəşad Mahmudov, Aydın Hüseynov, Elnur Allahverdiyev, Rauf Əliyev, Azər Badamov, Sevinc Hüseynova, Tamam Cəfərova, Naqif Həmzəyev, Məşhur Məmmədov, Nəsib Məhəməliyev, Vüqar Bayramov, Emin Hacıyev, Müşfiq Məmmədli, Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin bölmə müdiri Eldar Abdullayev, "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru Pərvanə Vəliyeva çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər, rəy və təkliflərini səsləndiriblər.

Tədbirin yekununda komitə sədri Sadiq Qurbanov və Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dinləmədə qaldırılan məsələlərə münasibətlərini bildiriblər, səsləndirilən suallara aydınlıq gətiriblər.

***"Azərbaycan"***

# Tikinti obyektlərinin su təchizatı sisteminə qoşulmasının hüquqi əsasları təkmilləşdirilir

Fevralın 28-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Sadiq Qurbanov diqqətə çatdırıb ki, gündəliyə 2 məsələ - "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri daxil edilib. "Su təchizatı və tullantı suları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edən komitə sədri sənədlə bağlı birinci oxunuş zamanı ətraflı məlumat verildiyini, qaldırılan məsələlərə aydınlıq gətirildiyini bildirib.

Layihədə tikinti obyektlərinin su təchizatı sisteminə qoşulmasının hüquqi əsaslarının təkmilləşdirilməsi, təklif olunan qoşulma qaydalarının mövcud istehlakçıların hüquqlarının qorunması və keyfiyyətli su təchizatı xidmətinin göstərilməsi üçün sistemin fəaliyyətinin dayanıqlığının artırılması və yüksəldilməsi, sahibkarlıq subyektlərinin su təchizatı və kanalizasiya sisteminə qoşulmasının optimallaşdırılması, vətəndaşlar və digər istehlakçılarla xidmət qurumlarının münasibətlərində şəffaflığın artırılması, həmçinin tariflərin və qoşulma tələblərinin şəffaflığının təmin edilməsi ilə bağlı dəyişikliklər öz əksini tapıb.

Sonra Sadiq Qurbanov "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Bildirib ki, sənəddə nəzərdə tutulan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

Komitə iclasında iştirak edən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov su təsərrüfatı sahəsinin müasir tələblərə uyğun təkmilləşdirilməsinin vacibliyi ilə bağlı fikirlərini açıqlayıb.

Müzakirəyə çıxarılan hər iki qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# XII Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib





Fevralın 28-də Rusiyanın Stavropol diyarının Mineralnıe Vodı şəhərində XII Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Rusiyanın İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilən forumda Azərbaycan və Rusiya tərəfdən dövlət qurumlarının, parlamentlərin, icra hakimiyyəti orqanlarının nümayəndələri, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlar və mətbuat işçiləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, forum işini KOB sahəsində əməkdaşlığa həsr olunmuş B2B və B2G formatlarında görüşlər və müxtəlif istiqamətlər ("Sənaye sektorunda gələcəyin texnologiyaları"; "Rusiya-Azərbaycan ekoloji dialoqu: standartlar, prioritetlər, perspektivlər"; "Sənaye kooperasiyası: aqrar-sənaye kompleksi sahəsində əməkdaşlıq"; "Rusiya Federasiyasının Şimali Qafqaz Federal Dairəsinin və Azərbaycan Respublikasının ixracatçılarının xarici ticarət əməliyyatlarının müasir xüsusiyyətləri") üzrə "dəyirmi masa"larda təşkil olunmuş müzakirələrlə başlayıb.

Forumun yekununda keçirilən plenar iclasda Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putinin forum iştirakçılarına müraciətləri oxunub.

Azərbaycan Respublikasının Prezidentinin müraciətində qeyd olunub ki, qarşılıqlı hörmət və etimada əsaslanan tərəfdaşlığımız praktik olaraq bütün sferaları əhatə edir. Belə formatlarda regionlararası forumlar özünün effektivliyini sübut edib. Bu gün ölkələrimiz arasında ticarət - iqtisadi əməkdaşlıq inkişaf edir, əmtəə dövriyyəsi artır, yeni istiqamətlər üzrə iş aparılır. Forum çərçivəsində nəqliyyat-logistika, sənaye, kənd təsərrüfatı və ekoloji sahələrdə əməkdaşlığın nəzərdə tutulması iki ölkənin regionlararası səviyyədə daha dərin əlaqələrə can atdığını göstərir.

İclasda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev qeyd edib ki, Azərbaycan-Rusiya əlaqələri qarşılıqlı hörmət, mehriban qonşuluq prinsiplərinə əsaslanır və strateji tərəfdaşlıq səviyyəsindədir. O, dövlətlərimizin başçılarının ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına böyük önəm verdiyini və onların həlledici təşəbbüslərinin forumun mötəbər platformaya çevirərək ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində mühüm rol oynadığını bildirib.

Şahin Mustafayev həmçinin qeyd edib ki, 2018-ci ildə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, 2019-cu ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, 2023-cü ildə isə baş nazirlərin Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirakı hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edir.

Cari il yanvarın 22-də imzalanmış "2024-2026-cı illər üçün əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Yol Xəritəsi"nin vacibliyini vurğulayan Şahin Mustafayev bunun ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa töhfə verəcəyini xüsusilə qeyd edib. O əlavə edib ki, yol xəritəsi ticarət-iqtisadi və investisiya qoyuluşu, nəqliyyat, sənaye, aqrar və qida təhlükəsizliyi, enerji, turizm, humanitar və sosial, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı konkret addımların atılmasını nəzərdə tutur.

Diqqətə çatdırılıb ki, Rusiya Azərbaycanın mühüm ticarət tərəfdaşlarından biridir və qeyri-neft məhsullarımızın ixracında birinci yerdədir. 2023-cü ildə Rusiya ilə ticarət dövriyyəsi 17,5 faiz artaraq 4,4 milyard dollara çatmışdır. Həmçinin investisiya sahəsində əməkdaşlıq xüsusilə qeyd edilərək Azərbaycanda Rusiyanın iştirakı ilə böyük investisiya layihələrinin həyata keçirildiyi bildirilib.

Şahin Mustafayev ötən il ölkələrimiz arasında ikitərəfli yükdaşımaların ümumi həcminin 11 faizdən çox artdığını bildirərək, ikitərəfli əməkdaşlığımızın uğurla inkişaf edən və perspektivli sahəsi olan nəqliyyat və tranzit daşımalar sahəsindən danışıb.

Bildirilib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ölkələrimizin əraziləri vasitəsilə Cənubi Asiyadan Avropaya yüklərin daşınması üçün optimal imkanların yaradılmasına yönəlib və 2023-cü ildə dəhlizlə yükdaşımaların həcmi təxminən 17 faiz artıb.

Baş nazirin müavini iki ölkə arasında turizm imkanlarının genişləndiyini diqqətə çatdırıb. Qeyd edilib ki, ötən il Rusiyadan Azərbaycana 625 mindən çox turist səfər edib.

Qısa müddət ərzində Dağıstan Respublikası, Tatarıstan Respublikası, Başqırdıstan Respublikası, Udmurt Respublikası, Həştərxan vilayəti, Perm diyarı, Ryazan vilayəti və Rusiya Federasiyasının digər subyektləri ilə qarşılıqlı səfərlər həyata keçirilib.

Azərbaycan Rusiyanın 80-ə yaxın subyekti ilə iqtisadi və humanitar sahələrdə mühüm əlaqələr qurub, 20 subyektlə iqtisadi-ticarət, elmi-texniki və mədəni sahələrdə qarşılıqlı fəaliyyətə dair sənədlər imzalanıb.

Plenar iclasda həmçinin Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin, Azərbaycan Respublikası Milli Məclisinin Sədrinin birinci müavini Əli Hüseynli, Rusiya Federasiyasının Stavropol diyarı hökuməti sədrinin birinci müavini Andrey Xlopyanov, Rusiya Prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsinin müavini Vladimir Nadıkto, Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, "Kavkaz.RF" ASC-nin baş direktorunun birinci müavini Andrey Tsemaxoviç, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Rusiya Federasiyasının Şimali Qafqaz Federal Universitetinin rektoru Dmitri Bespalov və Azərbaycan Memarlıq və İnşaat Universitetinin prorektoru Nərgiz Abdullayeva çıxış edərək ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə dair fikir və təkliflərini bölüşüblər.

Forum çərçivəsində Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk arasında keçirilmiş görüşdə ölkələrimiz arasında birgə layihələrin həyata keçirilməsi, regionlararası əməkdaşlığın dərinləşdirilməsi potensialı və başqa aktual məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Fevralın 28-də Baş prokuror Kamran Əliyev Qaradağ rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Qaradağ rayonu və respublikanın digər bölgələrindən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 36 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələrə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

❖ ❖ ❖

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev İmişli rayonunda İmişli və Beyləqan rayonlarının sakinlərini qəbul edib.

Qəbul zamanı vətəndaşlar məşğulluq, mənzil və avtomobil təminatı, əlillik, ünvanlı sosial yardım və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb.

Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına cəlb edilmək üçün qeydiyyata alınıblar.

*AZƏRTAC*

# *Müdafiə Nazirliyi:* "Ermənistanın dezinformasiya maşını fəaliyyətini davam etdirir"

Ermənistanın dövlət strukturlarına bağlı bəzi sosial media kanalları Laçın istiqamətində guya bu gün səhər saatlarında baş vermiş hadisə ilə bağlı qeyri-peşəkar şəkildə montaj olunmuş, dezinformasiya xarakterli video paylaşıblar. Bu barədə AZƏRTAC-a Azərbaycanın Müdafiə Nazirliyindən məlumat verilib.

"Təqdim olunan videonun metaməlumatlarının tədqiqi və aparılan qısa araşdırma nəticəsində müəyyən edilib ki, fərqli zamanda və fərqli coğrafi məkanda çəkilmiş videogörüntülərin bugünkü hadisə ilə heç bir əlaqəsi yoxdur", - deyə nazirliyin məlumatında vurğulanıb.

# Beynəlxalq konfransda ölkəmizdə insan hüquqlarının müdafiəsi istiqamətində görülən işlər barədə məlumat verilib



Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Özbəkistan Ali Məclisinin İnsan Hüquqları üzrə Müvəkkili İnstitutunun 29 illiyinə həsr olunmuş "İnsan hüquqları - dövlətlərin davamlı inkişafında mühüm amil" mövzusunda beynəlxalq konfransa onlayn qaydada qoşularaq "Dayanaqlı İnkişaf Məqsədləri çərçivəsində gender bərabərliyinin və əlilliyi olan şəxslərin hüquqlarının təmini" mövzusunda məruzə ilə çıxış edib.

Qurumun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ombudsman ölkəmizdə gender bərabərliyinin təmini, əlilliyi olan şəxslərin, uşaqların, qadınların, habelə əhalinin digər sosial qruplarının hüquqlarının müdafiəsi istiqamətində fəaliyyəti barədə məlumat verib, bu sahədə milli qanunvericilik bazasının formalaşdırılmasının, bir sıra beynəlxalq müqavilələrin ölkə tərəfindən ratifikasiya edilməsinin və aidiyyəti beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin qurulmasının əhəmiyyətini vurğulayıb.

Müvəkkil "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa olunmuş dəyişikliklərə diqqət çəkərək, əlilliyi olan şəxslər, uşaq hüquqları haqqında konvensiyaların həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının təşviqinə və monitorinqinə dair müstəqil mexanizm funksiyalarının yerinə yetirilməsi üzrə yeni səlahiyyətləri haqqında məlumat verib.

Ombudsman fəaliyyətinin təkmilləşdirilməsi sahəsində təsisatda aparılan struktur islahatlarından danışıb, ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində təşəbbüslərin genişləndirilməsi, insan hüquq və azadlıqlarının, eləcə də gender bərabərliyinin, əlilliyi olan şəxslərin hüquqlarının təşviqi, müdafiəsi və monitorinqi sahəsində fəaliyyətin səmərəliliyinin daha da artırılması baxımından mühüm əhəmiyyətə malik olduğunu, bu prosesin davam etdirildiyini bildirib.

Konfransda, həmçinin insan hüquqlarının təmin edilməsində milli insan hüquqları institutlarının parlament və vətəndaş cəmiyyəti ilə əməkdaşlığı, rəqəmsallaşma kontekstində insan hüquqlarının qorunmasının aktuallığı, dayanıqlı inkişaf məqsədlərinə çatmaqda gender bərabərliyinin və əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi, eləcə də əmək münasibətlərinin təminatları və layiqli əmək şəraitinin yaradılması məsələləriylə bağlı fikir mübadiləsi aparılıb.

# Növbəti qayıdış Laçına oldu

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra növbəti milli hədəflərdən biri keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışıdır. Bunun üçün Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi və bölgədə bərpa-quruculuq işlərinin aparılması istiqamətində müvafiq addımlar atılır.







Dövlətimizin imkanları hesabına işğaldan azad edilmiş ərazilərimizdə yeni yaşayış məntəqələri salınır, "ağıllı kənd və şəhər" layihələri reallaşdırılır, infrastruktur bərpa edilir, hava limanları və avtomobil yolları, habelə körpü, tunel, məktəb və xəstəxana tikintisi həyata keçirilir. Bütün bunlar yalnız bir məqsədə - işğaldan azad edilmiş ərazilərimizin yenidən çiçəklənməsinə və keçmiş məcburi köçkünlərin öz yurdlarına qovuşmasına xidmət edir.

Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işləri davam etməklə birlikdə Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin mərhələli şəkildə yurdlarına dönüşü təmin edilir. Ötən ay Prezident İlham Əliyev bildirdi ki, bu il daha böyük sayda keçmiş məcburi köçkünlər dədə-baba torpaqlarına qayıdacaq, daha beş şəhər - Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi və Xocalı şəhərləri sakinlərinə qovuşacaq. "Bu günə qədər görülən işlər göz qabağındadır. Bu haqda çox danışmaq istəməzdim. Sadəcə olaraq, bütün böyük infrastruktur layihələri ilə yanaşı, hesab edirəm ki, əsas nailiyyətimiz odur ki, beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin o yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılması davam edəcək", - deyə dövlət başçısı bildirib. Keçmiş məcburi köçkünlərin Ağdam, Zəngilan və Qubadlı şəhərlərinə qayıdışının 2025-ci ildə nəzərdə tutulduğunu qeyd edən Prezident həmçinin hədəfin 140 min keçmiş məcburi köçkünün öz dədə-baba torpaqlarına qaytarmaq olduğunu da söyləyib.

2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qaytarılması ilə başlayan Böyük qayıdış ötən il də davam etdirildi. Laçın şəhəri, Zabux kəndi, Tərtərin Talış kəndi, Füzuli şəhəri və digər bərpa edilən ərazilər üzrə köç karvanları böyük coşqu ilə bu gün də yola salınır. 2024-cü ilin ilk ayında da işğaldan azad edilən yurdlarımıza dəfələrlə qayıdış köçü oldu. Yanvarın 18-dən etibarən müxtəlif tarixlərdə köç karvanları Füzuli, Laçın şəhərinə yola salındı.

Dünən daha bir köç karvanı da yola düşdü. Bu köç karvanının öncəkilərdən fərqi isə iki istiqamətdə getməsi oldu. Fevralın 28-də Laçın şəhərinə 20 ailə (78 nəfər), Zabux kəndinə isə 4 ailə (11 nəfər) köçürüldü.

Beləliklə, indiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 451 ailə (1705 nəfər) Laçın şəhərinə, 527 ailə (1969 nəfər) Füzuli şəhərinə, 211 ailə (808 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1384 ailə - 5443 nəfər əzəli yurduna qovuşub.

Qeyd etmək lazımdır ki, Böyük qayıdışın birinci mərhələsi 2026-cı ilin sonunda bitəcək. O zamana qədər 34 min 500 ailənin dədə-baba torpaqlarında daimi məskunlaşması təmin ediləcək. Əminik ki, uzun illərdir torpaq həsrəti çəkən vətəndaşlarımız nəzərdə tutulandan da tez yurdlarına qovuşacaqlar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# Azərbaycan hər bir təxribatı dəf etməyə hazırdır

## Yeni savaş olarsa, bu, Ermənistanın tam iflası, havadarlarının isə qəti məğlubiyyəti ilə nəticələnəcək

**İkinci Qarabağ müharibəsindən sonra regionda yaranan yeni reallıqları, o cümlədən Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması üçün əldə olunan razılaşmanı həzm edə bilməyən Qərb bu dəfə başqa "taktika" seçib.**

Azərbaycana qarşı apardıqları istənilən çirkin kampaniyanın uğursuzluğa düçar olduğunu görən dairələr indi də güclərini mətbuata yönləndiriblər. Son həftələrdə Qərb mediasında anti-Azərbaycan isterikasının genişlənməsi bunu deməyə əsas yaradır. Azərbaycanın guya yenidən Ermənistana hücum edəcəyini iddia edən antiazərbaycançı şəbəkə bu yalan iftiralarla ictimai rəyi planlaşdırdıqları təxribata hazırlayır. Qərb mediasında tirajlanan bu cür iddiaların əsas məqsədi isə bu məsələdə informasiya fonunu yaratmaqdır.

Görünən odur ki, İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda təhlükəsizliyin bərqərar olması üçün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində "vasitəçilik" missiyasını üzərinə götürmək istəyən Qərb dairələri, əslində, məkrli planlar hazırlayırmışlar. Bu planlar indi Qərbin "ədalət maskası"nı yırtaraq arxasındakı əsl simanı və məqsədi nümayiş etdirir.

### "Xristian klubları"nın yeni səlib yürüşü

Ümumiyyətlə, istər işğal dövründə, istərsə də müharibədən sonrakı zamanlarda, həmçinin günü bu gün də Fransa açıq-aşkar Ermənistana havadarlığını gizlətməyib və hazırda da bu prosesi davam etdirir. Rəsmi Parisin Ermənistanın silahlandırılması, Nikol Paşinyanın Fransaya səfəri zamanı prezident Emmanuel Makronla keçirdiyi görüşdən sonra hər iki şəxsin səsləndirdiyi iddialar bunu təsdiqləyən reallıqdır.

Qərb mediasında tirajlanan iddialardan görünür ki, Fransa tək deyil. Bəzi dairələr, adını beynəlxalq təşkilat qoyan "xristian klubları" artıq Azərbayana qarşı səlib yürüşünə başlayıblar.

Azərbaycana qarşı həyata keçirdikləri çirkin oyunlara əsaslanıb deyə bilərik ki, Cənubi Qafqazda sülhün təminatı bəzi Qərb dövlətlərinin "maraqlarına" zidd imiş. Bu xüsusda Fransanın timsalında bəzi Qərb dövlətlərinin sərgilədikləri mövqe onu göstərir ki, bu qüvvələr Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlı deyillər.

Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmaması üçün hər cür oyunlara əl atan Qərb, xüsusən də Fransa regionu yenidən "qan çanağına" çevirmək xülyasındadır.

Məğlub Ermənistana gəlincə isə, bu ölkə müstəqillik qazandığı gündən müstəqil siyasət yürütməyib və xarici himayəçilər üçün "forpost" olmağa üstünlük verib. Bu gün Fransanın Ermənistanda yeni hərbi missiya yaratması Parisin açıq şəkildə Ermənistanı yeni müharibəyə hazırlamasından xəbər verir.

### Yeni savaş Azərbaycanın nəyinə lazımdır?!

Qərb mediasının sifarişlər əsasında tirajladığı iftira dolu məlumatlarda, yazılarda ana xətt bundan ibarətdir ki, Azərbaycan konkret olaraq guya yeni savaşa hazırlaşır. Guya iki ölkə arasında sülh sazişinin bağlanmamasında günahkar Azərbaycandır.

Sual yaranır, axı yeni savaş Azərbaycanın nəyinə lazımıdır?! Ərazi bütövlüyünü, suverenliyini tam təmin edən bir ölkə nədən sülh yox, yeni müharibə istəsin?!

Azərbaycan 30 il dünyaya car çəkib sülh istədi. Amma bu gün Azərbaycanı sülhün əldə edilməməsində "səbəbkar" adlandıran, yeni müharibəyə hazırlaşdığını iddia edən Qərb, işğal dövründə Ermənistana qarşı bir sanksiya belə qəbul etmədi. Sözdə Azərbaycanın suverenliyini tanıdıqlarını bəyan edən beynəlxalq təşkilatlar da eyni yolu getdilər. BMT Təhlükəsizlik Şurasının hansısa dövlətlə bağlı qəbul etdiyi qətnaməsinin icrası 24 saat ərzində reallaşdırıldığı halda, Azərbaycanın xeyrinə imzalanmış 4 qətnamə illərlə arxivlərdə qaldı. Hətta yeri düşəndə Azərbaycanın Ermənistanla hədə-qorxu, təhdid dili ilə danışdığını iddia edərək ikili standartlar tətbiq etdilər, qara yaxdılar, ədalətsizliyə əl atdılar. Amma Azərbaycan bunların hamısına sinə gərdi, layiqli cavab verdi və sonunda güc yolu ilə ərazi bütövlüyünü bərpa etdi.

Qalib Komandan kimi İlham Əliyev İkinci Qarabağ müharibəsindən sonra region dövlətlərini yeni formatlı birgə əməkdaşlığa çağırdı və bu, bölgədə təhlükəsizliyin təminatını şərtləndirəcək yeganə yol idi. Çünki Ermənistanla sülh müqaviləsi bağlanacağı halda yaranacaq yeni əməkdaşlıq platformalarının regionun inkişafına müsbət impuls verəcəyi qaçılmazdır. Yəni Azərbaycan savaş deyil, sülh tərəfdarıdır. Azərbaycan öz torpaqlarını işğaldan azad edib və bu gün dünya da görür ki, 30 il ermənilərin viran qoyduqları ərazilərdə Azərbaycan yalnız öz iqtisadi qüdrəti hesabına möhtəşəm layihələr gerçəkləşdirir. İllərlə yurd həsrətində olan vətəndaşlarının dogma el-obasına Böyük qayıdışını təmin edir. Əgər Azərbaycan müharibə istəsəydi, vətəndaşını yenidən savaşın, odun-alovun içərisinə atardımı? Əlbəttə ki, yox.

### İlham Əliyevin Xocalıdan verdiyi mesajlar bəzi dairələrə dərs olmalıdır

Lakin bu gün dünya görür ki, başda Fransa olmaqla Qərb dairələri konkret olaraq bölgəni yeni savaş meydanına çevirmək üçün əlindən gələni etməkdədir. Bunu faktlarla sübut etmək olar. Gəlin diqqət edək:

*Məğub Ermənistan ordusu yenidən silahlandırılır;*

*Hindistanda Fransa lisenziyası ilə istehsal olunan silahlar Hayastana daşınır;*

*Fransız hərbçiləri Ermənistanın piyada və dağatıcı bölmələrinə təlimlər keçir;*

*Azərbaycanla sərhəddə kəşfiyyat məlumatlarının toplanması üçün Aİ "missiyası" yerləşdirilir;*

*Fransa ordusunun generalı sərhədə gəlib müşahidələr aparır;*

*Azərbaycan Ordusunun Zəngilan istiqamətindəki mövqeləri atəşə tutulur;*

*Şərti sərhəddə atəşkəs davamlı pozulur, hərbçimiz yaralanır;*

*Naxçıvan istiqamətində təxribatlara əl atılır;*

*Qərb mediasında Azərbaycanı yeni savaşa hazırlaşmaqda günahlandıran sifarişli yazılar dərc etdirilir.*

Bütün bunlar real faktlardır. Qərb, xüsusən də Fransa regionda sülhün olmasını istəmir, vəziyyət qəsdən gərginləşdirilir və Ermənistanı faktiki olaraq Ukrayna kimi qurban vermək bahasına Cənubi Qafqazda münaqişə ocağının saxlanmasına çalışırlar.

Burada başqa məqsədlər də güdülür. İlk növbədə Nikol Paşinyanın qərbyönümlü siyasətə keçid etməsi onu göstərir ki, artıq bu ölkə hər zaman vassal olduğu Rusiyadan üz döndərir. Elə KTMT-də fəaliyyətinin "dondurulması" barədə qərarın verilməsi də bu ssenarinin tərkib hissəsidir. Burada başqa bir məqsəd isə Ermənistandakı Rusiya hərbi bazasını Fransa bazası ilə əvəz etməkdir.

Göründüyü kimi, Fransa özünü BMT və beynəlxalq prinsiplərə sadiq sivil dövlət kimi yox, irticaçı ölkə kimi aparır və kolonizator simasını gizlətmir.

Amma əminliklə deyə bilərik ki, Qərbin iftiraları, Fransanın hərbi dəstəyi bölgədə qüvvələr balansını dəyişməyəcək, Fransa Azərbaycanın hansı hərbi imkanlara malik olduğunu hələ bilmir. 23 saata ermənilərin 30 il ərzində qurduğu istehkamları məhv etmiş Azərbaycana Fransa və Hindistanın Ermənistana verdiyi texnikanı darmadağın etmək üçün bir neçə saat kifayətdir. Qafqazda ən güclü orduya malik ölkə olan Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da Silahlı Qüvvələrinin daha da modernləşməsi istiqamətində mühüm addımlar atır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, istehsal edilən yerli və xaricdən alınan hərbi texnikalar, silahlar Silahlı Qüvvələrimizin gücünə güc qatır.

Tarixinin ən qüdrətli Azərbaycanı İkinci Qarabağ müharibəsi və antiterror tədbirlərində öz hərbi gücünü dünyaya nümayiş etdirərək Silahlı Qüvvələrinin potensialını, nəyə qadir olduğunu göstərdi. Bəşər tarixində ilk "smart müharibə" aparan dövlət kimi dünya hərb salnaməsinə adını yazdıran Azərbaycan bu gün də Silahlı Qüvvələrini gücləndirir.

Qalib Ali Baş Komandan İlham Əliyevin isə hər bir çıxışı mühüm çağırışlarla, Ermənistana və ona havadarlıq edən dövlətlərə ciddi mesajlarla zəngin olur. Fevralın 26-da Qalib Sərkərdənin Xocalıdan verdiyi mesajlar yəqin ki, Ermənistana və onun havadarlarına, Qərbə dərs olmalıdır: "Yeni yiyə axtarışında olan, onun-bunun qucağına sığınan Ermənistan bilməlidir ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir".

İlham Əliyev bu fikirləri ilə bir daha dünyaya çatdırdı ki, yeni müharibəyə Azərbaycan yox, Ermənistan hazırlaşır. Əgər bu baş verərsə, yenə də əzilən tərəf Ermənistan olacaq və bu ölkə onilliklərlə özünə gəlməyəcək.

Prezident qətiyyətli fikirləri ilə həm də Azərbaycana iftira atan Qərbə mesaj verdi ki, bu gün Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir və hər hansı qeyri-dost hərəkət müsbət nəticələnməməklə yanaşı, adekvat şəkildə cavablandırılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qlobal nüfuzun göstəricisi

**Azərbaycan Respublikası Prezidentinin 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirakı, bu tədbir çərçivəsində qarşı tərəflərin istəyi ilə keçirdiyi çoxsaylı görüşlər ölkəmizin dünyada getdikcə artan qlobal rolunun, eləcə də zəmanəmizin ən parlaq liderlərindən biri kimi cənab İlham Əliyevin özünün şəxsi nüfuzunun göstəricisi oldu.**

### 2 gün ərzində 24 görüş

Uzun illərdir ki, təşkil olunan Münxen Təhlükəsizlik Konfransı bir sıra qlobal məsələlərin müzakirəsi istiqamətində keçirilən ənənəvi tədbirlər içərisində, demək olar ki, ən məşhurudur. Hər il bu tədbirdə Avropa, eləcə də qlobal miqyasda təhlükəsizlik məsələləri nəzərdən keçirilir. Konfransda bir sıra dövlətlərin başçılarının, siyasətçilərin aktual problemlərin həlli ilə bağlı mülahizələri dinlənilir, yekun sənədlər qəbul edilir. Konfrans bütövlükdə "təhlükəsiz dünya" ideyasının reallaşdırılmasına əhəmiyyətli töhfələr verir. Eyni zamanda tədbirə qatılmış siyasi liderlər, dövlət və hökumət rəsmiləri, biznes dünyasının təmsilçiləri, konfrans çərçivəsində görüşüb bir sıra məsələləri müzakirə etmək imkanı qazanırlar.

Azərbaycan Prezidentinə görüş üçün dövlət və hökumət başçılarının, beynəlxalq aparıcı maliyyə mərkəzlərinin, nüfuzlu təşkilatların çoxsaylı müraciətləri Münxen konfransında ölkəmizlə bağlı ən diqqətçəkən məqamlardan idi. Azərbaycan Prezidenti cəmi 2 gün ərzində 24 görüş keçirib. Daha 10 görüş üçün Azərbaycan tərəfinə müraciətlər olsa da, fiziki olaraq vaxt baxımından onları reallaşdırmaq mümkün olmayıb. Qeyd etdiyimiz kimi, belə zəngin qrafik, ölkə rəhbərimizlə görüş və müzakirələrə belə böyük marağın olması Azərbaycanın dünyada getdikcə artan rolundan, Prezident İlham Əliyevin şəxsi nüfuzundan irəli gəlir.

### Milli maraqlarımıza uyğun balanslı siyasət davam etdiriləcək

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidentinin 3 nüfuzlu amerikalı heyətlə - ABŞ-nin Dövlət Departamentinin rəhbəri Entoni Blinkenlə, ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri ilə, ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteynlə görüşü, eləcə də ATƏT-in fəaliyyətdə olan sədri İan Borqla, Almaniya kansleri Olaf Şoltsla, Rokfeller Fondunun baş vitse-prezidenti Eylin Okonnor ilə keçirilən görüşləri, aparılan müzakirələr xüsusilə maraq doğurur. Onu da vurğulayaq ki, bu görüşlərin hər biri Azərbaycanın təşəbbüsü ilə deyil, məhz qarşı tərəfin istəyi ilə baş tutmuşdu.

Məlumdur ki, son aylarda Azərbaycan və ABŞ arasındakı ikitərəfli münasibətlərdə müəyyən tənəzzül vardı. Bunun da məsuliyyəti qətiyyən rəsmi Bakının üzərinə düşmürdü. ABŞ-nin Azərbaycanla əlaqələrə Ermənistanla münasibətlər kontekstində baxması diplomatik münasibətlərdə müəyyən gərginlik yaratmışdı. Azərbaycan ikitərəfli münasibətlərdə olduğu bütün subyektlərin belə bir həqiqəti anlaması istəyindədir ki, ölkəmizin digər ölkələrlə əlaqələrinin Azərbaycan-Ermənistan münasibətlərinə heç bir aidiyyəti yoxdur. İkitərəfli münasibətlərdə heç bir qeyd-şərt, digər ölkələrə istinad olmamalıdır. Belə bir qeyri-adekvat yanaşma münasibətlərə xələl gətirən, qarşılıqlı faydalara əngəl yaradan arzuolunmaz məqamdır.

ABŞ rəsmilərinin artıq bunu anlamaları müsbət haldır. Belə bir anlayış Azərbaycan-ABŞ münasibətlərini əvvəlki intensivliyinə qaytarır və yenidən hər iki tərəf üçün böyük qarşılıqlı faydalar yaradır. Qeyd edək ki, Azərbaycan Prezidentinin Münxendə ABŞ rəsmiləri ilə keçirdiyi görüşlərdən dərhal sonra Azərbaycanın energetika naziri Pərviz Şahbazov ABŞ-yə səfər etdi. Səfər zamanı ikitərəfli enerji əməkdaşlığının inkişaf perspektivləri və ölkəmizin beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi layihələr müzakirə edildi. Bütün bunlar Azərbaycan-Amerika arasında həm energetika, həm də digər sahələr üzrə münasibətlərdə inkişafın olduğunu göstərir.

Münxendə keçirilən görüşlər, aparılan müzakirələr Azərbaycanın Qərblə münasibətləri kontekstində də böyük maraq doğurur. Bəzi təhlilçilər müxtəlif Qərb dairələrinin ərazi bütövlüyümüzün, dövlət suverenliyimizin bərpasından sonra Azərbaycana qarşı qərəzli münasibətinə cavab olaraq göstərdiyi adekvat davranışlara istinadən yanlış iddialarla belə bir rəy yaratmağa çalışırdılar ki, guya ölkəmiz Qərbdən uzaqlaşır, Avropa məkanına inteqrasiya xəttindən geri çəkilir, özünü təcrid etməyə başlayır. Azərbaycanın Davos Forumuna, Münxen Təhlüksizlik Konfransına dəvəti, burada ən yüksək səviyyədə təmsilçiliyi, eləcə də bu tədbirlər çərçivəsində keçirilən görüşlər bir daha göstərdi ki, belə bir yanlış təbliğatın heç bir əsası yoxdur. Azərbaycan dövləti xarici siyasət prinsiplərinə həmişə sadiqdir. Ölkəmiz heç bir məqsədyönlü hədəfindən geri çəkilmək niyyətində deyil və Azərbaycan dövləti bundan sonra da öz milli maraqlarından çıxış edərək balanslı siyasətini davam etdirməkdə qərarlıdır.

Münxen görüşlərinin ölkəmizdə keçirilmiş 7 fevral növbədənkənar prezident seçkisindən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçkidəki mütləq qələbəsindən sonraya təsadüf etməsi də təhlil üçün xüsusilə əhəmiyyətli məqamlardandır. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin məhz seçkidən sonra nüfuzlu Münxen Təhlükəsizlik Konfransına dəvət olunması, dövlət və hökumət başçılarının, mötəbər təşkilatların rəhbərlərinin Azərbaycan Prezidenti ilə görüş üçün çoxsaylı müraciətləri ölkəmizdə keçirilmiş Prezident seçkisinin nəticələrinə münasibətin təzahürüdür.

### Orta güc dövləti

Ümumən Münxen Təhlükəsizlik Konfransının dövlətimiz üçün yaratdığı tarixi mənzərə Azərbaycanın artıq "orta güc" ölkələri sırasında olduğunu və artıq təkcə regional miqyasda yox, qlobal miqyasda pozitiv gündəliyin formalaşmasına mühüm töhfələr verdiyini göstərir. Eyni zamanda yaxın gələcəkdə bu rolun, töhfələrin getdikcə artacağına işarə edir.

"Azərbaycan artıq lokal səviyyədə fəaliyyət göstərən dövlət deyil, dünyanın müxtəlif bölgələrində fəal tərəfdaşlığı təşviq edən, etibarlı tərəfdaş kimi qəbul olunan, dünyada qlobal problemlərin həllində fəal iştirak edən və buna əməli töhfələr verən ölkədir". Münxen görüşləri Azərbaycan Prezidentinin andiçmə mərasimində səsləndirdiyi bu fikirlərin daha bir əyani sübutu oldu.

Bu, bir tarixi reallıqdır. Hazırda Azərbaycanın Ermənistandan başqa heç bir ölkə ilə problemi yoxdur. Azərbaycanın qlobal dünya ilə münasibətləri artıq Ermənistanla münasibətlər üzərində qurulmayıb və bu problem birdəfəlik həll olunub. Ərazi bütövlüyü, dövlət suverenliyi tam bərpa olunmuş Azərbaycan bundan sonra qlobal siyasətdə daha aktiv rol oynayacaq. Prezident seçkisindən dərhal sonrakı dövrün sıx qrafikinə baxmayaraq, cənab İlham Əliyevin Münxenə və Ankaraya səfərləri, keçirdiyi çoxsaylı görüşlər, apardığı əhatəli müzakirələr, verilən bəyanatlar Azərbaycanın yeni dünya düzənindəki getdikcə güclənən rolundan xəbər verir.

### Ermənistan Fransanın təhriki ilə sülh prosesini pozur

Ölkəmizin ərazi bütövlüyünün bərpasından sonra artıq sülh müqaviləsinin imzalanması çox realdır. Bundan ötrü sadəcə olaraq Ermənistanın siyasi iradə göstərməsi tələb edilir. Amma əfsuslar olsun ki, Ermənistanda baş verənlər bu ölkədə sülh üçün hələ də ciddi maneələrin qaldığını göstərir. Fevralın 20-də Qarabağda separatizmin başlanğıcının növbəti ildönümü günündə, artıq tarixin zibilliyinə gömülmüş "Arsax prezidentinin" və "rəsmilərinin" yenidən üzə çıxması, mövcud olmayan "Arsax nümayəndəliyinin" İrəvanda hələ də saxlanması və erməni separatizminin ildönümü günü orada bəzi canlanmanın hiss olunması qarşı tərəfin hələ də sülh üçün özündə siyasi iradə tapa bilmədiyini göstərir.

Artıq reallığa çox yaxın olan sülh o zaman baş tutacaq ki, Ermənistan Azərbaycana qarşı qanunvericilik səviyyəsində iddialarından əl çəksin, mövcud olmayan separatçı rejimin simvolikalarını birdəfəlik kənara atsın.

Əfsuslar olsun ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Fransaya səfəri zamanı davranışı və açıqlamaları Münxendə əldə olunmuş pozitiv siqnallara və irəliləyişə ciddi zərbə vurur. Paşinyan həmişəki kimi bu dəfə də sülh prosesindəki irəliləyişləri məhz Fransa Prezidenti Makronun təhriki ilə pozdu. Bu da Makronun Münxendəki irəliləyişdən ciddi şəkildə narahat olduğunu, bir müddət müttəfiqlik etdiyi Şoltsun indi sülh prosesi istiqamətində təşəbbüs göstərməsini qısqanclıqla qarşıladığını göstərir.

Bütün bunlar Fransanın regionda sülhün olmasını qətiyyən istəmədiyinə, vəziyyəti gərginləşdirmək üçün bütün vasitələrə əl atdığına, Ermənistanı faktiki olaraq Ukrayna kimi qurban vermək bahasına Cənubi Qafqazda münaqişə ocağının saxlanmasına çalışdığına dəlalət edir. Bu cür məkrli addımlarla rəsmi Parisin əsas məqsədi Ermənistandakı Rusiya hərbi bazasını Fransa bazası ilə əvəz etməkdir. Paşinyanın Fransada səfərdə olduğu günlərdə baş verənlərin hamısı, o cümlədən rusiyalı hərbçilərin Yerevan hava limanından çıxarılması, Paşinyanın KTMT-də fəaliyyətlərini dondurduqlarını bildirməsi, Fransanın müdafiə nazirinin Ermənistan üçün ayrılmış hərbi texnika ilə Yerevana səfər edəcəyini deməsi və sairə məhz bu məqsədə yönəlib.

### Azərbaycan tərəddüd etməyəcək

Baş verənlər Fransanın Rusiyanın Ermənistandakı bazasının çıxarılması və əvəzində fransız bazasının yerləşdirilməsi planından İranın kəşfiyyat orqanlarının da məlumatlı olduğunu və rəsmi Tehranın bundan narahatlığını göstərir.

Bu davranışlarla Fransa özünü BMT və beynəlxalq prinsiplərə sadiq sivil dövlət kimi yox, irticaçı ölkə kimi aparır və kolonizator simasını gizlətmir. Azərbaycana qarşı bütün addımları nəticəsiz qalan və Müzəffər Ali Baş Komandan İlham Əliyevə faktiki məğlub olan Makron indi Ermənistanı yeni müharibəyə hazırlaşdırmaqla əvəz çıxmağa can atır. Amma bu cəhdlərin hamısı əbəsdir. Fransanın Erməstana hərbi dəstəyi bölgədə qüvvələr balansını dəyişən deyil. Fransa Azərbaycanın hansı hərbi imkanlara malik olduğunu da hələ bilmir. Cəmi 23 saata ermənilərin 30 il ərzində qurduqları bütün istehkamları məhv etmiş Azərbaycan Ordusuna Fransa və Hindistanın Ermənistana verdiyi bütün texnikanı darmadağın etməkdən ötrü cəmi bir neçə saat vaxt lazımdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də bildirdiyi kimi, dövlətimiz hər hansı təhdid hiss etsə, tərəddüd göstərmədən məhv edəcək. Bunu Ermənistanı yenidən yanlış yola çəkənlər, öz oyunlarında alətə çevirənlər, bölgəmizi qan çanağına döndərmək istəyənlər də anlamalıdırlar.

Bu il ölkəmiz möhtəşəm bir tədbirə evsahibliyi edəcək. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası Bakıda keçiriləcək. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti ilə keçirilən bütün görüşlərin əsas müzakirə mövzularından birinin də COP29 olması bu tədbirin qlobal önəmindən xəbər verir. COP29 Azərbaycanın dünyaya verdiyi pozitiv gündəlikdir və bu tədbirin uğurla baş tutması ölkəmizin yeni dünya düzənindəki mövqeyini daha da genişləndirərək möhkəmləndirəcəkdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Azərbaycan Fransanın əsarətindəki xalqların azadlıq carçısına çevrilib

### Müstəmləkəçi ölkə beynəlxalq səviyyədə ifşa olunur

Fransanın günümüzdə də kolonializm siyasətini davam etdirməsini, müstəmləkəsi altında saxladığı xalqların fundamental hüquqlarını kobud şəkildə pozmasını, azadlıq istəyənləri həbs etməsini, öldürməsini Azərbaycan beynəlxalq səviyyədə ifşa edir.



Tarixi soyqırımlar üzərində qurulan Fransanın "demokratiya " adı ilə ölkələrə soxularaq onları əsarətdə saxlamasını, insanlarından kölə kimi istifadə etməsini, müstəqillik arzularını boğmasını faktlarla dünyaya göstərir. Təkzibedilməz şəkildə sübuta yetirilir ki, yüzilllər ötsə də, nə yazıq ki, Fransa kolonializmi yeni üsullarla davam etdirir.

2023-cü il oktyabrın 23-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubunda Prezident İlham Əliyev də bu məqama toxunaraq, Azərbaycanın XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından narahatlığını dilə gətirmişdi: "Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır".

#### Mütəşəkkil mübarizə

Azərbaycan 2019-cu ildə Qoşulmama Hərəkatı ölkələrinin yekdil dəstəyi ilə hərəkata sədrliyi qəbul etdiyi dövrdən etibarən Bandunq prinsiplərinə uyğun olaraq aktiv formada neokolonializmə qarşı mübarizə aparır, azad olmağa çalışan xalqları dəstəkləyir, neokolonializmlə mübarizə mövzusunu müxtəlif platformalar vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır.

Qeyd edək ki, ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupu yaradılıb. BTQ XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir.

Bununla əlaqədar, BTQ ötən il sentyabrın 22-də ABŞ-nin Nyu York şəhərində yerləşən BMT-nin mənzil qərargahında "Dekolonizasiya: Sakit İnqilab" adlı konfrans keçirib. Tədbirdə müstəqillik və millətçi hərəkatlarının nümayəndələri Fransa müstəmləkəçiliyindən tam azad olunanadək və müstəmləkəçiliyin kökünün kəsilməsinədək mübarizələrini davam etdirəcəklərini bəyan ediblər.

2023-cü ilin oktyabrında BTQ-nin təşkilatçılığı ilə Bakıda keçirilən "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" adlı beynəlxalq konfransda 14 ölkənin, eləcə də Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərin, həmçinin Korsikanın təmsilçiləri iştirak ediblər.

#### Bakı Təşəbbüs Qrupu petisiya başladıb

2024-cü il fevralın 24-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə İstanbulda "Dekolonizasiya: İntibahın oyanışı" mövzusunda konfrans keçirilib. Beynəlxalq konfransın yekunlarına dair yayılan kommünikedə bildirilib ki, İstanbul konfransı bir tərəfdən kolonializmdən əziyyət çəkən xalqlarla həmrəyliyin nümayiş etdirilməsinə töhfə verdi, digər tərəfdən isə Fransanın kolonial gücünə qarşı mübarizə aparmaq məqsədi daşıyan siyasi fəaliyyət çərçivəsinin təsis edilməsinə imkan yaratdı. Məlumat verildi ki, Bakı Təşəbbüs Qrupu Beynəlxalq Ədalət Məhkəməsində Kanaki - Yeni Kaledoniyaya dəstək verəcək.

BTQ İstanbulda keçirtdiyi konfransın ardınca vətəndaş cəmiyyəti təşkilatları adından beynəlxalq kampaniya başladıb. Petisiyada Fransa Prezidenti Emmanuel Makrona müraciət edilərək, Fransanın Afrikadan oğurladığı 90 mindən artıq maddi-mədəni əsərin mənşə ölkələrinə qaytarılması tələb olunur.

Afrika ölkələrindən müstəmləkə dövründə oğurlanmış, talan edilmiş 90 mindən çox mədəni sərvət hazırda Fransa muzeylərində nümayiş olunur. Sahara regionu ölkələrindən oğurlanmış tarix və mədəniyyət əşyalarının aqibəti isə bəlli deyil.

E.Makron 2017-ci ildə Afrikalı gənclərlə görüş zamanı bildirib ki, Afrikanın mədəni sərvətləri Afrikada sərgilənməlidir və 5 il müddətində hər bir mədəni, tarixi əşyanın geri qaytarılacağına söz vermişdi. Həmin vaxtdan 7 il keçməsinə baxmayaraq, Makron vədinə əməl etməyib.

Həmçinin sənəddə bildirilir ki, Parisin Quai Branly Muzeyində sərgilənən 70 min artifaktın üçdəikisinin 1885-1960-cı illərdə Afrikadan oğurlanmış mədəni mülkiyyət nümunələri olması barədə araşdırmalar mövcuddur: "Bakı Təşəbbüs Qrupu tələb edir ki, Fransa hökuməti qanunvericiliyinə dəyişiklik etməli, oğurladığı artefaktları mənbə ölkələrinə geri qaytarmalı və qanunsuz mülkiyyətçi kimi tarixi əsərlərin qanuni mülkiyyətçisi olan ölkələrə təzminat ödəməlidir".

#### Fransanın utancverici əməlləri

Fransa Sakit və Atlantik okeanlarında dənizaşırı icma və ərazilərində yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmir, bu arzuların reallaşmasının qarşısının alınmasına mane olur.

Qvadelupa əhalisi dörd əsrdir ki, Fransanın əsarəti altında yaşayır. Ölkədə müstəqillik tərəfdarı olanlar Fransa tərəfindən öldürülür və onların sayı əhaliyə açıqlanmır.

Martinikanın təbii sərvətləri talan olunaraq 90 faizi Fransaya və digər ölkələrə aparılır, Fransız Qvianası Fransanın müstəmləkəçilik siyasəti nəticəsində maliyyə və iqtisadi cəhətdən asılı vəziyyətə salınıb, qızıl mədənləri talan edilir, qızılı çıxarılaraq Fransaya daşınır. İllər boyu Korsikanı müstəmləkə altında saxlayaraq burada cinayətlər törədən əliqanlı Fransa müstəqillik istəyənləri həbs edib, ya da öldürüb. Fransanın əsarətində boğulan korsikalılar bütün beynəlxalq təşkilatlardan Korsikanın suverenliyinin təmin olunması üçün kömək istəyirlər.

Fransa Qəmər Adaları İttifaqının Mayot adası üzərində suverenliyini tanımaqdan imtina edir.

Yeni Kaledoniyada əhalinin yarısının iştirakı olmadan referendum keçirilir və bu minvalla Yeni Kaledoniya xalqının müstəqil olmaq hüququ əlindən alınır.

#### Bu aksiyada da Azərbaycan bayrağı dalğalandırılıb

Buna görə də Yeni Kaledoniya xalqı azadlıq tələbi ilə etirazlar edir. Bu il fevralın 21-də Fransanın daxili işlər və dənizaşırı naziri Gerald Darmaninin Yeni Kaledoniyaya səfəri zamanı da burada etiraz aksiyası keçirilib. Aksiya zamanı Yeni Kaledoniyanın müstəqilliyi uğrunda mübarizə aparan bir neçə fəal Fransa polisi tərəfindən həbs edilib. Fransanın müstəmləkəçilik siyasətinə qarşı növbəti etiraz aksiyası isə fevralın 27-də Yeni Kaledoniyanın paytaxtı Numeada məhkəmə qarşısında keçirilib. Etirazçılar Fransa hakimiyyəti tərəfindən saxlanılmış fəalların azadlığa buraxılmasını tələb ediblər.

"Siyasi Məhbuslara Azadlıq" başlıqlı bəyanat yayılan aksiyada da həmişə olduğu kimi, ölkəmizə hörmət əlaməti olaraq Azərbaycan bayrağı dalğalandırılıb.

Göründüyü kimi, Azərbaycan Fransanın müstəmləkəçilik siyasətini beynəlxalq tribunalarda ifşa edir və neokolonialist ölkənin əsarəti altında inləyən xalqların azadlığı uğrunda bütün platformalarda mübarizə aparır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Ermənistan Fransa kəşfiyyatının tam nəzarətinə keçir

Ermənistanın baş naziri Nikol Paşiynanın bir neçə gün əvvəl Fransaya baş tutan səfəri zamanı Ermənistan və Fransanın kəşfiyyat xidmətləri arasında sıx tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılıq əldə olunub.

Bu barədə özünün teleqram kanalındakı hesabında məlumat verən rusiyalı tanınmış siyasi-hərbi analitik İqor Korotçenko bildirib ki, razılaşmaya əsasən, Fransa Müdafiə Nazirliyinin Xarici Təhlükəsizlik Baş İdarəsi tərəfindən əldə olunan siyasi və hərbi xarakterli kəşfiyyat məlumatları Ermənistana ötürüləcək. Razılaşmaya əsasən, Fransa Ermənistana Azərbaycan, Türkiyə, İran və Rusiya üzrə alınan məlumatları ötürəcək. Fransanın məqsədi Ermənistanı müdafiə etmək yox, əslində, Cənubi Qafqazda möhkəmlənmək və kolonialist siyasətini həyata keçirməkdir. Afrikadan qovulan Fransa bu niyyətini reallaşdırmaq üçün Ermənistana göydəndüşmə imkanı kimi baxır. Xüsusən son aylarda ermənidən daha çox ermənilik edən Makronun məqsədi bu yolla həm özünün son dərəcə aşağı düşmüş reytinqini yüksəltmək, həm də Fransanın zəifləyən qlobal mövqelərini möhkəmləndirməkdir. Fransanın Ermənistanı Azərbaycana qarşı müharibəyə hazırlamaq üçün bütün variantlara, hərbi təxribatlara əl atması bundan irəli gəlir.



Kəşfiyyat orqanları arasında razılaşma isə sıradan məsələ deyil. Təbii ki, bu razılaşma Ermənistanın strateji hərbi tərəfdaşı olan Rusiya siyasi dairələrində isti qarşılana bilməzdi. Üstəlik, Moskvada onu da nəzərə alırlar ki, Fransa həm də Rusiya ilə bağlı məlumatları Ermənistana ötürməyi planlaşdırır. Bu mənada Fransa və Ermənistan arasında kəşfiyyat xidmətləri arasında sıx tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılaşmanın, ilk növbədə, Rusiyaya qarşı yönəldiyi ortadadır və bu, Fransanın Ermənistanda öz hərbi kontingentini yerləşdirmək üçün etdiyi növbəti gedişlərdən biridir.

Məlumdur ki, Fransanın Ermənistanda öz hərbi birliklərini yerləşdirmək arzusunun qarşısını kəsən maneə Rusiyadır. Bu maneəni aradan qaldırmaq üçün rəsmi Paris uzun müddətdir müxtəlif siyasi-hərbi manevrlər edir. Fransanın Ermənistana Avropa İttifaqının missiyasını göndərməsi, bir neçə gün əvvəl baş nazir N. Paşinyanın Makronun təhriki ilə Azərbaycanın Ermənistana hücum edəcəyini deməsi, Ermənistanın KTMT-də fəaliyyətini dondurduğunu bəyan etməsi Rusiyanın Ermənistandakı hərbi iştirakına son qoyulması məqsədinə xidmət edir.

Fransanın müdafiə nazirinin Ermənistan üçün ayrılmış hərbi texnika ilə Yerevana səfər edəcəyini söyləməsi, Ermənistan parlamentinin sədri Alen Simonyanın "Rusiya sərhədçiləri İrəvanın Zvartnots hava limanında xidmətini dayandırmalıdır" deməsi də Fransanın Ermənistanda yerləşmək məqsədilə apardığı təbliğatın tərkib hissələridir. Bütün bunların fonunda Fransa siyasi dairələri ictimai rəyə belə bir fikri sırımağa çalışırlar ki, Azərbaycan Ermənistana hücum etsə, Rusiya seyrçi mövqedə qalacaq.

Fransanın Rusiyanın Ermənistandakı bazasının çıxarılması ilə bağlı cəhdi barədə İranın da məlumatı var və rəsmi Tehran bundan dərin narahatçılıq keçirir. Təsadüfi deyil ki, bir neçə gün əvvəl Ermənistan baş nazirinin müavini Mher Qriqoryanın başçılıq etdiyi nümayəndə heyətinin İrana səfəri olduqca gərgin keçib.

Digər tərəfdən o da sirr deyil ki, kəşfiyyat sahəsində tərəfdaşlıq adı altında Fransa Ermənistanı öz kəşfiyyatının tam nəzarətinə keçirmək məqsədi güdür. Görünən həm də odur ki, Paris Ermənistanı faktiki olaraq Ukrayna kimi qurban vermək bahasına da olsa, burada öz riyakar maraqlarını realizə etmək istəyir. Ermənistan rəhbərliyi isə bu reallığı dərk etmək qabiliyyətindən uzaqdır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Bakı Təşəbbüs Qrupu Fransanın iç üzünün açılmasında önəmli rol oynayacaq

Bakı Təşəbbüs Qrupu İstanbulda keçirdiyi "Dekolonizasiya: İntibahın oyanışı" adlı konfransın ardınca vətəndaş cəmiyyəti təşkilatları adından beynəlxalq kampaniya başladıb.

Petisiyada Fransa Prezidenti Emmanuel Makrona müraciət edilərək bu ölkənin Fransanın Afrikadan oğurladığı 100 minə yaxın maddi-mədəni əsərin mənşə ölkələrinə qaytarılması tələb olunur.

Eyni zamanda Fransa hökumətindən qanunvericiliyinə dəyişiklik etmək, qanunsuz mülkiyyətçi kimi tarixi əsərlərin qanuni mülkiyyətçisi olan ölkələrə təzminat ödəməsi istənilir.

Milli Məclisin deputatı Vüqar İsgəndərov mövzu ilə əlaqədar "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, Bakı Təşəbbüs Qrupunun İstanbulda keçirilmiş konfransından sonra vətəndaş cəmiyyəti təşkilatlarının adından petisiya başladılıb və Fransa Prezidenti Emmanuel Makrona müraciət edilib.



Deputat qeyd edib ki, petisiyada Fransanın Afrikadan oğurladığı 100 minə yaxın maddi-mədəni əsərin oğurlandığı ölkələrə qaytarılması tələb olunur: "Afrika ölkələrindən müstəmləkə dövründə qarət edilmiş 100 minə yaxın mədəni sərvət Fransa muzeylərində saxlanılır. Saxara region ölkələrindən oğurlanmış mədəniyyət nümunələrinin aqibətindən isə bu günə qədər xəbər yoxdur. Xatırlayırıq ki, Makron 2017-ci ildə afrikalı gənclərlə görüşündə bu ölkənin mədəni sərvətlərinin Afrika muzeylərində sərgilənməli olduğunun vacibliyini bildirmiş və söz vermişdi ki, 5 il müddətinə bu nümunələr geri qaytarılacaq. Amma bu günə qədər heç bir əsər geri qaytarılmayıb. Həmişə olduğu kimi, Makron yenə yalan danışıb, vədinə əməl etməyib".

Deputat bildirib ki, Fransanın bir çox muzeylərində sərgilənən bu mədəni, tarixi sərvətlərin Afrika ölkələrinə mənsub olduğu haqda hamının məlumatı var. Hər yerdə oğurlanmış sərvətlərin geri qaytarılmalı olduğu qeyd edilir. Burada maraqlı məqam odur ki, Fransa keçmiş müstəmləkələrindən oğurladığı mədəniyyət nümunələrini geri qaytarmamaq üçün qanunvericilikdə bununla bağlı qaydaları dəyişib. Yəni bu qiymətli əşyaların, əsərlərin geri qaytarılmasına yaradılan süni əngəllər daha da sərtləşdirilib. Paris müxtəlif yollarla artefaktların geri qaytarılmasının qarşısını alır.

Vüqar İsgəndərov Bakı Təşəbbüs Qrupunun Fransanın qanunvericiliyinə mütləq dəyişiklik etməsini və oğurladığı artefaktları öz mənbə ölkələrinə qaytarmasını tələb etdiyini xatırladaraq bildirib ki, petisiyada həmin ölkələrə təzminat ödənməli olduğu da diqqətə çəkilir. "Petisiyanın əsas məqsədi budur. Fransa koloniya siyasəti ilə milyonlarla insanı soyqırıma məruz qoyub, müstəmləkədə saxladığı ölkələrin yeraltı, yerüstü sərvətlərini talaması ilə bərabər mülkiyyət sahibi olan ölkələrin maddi-mədəni nümunələrini də oğurlayıb", - deyə o əlavə edib.

Deputat Bakı Təşəbbüs Qrupunun Fransanın bu baxımdan iç üzünün açılmasında çox önəmli rol oynayacağını vurğulayıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Erməni caniləri törətdikləri cinayətlərə görə cavab verəcəklər

"Ermənistan 30 illik işğalçılıq siyasəti dövründə saysız-hesabsız cinayətlər törədib. Bu cinayətlər arasında Birinci Qarabağ müharibəsi dövründə 4 minə yaxın azərbaycanlının itkin düşməsi və onlara qarşı qeyri-insani rəftarları xüsusi yer tutur. Ermənistanın beynəlxalq cinayətkar olmasını fevralın 21-də Xocalıda aşkarlanan kütləvi məzarlıq da sübut edir".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olunduqdan sonra erməni vəhşiliyi yeni faktlarla ortaya çıxır. İşğaldan azad edilmiş ərazilərimizdə kütləvi məzarlıqların aşkar edilməsi də bunu təsdiqləyir. İlk olaraq Fərrux yüksəkliyində, Daşaltı kəndində, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqlar aşkar edildi. Daha sonra, Kəlbəcərin Başlıbel kəndində, Şuşa türməsinin ərazisində, Ağdam rayonunda, Kəlbəcərdə belə məzarlıqlar üzə çıxarıldı. Bu yaxınlarda isə Xocalı soyqırımının qurbanlarının bir hissəsinin kütləvi basdırıldığı ərazi aşkarlandı. Bütün bunlar erməni vandalizminin göstəriciləridir. Dəhşətlisi həm də odur ki, kütləvi məzarlıqda aşkar olunan cəsədlərdə zorakılıq halları aşkar olunub, insanların əli qandallı basdırıldıqları müəyyən edilib. Bütün bunlar ermənilərin insanlığa qarşı cinayətləridir. Müvafiq qurumlar DNT analizi vasitəsilə həmin cəsədlərin kimə məxsus olduğunu aydınlaşdıracaqlar".



Deputatın sözlərinə görə, Birinci Qarabağ müharibəsində 3890 vətəndaşımız Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. 2024-cü il yanvarın 1-nə olan məlumata əsasən, onlardan yalnız 25 nəfərinin qalıqları eyniləşdirilib. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə bu istiqamətdə davamlı işlər aparılır. Bu günlərdə Xocalı soyqırımının qurbanı olan bir neçə nəfərin cəsədlərinin kütləvi məzarlıqda aşkarlanması da bunu təsdiqləyir.

Sevinc Fətəliyeva qeyd edib ki, insanlığa qarşı törədilən bu cinayətlər cəzasız qalmamalıdır və qalmır. 44 günlük Vətən müharibəsində xalqımıza qarşı cinayətlər törətmiş ermənilərin bir qismi öz cəzalarını aldılar. Eləcə də, ötən ilin sentyabr ayında Qarabağda keçirilmiş antiterror tədbirləri zamanı separatçılar diz çökdürüldü, onların başçıları həbs olunaraq Bakıya gətirildilər. Bu canilər törətdikləri cinayətlərə görə cavab verəcəklər.

"Lakin minlərlə azərbaycanlının taleyi haqqında hələ də məlumat yoxdur. Ermənistan tərəfi bu məlumatları verməlidir. Ermənistana öz öhdəliklərini yerinə yetirmək üçün beynəlxalq səviyyədə təzyiq göstərilməlidir. Çünki itkin düşmüş azərbaycanlıların taleyi haqqında məlumat vermək rəsmi İrəvanın üzərinə götürdüyü öhdəliklər sırasındadır. Bununla belə, itkin düşmüş həmvətənlərimizin taleyi ilə bağlı dövlətimiz bütün imkanlardan istifadə edir", - deyə deputat vurğulayıb.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransa Ermənistana çox böyük ümidlər verir

"Bütün reallıqlar onu göstərir ki, Qərb Ermənistana, onun niyyətlərinə dəstək olmaqdadır. Ermənistanın alət rolunda çıxış etməsi və Qərb ölkələrinə Cənubi Qafqaz regionuna müdaxilə imkanları yaratmağa çalışması region üçün çox təhlükəlidir".



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, Qərb üçün Ermənistanın niyyətinin nə olduğu çox da maraqlı deyil, sadəcə olaraq, Hayastandan məqsədləri üçün istifadə etdiyinə görə onları dəstəkləyir. Ermənistan Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edir və bu iddialarından geri çəkilmək niyyətində deyil. Azərbaycanla sülh müqaviləsi imzalamaq niyyətində olmayan Ermənistanın təhlükəli istəklərinə çatması üçün ona Qərbdən dəstək gəlməsi gələcəkdə regionda vəziyyəti yenidən gərginləşdirə bilər.

E.Mirbəşiroğlu bildirib ki, Avropa Ermənistanın Azərbaycana qarşı davamlı olaraq təxribatlar törətdiyini yaxşı bilir. Amma görünür ki, mahiyyət etibarilə bu, Qərbi çox da maraqlandırmır və bu mənada Fransa Ermənistanı həm hərbi, həm siyasi təxribatlarında dəstəklədiyini aşkar şəkildə nümayiş etdirir. "Fransanın müdafiə naziri tarixdə ilk dəfə olaraq Ermənistana səfər edir və onlara hər cür dəstək verəcəklərini bildirir. Bundan əvvəl o öyünərək qeyd etmişdi ki, erməni həmkarı ilə ən çox ünsiyyətdə olan Fransa müdafiə naziridir. Bu, ondan xəbər verir ki, Fransa Ermənistanı sistemli şəkildə silahlandırır. Təbii ki, bu silahlandırma həm də Parisin hərbi cəhətdən Cənubi Qafqazda öz mövcudluğunu təmin etməsi ilə nəticələnə bilər", - deyə o əlavə edib.

Ermənistanın NATO ilə fəal əməkdaşlığından söz açan deputat xatırladıb ki, Avropa İttifaqının mülki missiyası da bu ölkə ərazisində fəaliyyət göstərir. O missiyanın adı sadəcə olaraq mülkidir, əsas fəaliyyəti bütövlükdə regiona nəzarət etməkdən ibarətdir. Bu da regionla bağlı digər təhlükəli addımların atılacağına bir işarədir. Hindistan da Ermənistanla hərbi-texniki sahədə fəal əməkdaşlıq etməkdədir. Amma maraqlı fakt ondan ibarətdir ki, Hindistanın Ermənistana ötürdüyü silahlar məhz Fransa lisenziyası əsasında hazırlanır, yəni burada da Parisin birbaşa iştirakı göz önündədir. Bütün bunlar onu göstərir ki, Ermənistan Azərbaycana qarşı yenidən revanş etmək istəyir. Bu ölkə hər vasitə ilə sülh sazişini imzalamaqdan yayındı, üzərinə götürmüş olduğu öhdəliklərin heç birini yerinə yetirmədi. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməni Azərbaycan icra etdiyi kimi, birgə bəyanatın şərtlərini də dövlətimiz özü icra etdi. Ölkəmiz antiterror tədbirləri həyata keçirərək Ermənistan silahlı birləşmələrini ərazilərimizdən qovdu.

Deputat vurğulayıb ki, Paşinyanın Fransada Azərbaycanla Ermənistan arasında sülh mümkünsüzdür deməsi Ermənistanın ölkəmizə qarşı savaşa hazırlandığını bir daha sübut edir: "Artıq Paşinyan bu cəsarəti özündə tədricən hiss edir. Həm də belə nəticə çıxara bilərik ki, Qərb dairələri Ermənistana çox böyük ümidlər verir. Biz bunu ötən zaman ərzində Amerika Birləşmiş Ştatları Konqresinin mövqeyində, Avropa Parlamentində aparılan qərəzli müzakirələr zamanı da gördük. Fransa parlamentinin mövqeyi isə lap başlanğıcdan bəlli idi. Həm də bir məsələni qətiləşdirmiş olduq. Fransa elə ATƏT-in Minsk qrupunun həmsədri qismində də Ermənistanın dəstəklənməsi üçün əlindən gələni edirdi. Münaqişə vəziyyətinin aradan qalxmaması istiqamətində Fransanın daim fəallıq nümayiş etdirməsi Ermənistana aşkar dəstək idi. Çünki Ermənistan status-kvo vəziyyətinin qalmasında maraqlı idi ki, zamanla Azərbaycan torpaqlarının hüquqi mənsubiyyətini dəyişdirərək Ermənistana birləşdirsin".

Müsahibim qeyd edib ki, Qərb bir qayda olaraq Ermənistan kimi dövlətlərdən istifadə edir və belə ölkələr sonda daha acınacaqlı vəziyyətə düşürlər. Ermənistan ordusu məğlub vəziyyətdədir, Azərbaycanla heç cür müharibə apara bilməz. Çünki müharibəni aparmaq üçün güclü ordusu yoxdu. Ayrıca olaraq, Ermənistan ordusunda, sözün əsl mənasında, xaos hökm sürür, nizami ordu haqqında danışmaq, ümumiyyətlə, mümkün deyil. Belə olan halda Azərbaycana qarşı kiçik hərbi təxribatlar Ermənistan üçün çox ağır başa gələcək. Görünən odur ki, Ermənistanın aqibəti digər ölkələr kimi Qərbi də çox maraqlandırmır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Parisin məkri İrəvanı məhvə sürükləyir

**Prezident İlham Əliyevlə Nikol Paşinyan arasında fevralın 17-də Münxendə keçirilmiş görüş iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində müəyyən pozitiv ab-hava yaratmışdı. Lakin bu görüşdən sonra Ermənistan baş nazirinin Fransaya səfəri zamanı verdiyi açıqlamalar sülhün əldə olunması səylərinə zərbə vurdu.**



Həmin vaxt Paşinyan "France 24" telekanalına verdiyi müsahibədə yenidən əsassız iddialar səsləndirərək, guya Azərbaycanın Ermənistana hücuma keçməyə hazırlaşdığını, ölkəmizin beynəlxalq hüququn prinsiplərinə əməl etmədiyini bildirdi. Əslində, Münxen görüşündən sonra Ermənistanın baş naziri iki ölkə arasındakı münasibətlərin normallaşdırılması ilə bağlı nikbin danışmalı idi. Lakin Paşinyan məhz Fransa prezidenti Emmanuel Makronla görüşdən sonra yenidən cəfəng fikirlər söyləyərək sülh prosesinə zərbə vurdu. Başqa cür desək, bu dəfə də sülh prosesi ilə bağlı yaranan əlverişli mühit Fransa prezidentinin təhriki ilə pozuldu.

Ümumiyyətlə, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı təşəbbüslərin reallaşmasını ölkəmizi ittiham edən müxtəlif bəhanələrlə əngəlləyən Fransanın Münxen görüşündən sonra da prosesi pozmağa çalışacağı gözlənilən idi. Münxendən sonra Paşinyanın Fransanın tələbi ilə dərhal Parisə səfər edərək hesabat verməsi də göstərdi ki, Makron Almaniyada keçirilmiş görüşdən razı qalmayıb və danışıqlar prosesinin müsbət məcraya yönəlməsindən narahatdır. Üstəlik, görünən odur ki, Fransa prezidenti kansler Şoltsun sülh prosesi istiqamətində təşəbbüs göstərməsini qısqanclıqla qarşılayıb və bu, Almaniyanın səylərinə həm Makron, həm də Paşinyan tərəfindən edilən böyük hörmətsizlikdir.

Azərbaycanın Ermənistana qarşı hücuma hazırlaşmasını iddia etmək beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır. Bununla Fransa Azərbaycana qarşı törətməyi planlaşdırdığı hərbi təxribatla əlaqədar öz maraqlarına uyğun informasiya mühiti formalaşdırmağa çalışır. Əlbəttə, Fransa nə etsə belə, öz məkrinə çata bilməyəcək. İlk növbədə Fransanın səmimi olmadığı bütün dünyaya məlumdur.

Digər tərəfdən, Fransanın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasının qarşısını almaq üçün Ermənistana göstərdiyi hərbi dəstəyi bölgədə qüvvələr balansını dəyişməyəcək. 44 günə Ermənistanı dizüstə qoyan, 23 saata erməni separatizmini darmadağın edən Azərbaycana Fransa və Hindistanın Ermənistana verdiyi texnikanı darmadağın etmək üçün çox qısa bir zaman kifayətdir. Prezident İlham Əliyev bununla bağlı xəbərdarlığını edərək bildirib: "Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürəkdirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik".

Fransanın regionda sülhün əldə olunmaması, vəziyyətin gərginləşdirilməsi üçün dəridən-qabıqdan çıxdığı ortadadır. Bu isə məhz Ermənistanın ziyanına olacaq. Çünki Parisin məkri İrəvanı məhvə sürükləyir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



## Yeni Kaledoniyada Fransa müstəmləkəçiliyinə qarşı mübarizə güclənir

Fevralın 27-də Yeni Kaledoniyanın paytaxtı Numeada Fransanın müstəmləkəçilik siyasətinə qarşı növbəti etiraz aksiyası keçirilib. Bu, bir daha sübuta yetirir ki, Fransa müxtəlif xalqların azadlıq arzusunu boğmaqla müstəmləkəçilik siyasətini davam etdirir.



Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Aydın Hüseynov deyib ki, artıq iki əsrə yaxındır ki, Yeni Kaledoniya xalqı Fransanın ağır müstəmləkəçilik siyasətindən əziyyət çəkir: "Orada yaşayan kanak və digər etnik xalqlar müstəqillik mücadiləsi aparırlar. Təəssüf ki, Fransa hökuməti onların səsini eşitmək istəmir, kanak xalqına məxsus torpaqları istismar edir, bu xalqın taleyini sual altında qoyaraq Yeni Kaledoniyanın - kanakların institusional gələcəyinə dair irticaçı siyasət yürüdür. Paris kanak xalqının dekolonizasiya və öz müqəddəratını təyinetmə prosesinə imkan vermir. Bu, müstəmləkə edilmiş xalqın öz ölkəsinin gələcəyi ilə bağlı qərar vermək kimi fundamental hüququna, habelə BMT-nin bununla bağlı qəbul etdiyi qətnamələrə məhəl qoymamaqdır".

Deputatın dediklərinə görə, Makron və onun hökuməti üçün "milli maraq" ondan ibarətdir ki, Yeni Kaledoniya birmənalı olaraq fransızlaşsın. Bu, onların nəzərində Hind-Sakit Okean kimi tanınan və getdikcə həlledici zonaya çevrilən regionda iqtisadi və strateji aktivliyi təmin edir. Fransa hökuməti bununla neokolonial təkəbbürü və kanak xalqına hörmətsizliyi davam etdirməkdə özünə haqq qazandırır. "Yeni kaledoniyalılar buna qarşı son dövrlər daha mütəşəkkil mübarizə aparırlar. Ötən gün onların paytaxt Numeada məhkəmə qarşısında Fransanın müstəmləkəçilik siyasətinə qarşı növbəti etiraz aksiyası keçirmələri də bunu təsdiq edir. Paris isə insan haqlarına və ifadə azadlığına qarşı çıxaraq fəalları həbsə atır. Fransa polisi hər zaman olduğu kimi, beynəlxalq hüquqa hörmət qoymur, ən qəddar üsullardan istifadə edir", - deyə müsahibimiz söyləyib.

Aydın Hüseynov vurğulayıb ki, kaledoniyalılar artıq müstəqillik arzusunu reallaşdırmaq, müstəmləkə dövləti olan Fransanın zülmündən, boyunduruğundan azad olmaq istəyirlər: "Paris rejimi onilliklər ərzində bu ölkəni ağlasığmaz dərəcədə pis vəziyyətə salıb, sərvətlərini mənimsəyib. 1853-cü ildə Kaledoniyaya gələn fransızlar əsl istismarçılıq ediblər. Burada məskunlaşmış kaldoşlar da onlardan narazıdırlar. Bu gün kanak və kaldoş xalqları Fransa hökumətinin yeni müstəmləkəçilik siyasətinə qarşı birlikdə mübarizə aparırlar. Məhz bu məqsədlə onlar Fransa dövlətinin Yeni Kaledoniyanı yenidən müstəmləkəyə çevirmək, kanak xalqını əsarət altına almaq siyasətinə etirazlarını bildirir, müstəqilliklərini bərpa etməklə öz ölkələrinin təbii ehtiyatlarına və zənginliklərinə yiyələnməyi hədəfləyirlər. Müstəmləkə siyasətindən cana yığılmış xalqlar daha yaxşı sosial həyat sürmək və etnik qruplar arasında tarazlığın yaradılmasına nail olmaq istəyirlər".

Deputat yekunda qeyd edib ki, bütün bunlar Fransanın riyakar və müstəmləkəçi xislətindən xəbər verir. Parisin Cənubi Qafqazda hərbi varlığına nail olmaq üçün atdığı addımları da onun müstəmləkəçi ruhunun təzahürüdür. Bu gün Fransa bir çox xalqları, eləcə də kolodoniyalıları cana yığıb.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Fransa Milli Assambleyasında "Kanaky - Yeni Kaledoniya üçün hansı gələcək?" mövzusunda kollokvium keçirilib

Fransa Milli Assambleyasında demokratik və respublikaçı sol qrupun prezidenti Andre Şasen, Kanak kommunist, respublikaçı, vətəndaş və ekoloji qrupun prezidenti Sesil Çukierman, Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin üzvü, senator Rober Zovi tərəfindən "Kanaky - Yeni Kaledoniya üçün hansı gələcək?" adlı kollokvium təşkil olunub. Kollokviuma Kanaky-Yeni Kaledoniyadan, eləcə də Bakı Təşəbbüs Qrupunun İstanbulda keçirdiyi konfransda iştirak etmiş kanak xalqının nümayəndələri də qatılıblar.

AZƏRTAC xəbər verir ki, tədbirdə bu gün kanak xalqını narahat edən məsələlər, Yeni Kaledoniyadakı siyasi vəziyyət, siyasi dalana çevrilmə ilə bağlı xəbərdarlıq, hüquqi fikir ayrılığına dair mövzular müzakirə olunub. Son illərdə kanak xalqı müstəqillik arzusunu reallaşdırmaqda daha qətiyyətli olduğunu göstərir. Fransa dövləti isə buna qarşı getdikcə daha çox gücə əl atır.

Kollokviumda çıxış edən Kaledoniya İttifaqı (UC) siyasi partiyasının vitse-prezidenti, Yeni Kaledoniya hökumətinin üzvü, xarici işlər, mədəniyyət və idman naziri Mikael Forrest adanın siyasi tarixinə nəzər salıb, lobbiçilikdən, eləcə də beynəlxalq səviyyədə atılan addımlardan danışıb. Bildirib ki, adanın müstəqilliyini və suverenliyini arzulayan qruplar müxtəlif platformalardan istifadə edirlər. O, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində yaradılan Bakı Təşəbbüs Qrupunu xüsusi qeyd edib, onun ötən dövrdəki fəaliyyətinə toxunub. Qrupun səyləri sayəsində BMT Baş Assambleyasında Fransa hökuməti ilə bağlı qeydləri xatırladan M.Forrest deyib: "Baş Assambleya rəsmi Parisi hüquq-mühafizə orqanları arasında irqçiliklə bağlı mövcud olan ciddi problemlərini araşdırmağa, dinc toplaşmaq hüququna hörmət bəsləməyə və onun təşviq olunmasına çağırışlar edib, lakin Fransa dövləti bu çağırışlara hələ də məhəl qoymur". Nazir Fransanı yuxarıda sadalanan çağırışlara riayət etməyə və kiçik xalqların hüquqlarına hörmət göstərməyə çağırıb, eyni zamanda Bakı Təşəbbüs Qrupu sayəsində adanın müstəqilliyi istiqamətində beynəlxalq aləmdə görülmüş işlərdən söz açıb.

Digər çıxış edənlər bildiriblər ki, kanak xalqı son günlər Yeni Kaledoniyanın müstəqilliyi, eləcə də ölkənin taleyində həlledici rol oynayan seçicilərin müəyyənləşdirilməsi (yəni, bu günə qədər Kanaky-Yeni Kaledoniyada ən azı 10 il sakin olanlara səsvermə hüququ verilirdisə, indi artıq 7 il sakin olanlar səs verə bilərlər) ilə bağlı seçkilərə, eləcə də bu ilin mayında keçiriləcək əyalət seçkilərinin təxirə salınmasına mane olmağa çalışır. Fransa hökumətinin məcburi qaydada həyata keçirmək istədiyi bu iki dəyişiklik kanak xalqını ayağa qaldırıb. Buna cavab olaraq, Fransa polisi xalqı susdurmaq üçün 5 fəalı saxlayıb. Bu isə onsuz da Fransa hökumətindən narazı olan kanakların səbir kasasını daşırıb. Beləliklə, kanak xalqının nümayəndələri, eləcə də Yeni Kaledoniyanın müstəqilliyinin tərəfdarları ölkədəki siyasi vəziyyətlə bağlı maarifləndirmə işlərini intensivləşdiriblər. Ona görə də onlar uzaq məsafə qət edərək ölkələrinin taleyi ilə bağlı çox önəmli olan bu kollokviuma qatılıblar.

Kollokviumda çıxış edənlər 1998-ci ildə Yeni Kaledoniyanın dekolonizasiyasını (müstəmləkəsizləşdirilməsini) möhürləyən və kanakların qanı bahasına başa gəlmiş Numea sazişindən, Fransa polisinin Uvea mağarasına qanlı hücumundan, həmçinin 1980-ci illərdə baş vermiş gərginlikdən söz açıblar. Onlar, eyni zamanda iki əsgərin və başından güllələnərək qətlə yetirilmiş 19 kanakın ölümü ilə nəticələnmiş "Viktor" əməliyyatını xatırladıblar. Həmin vaxt ədalətsizliyə, zülmə, Fransa müstəmləkəçiliyinə qarşı üsyana qalxmış kanak fəallarının qətlə yetirildiyini, yaralandığını və həbs olunduğunu qeyd ediblər.



Bildirilib ki, 1988-ci ilin noyabrında keçirilmiş referendum zamanı fransızlar tərəfindən ratifikasiya edilmiş müqavilələrlə Yeni Kaledoniyanın şimal, cənub və Luayot adası olaraq üç əyalətə bölünüb və adanın qarşıdan gələn 10 il ərazində öz müqəddəratını təyin etməsi nəzərdə tutulub. Referenduma fransızların cəmi 37 faizinin getməsinə baxmayaraq, saziş 80 faiz səslə qəbul olunub. Cənub əyalətinin sakinlərinin 57 faizi Matinyon sazişinə yox deyib. Ancaq10 ildən sonra bu müddət daha 20 il uzadılıb və bu gün kanak xalqının həmin sazişlərlə yaranmış ümidinə iki qanun dəyişikliyi ilə son qoymaq cəhdi müşahidə olunur.

Lakin Matinyon və Numea sazişlərindən sonra kanak xalqı suverenliyinin tezliklə təmin olunacağına ümid etsə də, 36 ildir bu ümid proses hər dəfə təxirə salınaraq uzadılır. Diqqətə çatdırılıb ki, sonuncu - 2021-ci il referendumu Fransa dövlətinin kanak mədəniyyətinin fundamental dəyərlərinə hörmətsizliyi və tarixi uğursuzluqdur.

Vurğulanıb ki, bu gün onlar kanak xalqını dinləməyə, anlamağa vaxt ayırmayan, sadəcə olaraq, müstəqillik layihəsini Kaledoniya siyasi xəritəsindən silmək istəyən və Sakit okean regionundakı ambisiyaları üçün yalnız özünün "böyüklüyünü" qoruyub saxlamağa çalışan Fransa hökuməti ilə üzləşiblər. Bu gün Fransa dövlətinin Yeni Kaledoniyanın respublika daxilində tam inteqrasiyası layihəsini həyata keçirməyə çalışdığı bildirilib.

Qeyd edilib ki, bu il fevralın 13-də Senatın hüquq komissiyasında konstitusiya qanunları layihəsi ilə bağlı dinləmə zamanı daxili işlər və dənizaşırı ərazilər nazirinin seçkilərin təxirə salınmasına razılıq verən və FLNKS siyasi partiyasının məsul şəxslərin imzaladıqları bir sənədə sahib olduğunu deməsi tamamilə yalandır. Bu sənədi hələ heç kim görməyib.

Fevralın 21-də Numeada, 23-də isə Kone, Mare və Uveada keçirilmiş nümayişlərin yerli kanak xalqının bu son iki dəyişikliyə razı olmadığını əks etdirdiyi diqqətə çatdırılıb. Bildirilib ki, bu gün Makron hökumətinin barışmazlığı və zorakı addımları tərəflərin hər birində müharibənin qızışdırılmasına səbəb olur. Onlar yaranan bu qığılcımı söndürmək, danışıqlara və konsensusa imkan vermək üçün Fransa tərəfindən müdrik yanaşma göstəriləcəyinə ümid etdiklərini deyiblər. Kanak xalqı əsas qanunda dəyişiklik edilməsinin əleyhinədir. Onlar müstəqillik tələbində qəti olduqlarını bəyan ediblər.

Kollokvium işini sual-cavab sessiyası ilə davam etdirib.

Sumqayıt hadisələrindən 36 il keçir

# Ermənistan arxivləri açsa, əsl həqiqət üzə çıxar

Ermənilərin xisləti bütün dünyaya bəllidir. Mənfur niyyətlərini həyata keçirmək üçün cilddən-cildə girməyi, özlərini "yazıq", "məzlum" göstərmək ermənilərin adətidir. İlanın zəhəri dilinin altında olduğu kimi, erməniçiliyin də "gücü" onun uydurduğu yalandadır.

Müdirklər doğru deyiblər, yalan zəiflərin daldalanacaq yeri və sığınacağıdır. İllərdir ki, dünyanı saxta "erməni genosid"i ilə çaşdırıb, uydurduqları, eləcə də xəyanətkar olduqları üçün üzləşdikləri hadisələrdən rəqiblərinə qarşı siyasi təzyiqlər etməyə öyrəncəli olan ermənilər yenə yalanlardan yapışıblar...

Bu dəfə Ermənistan Xarici İşlər Nazirliyinin yadına 1988-ci ilin fevralında respublika xüsusi xidmət orqanlarının Azərbaycan əleyhinə planlaşdırıb həyata keçirdiyi Sumqayıt hadisələri düşüb. Bu ölkənin Xarici İşlər Nazirliyi tarixi faktları təhrif edərək bəyanat yayıb. Əslində təəccüblü heç nə yoxdur. Ermənilər ölkəmizə qarşı hər hansı bir plan qurarkən əleyhimizə böhtan dolu təbliğat kampaniyası başladır. Son günlər istər Ermənistanın, istərsə də onun himayə edən dövlətlərə yaxın olan KİV-lərin ölkəmizə qarşı böhtan, iftira dolu kampanıyasının genişləndirildiyi müşahidə edilməkdədir.

Aydın məsələdir ki, Ermənistan sülh protokolunun imzalanması barədə aparılan danışıqlarda səmimi deyil. Bu ölkənin bütün planları revanş götürmək üçün vaxt udmağa hesablanıb. Bir yandan sülh danışıqları aparan ölkənin sürətlə silahlanması, eyni zamanda bütün gücünü işə salaraq ölkəmizə qarşı çirkin təbliğat aprması Ermənistanın simasızlığını və əsl niyyətini açıq göstərir. Sülh danışıqlarının "intensivləşdiyi" bir vaxtda bu ölkənin Xarici İşlər Nazirliyinin faktları saxtalaşdıraraq belə bir qərəzli bəyanatla çıxış etməsi Ermənistanın əsl simasını və niyyətini xarakterizə edir.



1980-ci illərin sonlarından başlayaraq Ermənistan Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirmək məqsədilə öz ərazisində yaşayan azərbaycanlı əhaliyə qarşı hərbi gücdən istifadə edərək zorakılıqla, kütləvi şəkildə minillər boyu yaşadıqları tarixi torpaqlarından çıxararaq etnik təmizləmə aparmışlar.

İndiki Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı qanlı divan tutanlar hər şeyi əvvəlcədən götür-qoy etmişdilər. Bədnam planın müəllifləri anlayırdılar ki, zorakılıqla üzləşmiş, hər cür işgəncə, zülüm görmüş azərbaycanlıların kütləvi surətdə öz torpaqlarından, ev-eşiklərindən deportasiya olunmasına mütləq Azərbaycan xalqı tərəfindən adekvat cavab veriləcək. Ona görə də SSRİ və Ermənistan xüsusi xidmət orqanları hadisələri törətmək üçün ən münbit yer olaraq Sumqayıt şəhərini seçmişdilər.

Birmənalı olaraq Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların və ekstremist təşkilatların öncədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi. Bu hadisə erməni ideoloqlarına dünyada qəddar, millətçi azərbaycanlı obrazı yaratmaq, ölkəmiz əleyhinə təbliğat aparmaq, Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi üçün vacib idi. Xatırladaq ki, Qarabağ hadisələri başlamamışdan əvvəl Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçov Fransaya səfər edərkən erməni lobbisinin nümayəndələri ilə görüşərək onlara Qarabağın Ermənistana birləşdirilməsi haqqında vəd vermişdir.

Əslində Sumqayıt hadisələri olduqca qeyri-peşəkar, tələsik hazırlanmışdır desək, səhv etmərik. Təbii ki, Azərbaycan əleyhinə iyrənc təbliğat, qarayaxma kampaniyası aparmaq üçün Sumqayıt hadisələri erməni lobbisinin əlinə "fakt" vermişdir. Amma SSRİ Baş Prokurorluğu tərəfindən baş vermiş hadisə ilə bağlı açılan cinayət işi iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərin, o cümlədən həlak olanlar arasında 6 nəfər azərbaycanlının olmasını müəyyən edərkən iğtişaşların azərbaycanlı əhali tərəfindən həyata keçirilmədiyi faktını üzə çıxardı. İstintaqdan məlum oldu ki, Sumqayıtda erməni millətindən olan sakinlərin yaşadığı ünvanları bilən, əlində konkret siyahı ilə yürüşə başçılıq edən şəxs milliyyətcə erməni Eduard Qriqoryan olub. O Eduard Qriqoryan ki, 3 qadına təcavüz edib, eyni zamanda 6 nəfər azərbaycanlını amansızlıqla qətlə yetirib. Xatırladaq ki, E.Qriqoryan məhkəmənin qərarı ilə 12 il müddətinə azadlıqdan məhrum edilsə də, cəzasını çəkmək üçün Ermənistana köçürülüb və cəzasını çəkmədən azadlığa buraxılıb. Bu gün Sumqayıt hadisələri ilə bağlı böhtan dolu bəyanat yayan Ermənistan Xarici İşlər Nazirliyi yaxşı olardı ki, Sumqayıt hadisələrinə liderlik edən Eduard Qriqoryanın Ermənistan dövləti tərəfindən azadlıqla mükafatlandırılmasına aydınlıq gətirərdi. Xatırladaq ki, Eduard Qriqoryan sağdır. Bəlkə Azərbaycan əleyhinə əsassız böhtan yağdıranlar Eduarddan əvvəlcədən Sumqayıt kimi bir şəhərdə "sıravi bir vətəndaş"ın ermənilərin yaşadıqları ünvanları necə əldə etdiyini öyrənsinlər...

1988-ci ilin 27-29 fevralında Sumqayıtda baş verən iğtişaşlarla əlaqədar məhkəmə 92 nəfər təqsirkar barəsində həbs cəzası qərarı çıxarıb, həmçinin bir nəfər - Əhməd Əhmədova ölüm hökmü elan edib. Məsələ burasındadır ki, Sumqayıt hadisələri ilə əlaqədar ölüm cəzası alan Əhməd Əhmədov haqqında hökm icra olunsa da, hadisənin təşkilatçısı Eduard Qriqoryan bu gün də həyatdadır.

Ermənistan Xarici İşlər Nazirliyinin məqsədi ölkəmizə qarşı növbəti böhtan kampaniyası aparmaq olmasaydı, həqiqəti olduğu kimi göstərər, Sumqayıt hadisəsinin KQB-nin ssenarisi əsasında Ermənistanın və erməni millətçilərinin maraqlarına və planlarına uyğun hazırlandığını və həyata keçirildiyini, Ermənistan xüsusi xidmət orqanlarının və erməni millətçilərinin bu hadisələrdə fəal iştirakını təsdiqləyərdi.

Həqiqəti görmək üçün isə çox da uzağa getmək lazım deyil. Kifayət edər ki, Ermənistan arxivləri açsın. Əgər arxivlər açılarsa, həqiqətlərin üzə çıxacağına qəti şübhə etmirik. Faktlar isə birmənalı olaraq Sumqayıt hadisəsinin Ermənistan xüsusi xidmət orqanları tərəfindən törədildiyini təsdiq edir. Bəs nədən bu gün özünü dünyada demokrat kimi qələmə verən Paşinyan arxivlərin açılmasını təmin etmir? Görünür, qondarma "erməni soyqırımı" məsələsində olduğu kimi, Sumqayıt hadisəsində də həqiqətlərin üzə çıxması ona da sərf etmir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Parisdə "İşgəncələr məbədi - Şuşa həbsxanası" sənədli filmi nümayiş etdirilib







Parisdə, Azərbaycan səfirliyinin Mədəniyyət Mərkəzində Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının təşkilatçılığı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr edilmiş anım tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, anım tədbirində çıxış edən səfir Leyla Abdullayeva iştirakçılara Xocalı soyqırımı ilə bağlı ətraflı məlumat verib. Diplomat Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinə həsr edilmiş anım tədbirində iştiraklarına görə Fransa ictimaiyyətinin nümayəndələrinə dərin təşəkkürünü bildirib.

L.Abdullayeva vurğulayıb ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa edib. Bunun nəticəsidir ki, bu il Xocalı soyqırımı qurbanlarının xatirəsi ilk dəfə olaraq Azərbaycanın bütün ərazisində, xüsusilə də Xocalıda ehtiramla anılıb.

Bildirilib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində dünyanın bir çox ölkələri Xocalı faciəsini soyqırımı kimi tanıyıb. Qeyd olunub ki, Xocalı qurbanlarının qatilləri ədalət məhkəməsi qarşısında cavab verənədək belə fəaliyyətlər, tədbirlər davam etdiriləcək.

"Azərbaycan ədalət çağırışları edir, bu çağırışlar unudulmamalıdır. Bu çağırışlar məhz gələcəkdə belə faciələrin qarşısını almaq və insanlıq əleyhinə belə cinayətlərin təkrarlanmaması üçün Xocalı soyqırımı yaddaşlarda həkk olunmalıdır", - deyə səfir əlavə edib. Münaqişənin başa çatdığını, Azərbaycanın azad olunmuş ərazilərində böyük quruculuq işlərinin aparıldığını xatırladan diplomat keçmiş məcburi köçkünlərin artıq mərhələlərlə doğma evlərinə qayıtdıqlarını diqqətə çatdırıb. Deyib ki, Azərbaycanın məqsədi ədaləti bərpa etmək, regionda davamlı sülhə nail olmaq və onu qoruyub saxlamaqdır.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin rəisi Tamerlan Rəhimov çıxışında dövlətimizin başçısının əsir-girov götürülmüş, itkin düşmüş şəxslərlə bağlı məsələyə daim xüsusi həssaslıqla yanaşdığını bildirib. O, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyəti haqqında məlumat verib. Bildirib ki, Xocalı soyqırımı da daxil olmaqla, Qarabağ münaqişəsi dövründə 4 minədək insan itkin düşüb və onların taleyindən hələ də xəbər yoxdur. Ermənistan bu insanlar haqqında məlumat vermir. O, əsir və itkin düşmüş, girov götürülmüş insanların axtarışlarına dair aparılan işlərdən söz açıb, kütləvi məzarlıqlarda aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi prosesindən danışıb.

Jurnalist Jan-Mişel lö Brən Şuşaya səfəri zamanı işğal dövründə ermənilərin törətdikləri dəhşətli mənzərənin şahidi olmasından, Şuşa haqqında yazdığı kitabdan söz açıb.

Sonra tədbir iştirakçılarına Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilati dəstəyi ilə hazırlanmış, Birinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı birləşmələri tərəfindən əsir götürülərək Şuşa həbsxanasında saxlanılmış 3 azərbaycanlı əsirin orada məruz qaldıqları dəhşətli məhrumiyyətlərdən bəhs edən "İşgəncələr məbədi - Şuşa həbsxanası" adlı sənədli film nümayiş olunub. Filmdə Şuşa həbsxanasında ermənilərin zülmündən qurtulmuş şahidlər acı xatirələrini bölüşüb, ermənilərin azərbaycanlı əsirlərə verdikləri işgəncələrdən danışıblar.

Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım tədbirində fransız elm adamları, jurnalistlər, vəkillər, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Dağıdan erməni ekstremistləri, dağılan isə erməni tifaqı idi

Ötən əsrn 80-ci illəri sovetlər birliyində tarixi dəyişikliklərlə başladı. Bu nəhəng imperiyada 3 ildə 3 rəhbər dəyişdi, keçilməz hesab edilən sərhədlərini adi idman təyyarəsi pozaraq qırmızı meydana endi, bir-birinə düşmən kəsilməyən xalq qalmadı, yenidənqurmanı yenidənqırma əvəzlədi.

Ölkəni qarışıq görən ermənilər bu fürsətdən istifadə etməyə bilməzdilər. Növbəti "genosid" planlarını həyata keçirmək üçün əhalisi müxtəlif millətlərdən olan Sumqayıtı seçdilər.

1988-ci ilin əvvəllərində Sumqayıtda yaşayan imkanlı erməni ailələri "köç şousu"na başladılar. Onlar evlərini satır, banklardakı pullarını geri götürür, erməni əhalisi arasında burada daha yaşamağın mümkünsüzlüyü barədə şayiələr yayırdılar. Nəticədə fevral ayınacan Sumqayıtda yalnız sadə ermənilər qalmışdı. Deməli, "genosid" planını işə salmaq olardı. Beləcə, SSRİ xüsusi xidmət orqanlarının ssenarisi ilə ermənilər fevralın 28-29-da şəhərdə idarə edilən "genosid" törətdilər.

Həmin tarixə 36 illik zaman kəsiyindən boylananda ermənilərin "genosid" planları tam çılpaqlığı ilə görünür. Aparılan istintaq prosesində bu terrorun məhz ermənilər tərəfindən törədilməsi çoxdan sübuta yetirilib. Çünki fevralda Xankəndidə təşkil olunan mitinqlər Sumqayıtla əlaqəli şəkildə aparılırdı. Həmin mitinqlərlə başlayan qiyamın əks-sədası Sumqayıtda eşidildi. Fevralın 28-dən 29-na keçən gecə öyrədilmiş bir qrup erməni ekstremisti şəhəri bir-birinə vurdu, əhalini üz-üzə qoydu. Beləcə, o gecə 26 erməni və 6 azərbaycanlı öldürüldü. Həmin hadisələrlə bağlı 1050 nəfər həbs edildi. 92 nəfər barəsində 55 cinayət işi baxılması üçün məhkəməyə göndərildi,



***Şəkildə erməni qız onun***
***Eduard Qriqoryan tərəfindən zorlandığını sübut edir***

444 nəfərdən 400 nəfəri 10-15 sutka inzibati cəza aldı. 1988-ci ilin oktyabrında isə SSRİ Ali Məhkəməsinin zalında Ə.Əhmədov, T.İsmayılov və Q.Cəfərovla bağlı məhkəmə işinə başlanıldı. Məhkəmənin sədri V.Terebilov "Novoye vremya" jurnalına verdiyi müsahibədə yuxarıların müdaxiləsindən şikayətləndi. Noyabrın 18-də ali məhkəmə O.Cəfərov və T.İsmayılovun cinayət materiallarını yenidən istintaqa qaytardı. Ə.Əhmədova isə ən ağır cəza verildi.

Əslində hadisələrin təşkilatçısı Eduard Qriqoryan idi. O Albert və Ernest adlı iki qardaşı ilə birlikdə 100 nəfərdən çox cinayətkar ünsürü ardınca apararaq onlara əvvəlcədən verilən siyahı əsasında insanların həyatına qəsd etmişdi. Hətta qətlə yetirdiyi ermənilərdən biri "Eduard, sən niyə bizi qırırsan?" sualını verəndə armaturla onu başından vurmuşdu. Sumqayıt sakinləri Marina və Karina Mejlumyanlar isə Qriqoryan tərəfindən zorlandıqlarını etiraf etmişlər. Bütün bunlara baxmayaraq, 6 nəfərin qətlində birbaşa iştirak etmiş E.Qriqoryana cəmi 12 il cəza verildi. Tezliklə Ermənistana göndərilən cinayətkar orada azdlığa buraxıldı.

Sumqayıt hadisələrindən sonra azğın ermənilər torpaqlarımızın 20 faizini işğal etdilər. Amma 30 ildən sonra bu işğala son qoyuldu. 44 günlük Vətən müharibəsi və lokal antiterror tədbirləri nəticəsində Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və ordumuzun rəşadəti bizi qələbəyə qovuşdurdu. Keçmiş köçkünlər Zəngilana, Şuşaya, Laçına, Füzuliyə qayıdırlar. Tezliklə Ağdama, Xocalıya, Xankəndiyə, Kəlbəcərə də köç başlayacaq. Çünki ermənilərin tifaqı dağıdılmışdır, özü də birdəfəlik.

# SDU-da Sumqayıt hadisələrindən danışılıb

Sumqayıt Dövlət Universitetində (SDU) filologiya fakültəsinin təşkilatçılığı ilə 36 il əvvəl ermənilər tərəfindən təşkil edilən saxta "genosid"lə bağlı "dəyirmi masa" təşkil olunub.



Tədbirdə bildirilib ki, Sumqayıtda erməni ekstremistlərinin təşkilatçılığı ilə 36 il əvvəl kütləvi təxribat törədilib. Təxribatı törədənlərin ermənilər olması sübuta yetirilsə də, onlarla bağlı ciddi tədbir görülməyib. Cinayətkar erməni Eduard Qriqoryana 12 il həbs cəzası verilsə də, o, tezliklə Yerevana aparılıb və azad edilib. SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin erməni millətçiləri ilə birgə hazırladığı bu təxribat dünyaya azərbaycanlıların mənfi obrazının formalaşdırılmasına və Qarabağdakı separatçılara haqq qazandırmağa xidmət edib.

"Dəyirmi masa"da Sumqayıt təxribatının tədqiqatçısı professor Ramazan Məmmədov hadisənin mahiyyəti, səbəb və nəticələri haqqında danışıb, tələbələrin suallarını cavablandırıb.

Filologiya fakültəsinin dekanı, dosent Günel Paşayeva qeyd edib ki, Sumqayıt hadisələrini sonrakı qanlı olaylatın başlanğıcı kimi yada salıb təhlil etmək çox vacibdir. O da qeyd olunub ki, bu cür müzakirələrin aparılması hadisənin gələcək nəsillərə doğru şəkildə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın QHT sədrinin minalarla bağlı videomüraciəti BMT-nin 55-ci sessiyasında səsləndirilib

İsveçrənin Cenevrə şəhərində BMT-nin İnsan Hüquqları Şurasının 55-ci sessiyası işə başlayıb.

AZƏRTAC xəbər verir ki, sessiya çərçivəsində İnsan hüquqlarının tətbiqinə dair illik yüksək səviyyəli panel müzakirəsi keçirilib. Panel müzakirəsinin əsas mövzusu "Cəmiyyətdə tam və effektiv iştiraka və inklüzivliyə diqqət yetirməklə, əlilliyi olan şəxslərin hüquqlarının tətbiqi" olub.

Müzakirələr zamanı BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) xüsusi məşvərətçi statusuna malik "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri Ramil İskəndərlinin videomüraciəti nümayiş etdirilib. QHT sədri çıxışında Ermənistanın Azərbaycana qarşı mina terroru siyasətinin davam etdiyini, mina problemi nəticəsində əlil olmuş şəxslərlə bağlı işlərin aparıldığını bildirib və bu məsələdə beynəlxalq dəstəyin vacibliyinə toxunub.

QHT sədri diqqətə çatdırıb ki, əlilliyi olan şəxslərin, xüsusilə mina qurbanlarının cəmiyyətdə səmərəli iştirakının və inklüzivliyinin təmin olunması hərtərəfli, əhatəli və hüquqa əsaslanan yanaşma tələb edən çoxşaxəli problemdir. QHT-lər əlilliyi olan şəxslərin iştirakçılığını təşviq edən proqramların həyata keçirilməsində mühüm rol oynayırlar.

"Postmünaqişə dövründə məlum oldu ki, işğaldan azad edilən ərazilərdə təxminən bir milyon yarım mina və partlamamış sursat var", - deyən R.İskəndərli vurğulayıb ki, mina problemi nəticəsində əlil olmuş şəxslərlə bağlı məsələ siyasi məsələ deyil, humanitar və insan hüquqları məsələsidir. Ermənistanın Azərbaycana qarşı davam edən mina terroru və qeyri-dəqiq xəritələrin verilməsi azərbaycanlı keçmiş məcburi köçkünlərin yurdlarına kütləvi qayıtmasını əngəlləyir, onların hərəkət azadlığı, sağlamlıq, məşğulluq və təhsil hüquqlarını pozur. Azərbaycanda bir çox QHT-lər humanitar minatəmizləmə və maarifləndirmə təşəbbüsləri, reabilitasiya xidmətləri, o cümlədən mina qurbanlarına fiziki və psixososial dəstək göstərmək üçün çalışırlar. Lakin ərazilərimizi minadan təmizləmək üçün beynəlxalq dəstək çox azdır. "Düşünürəm ki, beynəlxalq dəstək artırılmalı və bu problemlə mübarizədə səylərimizi səfərbər etməliyik", - deyə QHT sədri bildirib.


















## MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR

# Yaşam şansı

### İcbari tibbi sığorta vasitəsilə həyata keçirilən orqan transplantasiyası əməliyyatı ilə vətəndaşlarımız yenidən həyata qaytarılıb

**"Qurban olum sənə", "ömrüm sənə fəda", "Allah mənim ömrümdən kəsib sənin ömrünə calasın"...**
**Gündəlik yaşamımızda əzizlərimizə, doğmalarımıza onları özümüzdən də çox sevdiyimizi bildirmək üçün tez-tez işlətdiyimiz ifadələrdir bunlar... O da inkarolunmaz faktdır ki, bu dünyada insan üçün ən şirin şey canı, ən əvəzolunmaz nemət isə sağlığıdır. Amma həyatda elə məqamlar olur ki, könüllü şəkildə Tanrının bəxş etdiyi candan da, sağlıqdan da ata, ana, övlad, bacı, qardaş... naminə vaz keçməyə razı olur, onlara yeni həyat vermək üçün bir an belə tərəddüd etmirsən...**
**Və görünür elə insanın Yer üzündə yaşadığı ən müstəsna, İlahi məqam da elə budur...**



**Vasif Babayev:**
**- Övladım icbari tibbi sığorta sayəsində qısa müddətdə əməliyyat olundu və sağlığına qovuşdu. Heç zaman buna öz imkanımız çatmazdı. Sağ olsun dövlət başçımız İlham Əliyev. Yaratdığı bu imkan nəticəsində oğlum sağlığına qovuşdu.**

### Zülmətə doğan günəş

"Çox çarəsiz idim. Düz 7 il idi ki, oğlum Hümbət böyrək çatışmazlığından əziyyət çəkir, gözümün qabağında gündən-günə əriyirdi, ona təcili böyrək köçürülməliydi. Ancaq əməliyyata maddi imkanımız çatmadığı üçün əlimiz hər yerdən üzülmüşdü, çar-naçar qalmışdıq. Balamın tuş gəldiyi dərdə, gənc yaşında həyatının puç olmasına dözə bilmirdim. Ağlamaqdan, Allaha dua etməkdən başqa heç nəyə gücüm çatmırdı... Keçən ilin avqustunda öyrənəndə ki, bu əməliyyatı dövlət hesabına pulsuz etdirmək mümkün olacaq, sevincdən az qaldı ürəyim dayana...

Qardaşı da, bacısı da Hümbətə öz böyrəyini vermək istəyirdi, amma razı olmadım. Dedim ki, onlar da yarımcan olmasın, mən bu həyatda azdan-çoxdan yaşamışam, qoy balama özüm can olum. Əgər bu mənim sağlığım üçün risk olsaydı, yenə də gözümü qırpmadan bu qərarı verər, həyatım bahasına da olsa balamı yaşadardım..."

" - İllərlə dializ aldım, çox əziyyət çəkdim. Sümüklərim belə o qədər həssaslaşmışdı ki, bir dəfə yüngül yıxılmaqla qolum, qıçlarım, burnum, çənəm sınmışdı, iki il yataqda qalmışdım. Həkimlər orqan transplantasiyasının mənim üçün yeganə çarə olduğunu deyirdilər, lakin maddi imkanımız olmadığından düşünürdüm ki, heç zaman əməliyyat oluna bilməyəcəm. Buna görə də hər gün həyatda qalmaq ümidim azalırdı. Belə çarəsiz bir anımda dövlətimiz imdadıma yetişdi, icbari tibbi sığorta vasitəsilə, anamın donorluğu ilə mən ikinci dəfə həyata gəldim (ağlayır)... "

2023-cü ilin dekabrında icbari tibbi sığorta vasitəsilə uğurlu orqan transplantasiyası əməliyyatı keçirən 28 yaşlı Hümbət Mustafayev və donoru 60 yaşlı Mehparə Mustafayeva (anası) ilə bu ilin yanvarında Mərkəzi Gömrük Hospitalına növbəti həkim müayinəsinə gəldikləri zaman tanış olduq. İndi üzlərindən sevinc təbəssümü əskik olmayan, xoşbəxtlik yağan ana-balanın əməliyyata qədərki zamanda necə əzab-əziyyətli, çarəsiz günlər keçirdiklərini elə hospitalın cərrahiyyə və orqan transplantasiyası şöbəsinin rəisi Mircəlal Kazımının otağında həmsöhbət olduğumuz zaman öyrəndik.

*Mehparə Mustafayeva:* - Əlimiz hər yerdən üzüldüyü anda qəfildən xəbər aldıq ki, artıq böyrək köçürmə əməliyyatını da dövlət hesabına etdirmək mümkündür. Bu xəbər bizi illərdir ailəlikcə düşdüyümüz zülmət quyusundan çıxardı, sanki üzərimizə gün doğdu... Bu xoşbəxtliyi bizə yaşatdığına görə şəxsən Prezident İlham Əliyevə ömür boyu minnətdar olacağam. O, oğlumu mənə yenidən qaytardı... Allah bir daha heç kəsi övladı ilə sınağa çəkməsin...

*Hümbət Mustafayev:* - İndi sağlığım qaydasındadır. Göydə Allahın, yerdə isə dövlətimizin, həkimlərimizin, anamın sayəsində yenidən həyata qayıtdım. Özümün, ailəmizin adından Prezident İlham Əliyevə minnətdarlıq edirəm ki, bizə, ümumiyyətlə, mənim kimi orqan köçürülməsinə ehtiyacı olan bütün imkansız insanlara belə şərait yaradıb. İcbari tibbi sığorta sayəsində, pul ödəmədən bu cür bahalı əməliyyatdan keçərək öz sağlamlığımıza qovuşuruq.



**Mircəlal Kazımi:**
**- Orqan transplantasiyası əməliyyatlarının da icbari tibbi sığortanın Xidmətlər Zərfinə daxil olması ciddi sıçrayışdı. Bu, orqan transplantasiyası əməliyyatlarının respublikanın rayonlarında da icra oluna bilmə halına gəlməsinə mühüm şərait yaradır. İnşallah, düşünürəm ki, gələcəkdə orqan transplantasiyası Azərbaycanda hər gün icra olunacaq əməliyyat sırasına gələcək.**

### "Bu, insanın yenidən həyata qayıdışıdır"

Burada tanış olduğumuz daha bir sevincli ailə isə Biləsuvar rayonunun Çaykənd kəndindən olan Babayevlərdir. Atası, anası, bacısı keçən il icbari tibbi sığorta vasitəsilə qaraciyər köçürülən 12 yaşlı Yusifi həkim müayinəsinə gətiriblər. Qohum evliliyinə görə (xalaqızı-xalaoğlu) Yusif doğulandan qaraciyərində böyümə başlayıb. Ailəsi onu xeyli müddət müalicə etdirsə də, amma 11 yaşında öyrənir ki, artıq o sirrozdur və təcili əməliyyat olunaraq donor köçürülməlidir.

*Zümrüd Babayeva (ana, donor):* - Əməliyyatın pulsuz, icbari tibbi sığorta vasitəsilə olması sanki bizim üçün Allahın möcüzəsi oldu. Yoxsa belə bahalı əməliyyatı etdirməyə heç vaxt imkanımız çatmazdı. O zaman isə kim bilir necə olacaqdı...



**Brilliant Mahmudova:**
**- Xəstəlik qaraciyərimi məhv etmişdi. Həkimim dedi ki, vəziyyət getdikcə pisləşir, orqan dəyişdirilməlidir. Amma bunu etdirməyə maddi imkanımız yox idi. Dövlətimizə minnətdaram ki, bu imkanı bizə yaratdı və mənə bacımın qaraciyəri köçürüldü. Yenidən həyata qayıtdım.**

Övladının sağlığı ilə bağlı yaşadığı çətin anları yenidən yada salması, onun əməliyyat olunaraq sağlığına qovuşmasının gətirdiyi sevinc hissləri ilə göz yaşlarına boğulan Zümrüd xanım Yusifə donor olmaq üçün bir an belə tərəddüd yaşamadığını deyir: "Yusifsiz bu dünyada yaşaya bilməzdim. Əməliyyata gedəndə də öz həyatım üçün qətiyyən narahat deyildim. Bilirdim ki, mənim üçün nəticəsi hər nə olursa olsun, Yusifə yenidən həyat verəcəm. Bu, insanın yenidən həyata qayıdışıdır və yaşadığım hissləri sözlərlə təsvir edə bilmirəm. Təkcə onu deyim ki, indi Yusifi deyən-gülən, oynayan görəndə elə bilirəm ki, mən də dünyaya təzədən gəlmişəm..."

Yusifin bacısı 8 yaşlı Fatimə isə söyləyir ki, qardaşı sağaldığına görə çox sevinir, çünki artıq onunla oynaya biləcək.

*Vasif Babayev (ata)* - Övladım icbari tibbi sığorta sayəsində qısa müddətdə əməliyyat olundu və sağlığına qovuşdu. Heç zaman buna öz imkanımız çatmazdı. Sağ olsun dövlət başçımız İlham Əliyev. Yaratdığı bu imkan nəticəsində oğlum sağlığına qovuşdu.

*Yusif Babayev:* - İndi özümü çox yaxşı hiss edirəm. Daha bacımla, dostlarımla doyunca oynaya biləcəm. Tezliklə darıxdığım məktəbimdə təhsilimi davam etdirəcəm. Dərslərimi yaxşı oxuyuram, böyüyəndə polis olacağam...

### Xidmətlər zərfinə həyati əhəmiyyətli əlavələr

Prezident İlham Əliyevin birbaşa təşəbbüsü sayəsində Azərbaycanda bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də böyük islahatlar həyata keçirilib, mühüm işlər görülüb. Azərbaycanda əhalinin tibbi xidmətlərə əlçatanlığının artırılması, keyfiyyətli tibbi xidmətlərin həyata keçirilməsinin stimullaşdırılması, səhiyyə sahəsində dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması istiqamətində gerçəkləşdirilən ən mühüm tədbirlərdən biri isə ölkədə icbari tibbi sığortanın (İTS) tətbiq edilməsidir. 2016-cı ildən pilot layihə kimi tətbiqinə başlanılan İTS 2021-ci ildən etibarən bütün ölkədə tətbiq edilir. Pilot layihə dövründə Xidmətlər Zərfinə 1829 xidmət daxil idisə, hazırda bu say 3315-ə qədər artırılıb. Yeni xidmətlər sırasına ilk dəfə olaraq vətər, əzələ köçürülməsi, sümük iliyi, böyrək və qaraciyər transplantasiyası əməliyyatları əlavə olunub. Artıq ötən ilin avqustundan etibarən icbari tibbi sığorta vasitəsilə orqan transplantasiyası da həyata keçirilməyə başlanılıb. 2023-cü ilin avqust-dekabr ayları ərzində icbari tibbi sığorta ilə 37 böyrək, qaraciyər və sümük iliyi əməliyyatı icra olunub. Onlardan 4-ü uşaqlar (18 yaşdan aşağı) üzərində aparılıb.

Azərbaycanda ilk böyrək transplantasiyası əməliyyatı 1971-ci ildə akademik Mirməmməd Cavadzadə tərəfindən icra olunub. Həmin illərdə M.Cavadzadə tək canlıdan deyil, meyitdən alınmış böyrəkdən istifadə edərək transplantasiya həyata keçirib. Lakin müəyyən səbəblərə görə o dövrdə orqan transplantasiyası əməliyyatları tamamilə dayandırılır, ta ki 2000-ci ilin əvvəllərinə qədər. Həmin tarixdə professor Kamal Abdullayevin rəhbərliyi ilə xarici mütəxəssislərin vasitəsilə ölkəmizdə bir neçə böyrək transplantasiyası icra olunur. Ancaq əməliyyatda aparıcı qüvvənin yerli mütəxəssislərdən, kadrlardan olmaması üzündən bu dəfə də ölkəmizdə orqan transplantasiyası əməliyyatı dayanır. 2008-ci il dekabrın 12-də isə tək Azərbaycanda deyil, eyni zamanda Cənubi Qafqazda və yaxın orta Asiyada ilk dəfə olaraq canlıdan canlıya qaraciyər transplantasiyası əməliyyatı icra olunur. Həmin tarixdən etibarən həm Azərbaycanda qaraciyər transplantasiyasının tarixi, həm də orqan transplantasiyasının intibah dövrü başlayır.



**Hümbət Mustafayev:**
**- İndi sağlığım qaydasındadır. Prezident İlham Əliyevə minnətdarlıq edirəm ki, bizə, ümumiyyətlə, mənim kimi orqan köçürülməsinə ehtiyacı olan bütün imkansız insanlara belə şərait yaradıb. İcbari tibbi sığorta sayəsində, pul ödəmədən bu cür bahalı əməliyyatdan keçərək öz sağlamlığımıza qovuşuruq.**

### Qanuni baza

Orqan transplantasiyası əməliyyatının icra edilməsi üçün qanuni baza 1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanmış "İnsan orqan və toxumalarının transplantasiyası haqqında" qanun olub. Prezident İlham Əliyevin imzası ilə 2022-ci ildə "İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında" yeni qanunun qüvvəyə minməsi isə bu sahə ilə bağlı bir çox məsələlərin həllinə münbit şərait yaradıb. Bu qanunda, əvvəldən var olan canlı orqan transplantasiyasının inkişafına daha da şərait yaratmaq, eyni zamanda meyit orqanlarından, yəni beyin ölümü həyata keçmiş insanlardan transplantasiya işinin başlanması öz əksini tapıb.

Sözügedən qanunun əsas məqamlarından biri də qohum olmayan, yaxud uzaq qohumların da orqan donorluğuna cəlb oluna bilməsinə və donor kimi iştirakına şərait yaratmasıdır ki, bu da donorluq üçün xəstələrin məhdud yaxın qohumlarına məcbur olmamasına gətirib çıxarıb. Bu sayədə daha çox xəstənin əməliyyat oluna bilməsinə şərait yaranıb.

Eyni zamanda ölkəmizdə orqan transplantasiyası işinin mərkəzləşdirilmiş şəkildə tənzimlənərək həyata keçirilməsi üçün Nazirlər Kabinetinin Qərarına əsasən, Səhiyyə Nazirliyinin nəzdində "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi" yaradılaraq fəaliyyətə başlaması da bu sahədə mühüm irəliləyişdir.

### Orqan transplantasiyası işində ciddi sıçrayış

Tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazımının sözlərinə görə, orqan transplantasiyasında bir neçə təkanverici amil var. Bunlardan biri orqan transplantasiyasını icra edəcək tibb personalının, tək həkim yox, həm də kiçik və orta tibb heyətinin olmasının vacibliyidir. İkinci tibb müəssisəsinin orqan transplantasiyasının icrasını təmin edə bilməsi, həmçinin xəstələrin donorlarının, istər canlı, istər meyit orqanı olmasıdır ki, əməliyyat icra oluna bilsin:

- Amma mənim üçün bu məsələdə ilk sırada maddi təchizat gəlir. 15 il ərzində peşəkar olaraq bu işlə məşğul olan bir insan kimi maddi problemlərin daha çox ön planda olduğunu gördüm. Məsələn, 2023-cü ilin təqribən avqust ayına qədər xəstələrimizin 80 faizi ödənişli əməliyyat olunurdular. Yerdə qalan 20 faizi müəyyən xeyriyyə cəmiyyətlərinin (onların içərisində Heydər Əliyev Fondu başda durur) yardımı ilə və bəzi şəxslərin ianələri nəticəsində əməliyyat olunurdular. Buna görə də əməliyyat etdiyimiz xəstələrin sayı o qədər də çox deyildi. Məsələn, qaraciyər və ya böyrək çatışmazlığına görə mənə müraciət edən xəstələrin təqribən 30-40 faizi əməliyyat oluna bilirdi. Yerdə qalan 60 faiz maddiyyat ucbatından əməliyyat oluna bilmirdilər.

Həkim məlumat verir ki, ötən ilin avqustundan etibarən orqan transplantasiyası əməliyyatlarının da icbari tibbi sığortanın Xidmətlər Zərfinə daxil olması sayəsində xəstələrin əməliyyat olunub sağlamlıqlarına qovuşma faizində ciddi artım müşahidə ediblər. Bu həqiqi mənada orqan transplantasiyası işində ciddi sıçrayışdı. Bu tək xəstələrin əməliyyat oluna bilməsi deyil, ölkədə orqan transplantasiyasının, onun elmi tərəfinin inkişafına, təcrübənin artmasına və gələcəkdə orqan transplantasiyası əməliyyatlarının respublikanın rayonlarında da icra oluna bilmə halına gəlməsinə mühüm şərait yaradır. İnşallah, düşünürəm ki, gələcəkdə orqan transplantasiyası Azərbaycanda hər gün icra olunacaq əməliyyat sırasına gələcək.



**Şəbnəm Səlimova:**
**- Həyatımda ilk dəfə idi ki, o cür xoşbəxt idim, bilmirdim sevincdən ağlayım, yoxsa gülüm. Prezidentimizin xüsusi diqqəti ilə dövlətimizin yaratdığı bu şərait sayəsində qızım əməliyyat olundu. Daha o heç bir ağrı çəkmədən oynayacaq, hər zaman üzü güləcək... Onun gülüşünü görmək isə mənim üçün bir ömrə bərabərdir...**

### Yaşatmaq naminə fədakarlıq

Sveta Hüseynova da donorluğu ilə bacısına həyat verən xilaskar insanlardandır. İki övladı olan 25 yaşlı gənc qadın donor olaraq qaraciyər sirrozundan əziyyət çəkən bacısına yaşam şansı qazandırıb.

Şabran rayonundan olan Sveta Hüseynova və bacısı 34 yaşlı Brilliant Mahmudova ilə tanış olanda öyrəndik ki, onlar cəmi bir həftədir ki, orqan transplantasiyası əməliyyatı olmuşdular və hələ palatada saxlanılırlar. Sürətlə sağaldıqlarını deyən bacılarla həmsöhbət olduğumuz zaman onlarla birgə çox duyğulu anlar yaşadıq və həm də sevinclərini bölüşdük…

*Sveta Hüseynova* - Bacım illərlə gözümüzün qabağında çox əziyyət çəkdi. İcbari tibbi sığorta ilə ona qaraciyər köçürmək mümkün olacağını biləndə sanki dünyanı bizə verdilər. Heç bir tərəddüd etmədən bacımın öz sağlığına qovuşması üçün onun donoru oldum. O yenidən həyata, ailəsinin, iki balasının yanına qayıtdı. Dünyada bunu görməkdən böyük xoşbəxtlik ola bilərmi?!.

*Brilliant Mahmudova* - 7 ilə yaxın idi ki, "hepatit-b" və "hepatit-d" xəstəliyindən əziyyət çəkirdim. Bu xəstəlik qaraciyərimi məhv etmişdi. Çox müalicələr aldım, amma çarə olmadı. Sonda həkimim dedi ki, vəziyyət getdikcə pisləşir, orqan dəyişdirilməlidir. Amma bunu etdirməyə maddi imkanımız yox idi. Dövlətimizə minnətdaram ki, bu imkanı bizə yaratdı və mənə bacımın qaraciyəri köçürüldü. Yenidən həyata qayıtdım. Bir az ağrılar var, o da keçib gedəcək. Ailəm, övladlarım çox sevinirlər, onlar da mənimlə bərabər bu neçə ildə əziyyət çəkirdilər. Bacım öz sağlığı bahasına mənə yaşam şansı verdi, bir ömür boyu ona həyatımı borcluyam...

8 yaşlı Leyla Nuxova isə ötən il dekabrın 22-də əməliyyat olunub və ona atasının böyrəyi köçürülüb. Leylanı həkim yoxlanışına gətirən anası Şəbnəm Səlimova danışır ki, övladının hər iki böyrəyində çatışmazlıq olub. Ötən il üç ay dializə getdikdən sonra həkim Leylanın ailəsinə bildirib ki, icbari tibbi sığorta ilə ona transplantasiya əməliyyatını icra etmək mümkündür: "Mən həyatımda ilk dəfə idi ki, o cür xoşbəxt idim, bilmirdim sevincdən ağlayım, yoxsa gülüm. Prezidentimizin xüsusi diqqəti ilə dövlətimizin yaratdığı bu şərait sayəsində qızım əməliyyat olundu. Daha o heç bir ağrı çəkmədən oynayacaq, hər zaman üzü güləcək... Onun gülüşünü görmək isə mənim üçün bir ömrə bərabərdir..."

Bunlar, gerçək həyat hekayələri, insanların bir-birini yaşatmaq naminə sağlamlıqları bahasına etdikləri fədakarlıqların misilsiz örnəkləridir.

Orqan transplantasiyası elə bir əməliyyatdır ki, onu həyata keçirmək üçün təkcə peşəkar tibbi heyət, müasir tibbi avadanlıqlar, hər cür şəraiti olan tibb müəssisələri, kifayət qədər maliyyə imkanlarına malik olmaq yetmir. Bu əməliyyatı gerçəkləşdirmək üçün ən əsası böyrəyinin birini, ciyərinin parasını, sümük iliyini insanlara verməyə razı olan, gözünü qırpmadan onlara yaşam qazandırmaq üçün donor olmağa könül verən xeyirxah, sözün əsl mənasında, böyük ürəyə sahib insanlar lazımdır...

Elə bu yazıda sizləri tanış etdiyimiz fədakar donorlar kimi...

*Yasəmən MUSAYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

---

## İKTA rəqiblərinə münasibətdə sui-istifadə hallarına yol verən provayderlərə xəbərdarlıq edir

***Azərbaycanın telekommunikasiya və poçt xidmətləri üzrə tənzimləyici qurumu İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinə (İKTA) istehlakçılar arasında əsassız məlumatları yaymaqla sui-istifadə hallarına yol verən bəzi provayderlərlə bağlı şikayətlər daxil olur.***

Bu barədə AZƏRTAC-a agentlikdən daxil olan məlumatda deyilir.

Daha sonra məlumatda qeyd olunub ki, İKTA-ya daxil olan şikayətlərdən müəyyən edilir ki, rəqib internet provayderlərin əməkdaşları və onların xidmətlərinin satışı ilə məşğul olan şəxslər digər provayderlərin abunəçiləri ilə fərdi qaydada görüşərək onlara xidmət göstərən provayderin təsərrüfat fəaliyyəti haqqında həqiqətə uyğun olmayan şayiələr, o cümlədən həmin provayderin fəaliyyətinin dayandırılacağı, müflis olması, külli miqdarda borclarının olması və bu kimi rəqib provayderi nüfuzdan salan müştərinin çaşdırılması və aldadılmasına yönəlmiş hərəkətlər etməklə yanlış məlumatların yayılması halları müşahidə edilir.

Agentliyə daxil olan şikayətlərdə səslənən iddialara görə, bu hərəkətlərlə həmin internet provayderləri abunəçini rəqibin xidmətindən imtina etməyə sövq edərək öz tərəflərinə çəkmək məqsədi güdürlər.

İKTA telekommunikasiya bazarında yaranmış bu cür qeyri-sağlam halların olmasından narahatdır və bəyan edir ki, internet provayderlər işgüzar münasibətlərini sağlam rəqabət və qarşılıqlı əməkdaşlıq prinsipləri əsasında qurmalıdırlar. Belə haqsız sui-istifadə üsullarından istifadə yolverilməzdir.

Eyni zamanda tənzimləyici qurum bildirir ki, Azərbaycanda internet fəaliyyəti göstərən provayderlər İKTA tərəfindən uçota alınır və yalnız fəaliyyətini hər hansı formada dayandıran şirkətlərin uçotu ləğv olunur. İstehlakçılar internet provayderlərin mövcud siyahısı ilə bu linkdə tanış ola və provayderin fəaliyyətdə olub-olmamasını müstəqil şəkildə yoxlaya bilərlər.

Yuxarıda qeyd olunan hallarla qarşılaşan istehlakçılar agentliyin yaratdığı "E-şikayət" sistemi vasitəsilə tənzimləyici quruma müraciət edə bilərlər.

"İKTA bəyan edir ki, internet provayderlərin uçota alınmadan fəaliyyəti "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun pozulması halıdır və belə halların qarşısının alınması məqsədilə tənzimləyici tərəfindən qanun çərçivəsində müvafiq tədbirlər görüləcək", - deyə məlumatda vurğulanıb.

Qeyd edək ki, İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi ölkədə informasiya-kommunikasiya texnologiyaları və rabitə (telekommunikasiya və poçt) sahələrində tənzimləmə və nəzarəti, eləcə də radiospektr idarəçiliyini həyata keçirir.




AZERBAIJAN COP29

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası



# SOCAR və bp ekologiyanı da birgə qoruyacaqlar

## COP29 ərəfəsində atmosferin mühafizəsi üzrə bu şirkətlər arasında əməkdaşlıq genişlənir

SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və ölkəmizdə ən iri neft, qaz və ixrac layihələrinin operatoru olan bp metan emissiyalarının azaldılması sahəsində də əməkdaşlıq edirlər. Ötən ilin dekabrında iki şirkət arasında bununla bağlı Anlaşma Memorandumu imzalanıb.



Bu günlərdə isə ətraf mühitin mühafizəsi sahəsində birgə əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə xidmət edən həmin sənəddə nəzərdə tutulan işlərin necə yerinə yetirildiyi nəzərdən keçirilib. SOCAR-ın prezidenti Rövşən Nəcəfin bp-nin strategiya və davamlılıq üzrə icraçı vitse-prezidenti Ciulia Çierçia ilə görüşü zamanı bu, əsas mövzu olub. Qeyd edildiyi kimi, bir neçə ay əvvəl SOCAR və bp Azərbaycanın neft-qaz sektorunda metan səviyyələrinin azaldılmasına yönəlmiş yeni əməkdaşlıq təşəbbüsünü elan ediblər. Beləliklə, Qlobal "Metan Rəhbər Prinsipləri"ni (MGP) imzalamış bu iki şirkət ölkəmizdə metan emissiyalarının azaldılması səylərini irəli aparmaq məqsədilə öyrətmək və başqalarından öyrənmək, təcrübələri bölüşmək və birgə fəaliyyət üçün metan sahəsindəki öz səriştə və biliklərini bir araya gətirərək əməkdaşlığı genişləndirir.

Xatırladaq ki, 2023-cü il noyabrın 30-da MGP ölkələr səviyyəsində metan emissiyalarının azaldılmasını sürətləndirmək üçün özünün yeni Qlobal Metan Emissiyalarının Azaldılmasının Təşviqi (AGMR) təşəbbüsünü elan etmişdi. SOCAR və bp həmin təşəbbüs çərçivəsində birgə işləyərək Azərbaycanda enerji sektorunun tələblərinə cavab verən xüsusi yol xəritəsi hazırlamaq səylərinə dəstək məqsədilə əsas maraqlı tərəfləri, tərəfdaşları, tədqiqat institutlarını və hökumət rəhbərliyini bir araya gətirməyi qərara almışlar. SOCAR-la bp arasında imzalanan qarşılıqlı Anlaşma Memorandumu çərçivəsində şirkətlər metan səviyyələrinin azaldılması sahəsində bilik və bacarıqların inkişafı, emissiyaların ölçülməsi, hesabatlılıq, yoxlama, texnologiyalar və texniki təcrübənin artırılması yönümündə birgə işləyirlər.

Sənəd imzalanarkən SOCAR bəyan etmişdi:" "SOCAR və bp-nin uzunmüddətli tərəfdaşlığı qlobal miqyasda davamlı, sərfəli və təhlükəsiz enerji təmin edilməsində əlamətdardır. Bu memorandumun imzalanması qarşılıqlı əlaqələrimizi daha da gücləndirmək öhdəliyimizi bir daha təsdiqləyir. Əminik ki, bu əməkdaşlıq metan qazının azaldılması və iqlimin qorunmasına əhəmiyyətli töhfələr verəcək. Birlikdə metan idarəetmə texnologiyaları üzrə təcrübə və fikirləri bölüşəcək, birgə texnologiya sınaqları və kampaniyaları üçün imkanları müəyyən edəcək və metan emissiyalarının azaldılması ilə bağlı məlumatlılığın artırılmasına töhfə verəcəyik."

bp-nin səlahiyyətli nümayəndəsi isə demişdi: "Azərbaycanda metan emissiyalarının əhəmiyyətli dərəcədə azaldılmasına yönəlmiş və bu sahədə səylərimizi birləşdirməyə imkan verəcək bu mühüm sənədi imzalamaqdan çox məmnunuq. Sənəd bizim bu istiqamətdə sıx əməkdaşlıq etmək niyyətimizi əks etdirir. İnanırıq ki, birlikdə sənayenin, cəmiyyətin və hökumətin metan emissiyalarının azaldılması səylərinə daha güclü dəstək verə bilərik. Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı kimi ölkədə metan sahəsinə əhəmiyyətli dəyişikliklər gətirmək üçün SOCAR-la sıx işləməyə davam edəcəyik".

Bu əməkdaşlıq ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili"nin olduğu və COP29-a evsahibliyi etməyə hazırlaşdığımız bir zamanda xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Beynəlxalq Enerji Agentliyinin (BEA) Qlobal Metan İzləyicisi hesabatına görə, Sənaye İnqilabından bəri müşahidə edilən qlobal temperatur artımının 30 faizi metan emissiyaları ilə bağlıdır. Qlobal enerji sektoru metan emissiyalarının 40 faizini təşkil edir və kənd təsərrüfatından sonra ikinci yeri tutur.

Yeri gəlmişkən qeyd edək ki, metan həm karbon dioksiddən daha sürətlə dağılmasına, həm də daha qısa ömür sürməsinə baxmayaraq, ondan daha güclü istixana qazıdır. İqlim dəyişikliyi ilə mübarizə məqsədlərinə və səylərinə baxmayaraq, enerji sektorunda əsasən qalıq yanacaqlardan yaranan metan emissiyaları 2019-cu ildə rekord səviyyədən bir qədər aşağıda qalmış olsa da, 2022-ci ildə 135 milyon tona çataraq rekord səviyyəyə yaxınlaşmışdır. Kömür, neft və təbii qaz sektorlarının hər biri 40 milyon ton metan emissiyası istehsal etmişdir.

Lakin BEA-nın hesabatına görə, neft və qaz sektorundan metan emissiyaları mövcud texnologiyalarla 75 faiz azaldıla bilər. Bunun üçün isə böyük həcmdə sərmayə lazımdır.

SOCAR və bp şirkətlərinin rəhbər nümayəndələri arasında keçirilən sözügedən görüşdə də məhz metan emissiyalarının azaldılması məsələsi diqqət mərkəzində olub. SOCAR-ın ekoloji sahədə fəaliyyəti, orta və uzunmüddətli perspektivdə emissiyaların azaldılması ilə bağlı müəyyənləşdirilən hədəfləri barədə məlumat verilib. Həmçinin bildirilib ki, hasilat prosesində məşəldə yandırmaların sıfıra endirilməsi, emissiya intensivliklərinin azaldılması, "Sıfır metan", 2050-ci ilə qədər "Xalis sıfır" (Net Zero) hədəflərinə çatmaq şirkətin əsas məqsədlərindəndir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan dünyada ən etibarlı tərəfdaş kimi tanınır

Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına qoşulmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizə aparır. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını planlaşdırır.

2030-cu ildən sonra isə daha iddialı hədəflər müəyyənləşdirilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin işğaldan azad edilmiş ərazilərini "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub.

Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlarda söz sahibi kimi təkcə üzləşdiyimiz problemlərin yox, həm də qlobalmiqyaslı məsələlərin həllinə böyük töhfələr verir. Ölkəmizin 120 dövlətin üzv olduğu Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdəki fəaliyyətinə diqqət yetirəndə görürük ki, Azərbaycan qısa müddət ərzində bu təşkilatın nüfuz və gücünü beynəlxalq hadisələrə təsir etmək səviyyəsinə qaldırmışdır. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan digər beynəlxalq təşkilatlar - Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və sair platformalarda olduqca fəaldır. Qeyd etdiyimiz bu uğurlu əməkdaşlıqlar həm də qlobal beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi üçün hərtərəfli zəmin yaradır. Ötən il dekabrın 11-də Dubayda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası çərçivəsində COP29-un Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilib.

Ölkəmizin beynəlxalq aləmdə qazandığı uğurların əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik daxili və xarici siyasət kursu dayanır. Böyük uğur və uzaqgörənliklə həyata keçirilən siyasi kurs ölkəmizin inkişafını təmin edir, dünyada nüfuzunu daim artırır. Qazanılan uğurların nəticəsidir ki, bu gün Azərbaycan təkcə regionda deyil, bütün dünyada ən etibarlı tərəfdaş kimi tanınır və qəbul olunur. Ölkəmizin müxtəlif beynəlxalq platformalarda, tədbirlərdə fəal iştirakını təmin və zəruri edən də məhz bu amillərdir.

Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası və ölkələrarası tədbirlərdən biri olan COP29-a 2024-cü ildə evsahibliyi etməsi Prezident İlham Əliyevin növbəti qətiyyətli və təntənəli qələbəsidir. Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra bunu xarici siyasətimizin ən böyük uğuru kimi qiymətləndirmək olar. Eyni zamanda son vaxtlar Azərbaycana qarşı çirkin kampaniya aparan başda Fransa olmaqla Qərb dövlətlərinə tutarlı bir cavabdır.

COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar olaraq Prezident İlham Əliyevin sədrliyi ilə ötən il dekabrın 15-də keçirilən müşavirədə dövlətimizin başçısı demişdir: "Keçiriləcək konfrans dövründə Bakıda 70-80 min xarici qonaq olacaq. Qeyd etmək lazımdır ki, bu konfrans 1995-ci ildən etibarən keçirilir. COP iqlim dəyişiklikləri üzrə BMT-nin Çərçivə Konvensiyasının həyata keçirilməsini monitorinq edən və bu konvensiyaya düzəlişlər etməyə səlahiyyəti olan qurumdur. Bizim COP29 beynəlxalq konfransına uğurla evsahibliyi etməyimiz ölkəmizin, xalqımızın növbəti böyük uğuru olmaqla bərabər, həm də malik olduğumuz potensialı bütün dünyaya göstərəcək. Eyni zamanda imic dəyişiminə də şahidlik edəcəyik. Belə ki, indiyə qədər əsas etibarilə neft-qaz ixracatçısı kimi tanınan Azərbaycan, indi də özünü dünyaya "yaşıl enerji" ölkəsi kimi təqdim edəcək."

COP29-un Azərbaycanda keçirilməsi dünyanın aparıcı dövlətlərinin mətbuatında da geniş işıqlandırılır. İsrailin Dona Qrasiya Diplomatiya Mərkəzinin baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avraham ölkəsinin populyar "Israel National News" nəşrində "Niyə İsrail iqlim dəyişikliyi ilə maraqlanmalıdır?" sərlövhəli məqaləsində yazır: "İndiyədək evsahibliyi etdiyi bir çox beynəlxalq tədbirlərin öhdəsindən layiqincə gələn Azərbaycan "yaşıl enerji" və bərpaolunan enerji mənbələrinə böyük diqqət yetirir və sözügedən siyasət Azərbaycan hökuməti üçün prioritet məsələlərdəndir. Belə ki, Azərbaycan hökumətinin son vaxtlar "yaşıl enerji"nin və bərpaolunan enerji mənbələrinin inkişafına əhəmiyyətli sərmayələr qoyduğu göz qabağındadır. Habelə Qarabağda bütün sistemlər yeni standartlara uyğun qurulub. Azərbaycan davamlı inkişaf hədəflərini daim diqqətdə saxlayır. Təklif edildiyi vaxtdan Azərbaycan sözügedən hədəfləri müxtəlif perspektivlərdən fəal şəkildə dəstəkləyən və təbliğ edən ölkələrdən biridir və bu baxımdan COP29 konfransına evsahibliyini ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar."

2024-cü ildə Bakıda keçiriləcək COP29 dünyanın ən aktual bəşəri problemlərinin müzakirə olunduğu mühüm beynəlxalq platformadır. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə öz töhfəsini verir. Bu mühüm tədbirdə Azərbaycanın aktual ekoloji problemləri həll etmək və davamlı həll yolları tapmağa dair digər ölkələrlə işləmək üçün geniş imkanları var. Azərbaycan mühüm qlobal konfransa evsahibliyi etməklə beynəlxalq nüfuzunu və ekoloji gündəliyə sadiqliyini nümayiş etdirir və bununla da dünya səhnəsində fəal və nüfuzlu tərəfdaş kimi mövqeyini daha da gücləndirir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# İstixana effektinin azaldılması iqlim dəyişikliyinin qarşısını almaqda ən mühüm məsələlərdən biridir

İqlim dəyişikliyinin başlıca səbəbi son 200 ildə həyatımızda baş verən sənayeləşmədir. XVII əsrin axırları - XVIII əsrin əvvəllərində Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və digər Qərbi Avropa ölkələrində sənaye sahələri yarandı və getdikcə inkişaf edərək genişlənməyə başladı.

Sənayenin inkişafı nəticəsində istehsalatda getdikcə daha çox yanacaqdan istifadə edildi. Əvvəllər daş kömürdən daha çox istifadə edilirdisə, indi daha çox yanacaq vasitəsi kimi, neft və qaz yandırılır və bunun nəticəsində atmosferə külli miqdarda istixana qazları daxil olur. Bu isə Yer kürəsində istixana effektinin yaranmasına səbəb olur. Günəş şüaları yer səthinə gəlib çatandan sonra geriyə qayıdarkən istixana qazları tərəfindən tutularaq temperaturun daha da artmasına səbəb olur. Onun əsasını karbon qazı, metan və azot-dioksid təşkil edir. İstixana effektinin artmasına isə ən çox səbəb olan karbon qazıdır. Planetin istiləşməsi şübhəsiz ki, bir çox fəsadlara gətirib çıxarır. Onların ən böyüyü Antarktida və Qrenlandiyada buzlaqların əriməsi nəticəsində tədricən dünya okeanında suyun səviyyəsinin yüksəlməyə başlamasıdır. Bunun nəticəsində dəniz sahilində olan şəhər və sahilyanı ərazilərin su altında qalmaq təhlükəsi artır. Digər tərəfdən, temperaturun artması nəticəsində dünyada olan su ehtiyatları azalmağa başlayır. Təbiətdə quraqlıq, yaşıllıq zonalarının azalması halları yaranır, meşə yanğınları intensivləşir, Yer kürəsinin daxili regionlarında su qıtlığı baş verir və bunun nəticəsində ərzaq böhranı yaranır. Buna görə də bütün dünya ölkələri bir araya gələrək iqlim dəyişmələrinin qarşısını almaq üçün tədbirlər görməyə çalışırlar. Bunu AZƏRTAC-a Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri, su üzrə mütəxəssis Rövşən Abbasov deyib.



O, fikrinin davamı olaraq deyib: "Bu məqsədlə ilk dəfə 1992-ci ildə Kioto protokolu imzalanıb və protokolun əsas müddəalarından biri də 2010-cu ilədək dünyada olan istixana qazlarının səviyyəsinin 1990-cı il səviyyəsindən də aşağı salınması öhdəliyi idi. Təəssüf ki, göstərilən səylərə baxmayaraq, həmin öhdəlik yerinə yetirilmədi və ona görə də 2015-ci ildə Paris COP görüşündə razılaşmalar əldə olundu. Həmin razılaşmalara qoşulanlar arasında Azərbaycan da var. Ayrı-ayrı ölkələr könüllü olaraq müxtəlif öhdəliklər götürdülər. Ölkəmiz 2030-cu ilə qədər istixana qazlarının səviyyəsinin 35 faizə qədər azaldılmasını öhdəyə götürüb. Bu, çox ambisiyalı qərar olsa da, bu sahədə çox böyük işlər həyata keçirilir. Həmin öhdəliyə əməl olunması üçün Azərbaycanda günəş və külək elektrik stansiyaları istifadəyə verilir, "yaşıl enerji"nin artırılması üçün daha çox investisiya qoyulur və atmosferdə istixana qazlarının əldə edilməsi üçün müxtəlif sosial və iqtisadi mexanizmlər hazırlanaraq həyata keçirilir. Ümid etməyə dəyər ki, ölkəmiz həmin vaxtda öz məqsədinə nail ola biləcək".

"Digər ölkələr tərəfindən də belə öhdəliklər götürülüb. Bu ilin noyabrında COP29-un ölkəmizdə keçirilməsi bu sahədə olan fəallığı bir qədər də artırıb. Üstəlik qarşıya belə bir vəzifə də qoyulub ki, ölkəmiz öz ərazisində istehsal etdiyi enerjinin 30 faizə qədərini yalnız "yaşıl enerji" mənbələrindən istehsal etsin. İqlim dəyişmələrinin qarşısının alınması üçün Bakıda keçirilən tədbirdə yeni hədəflər və yeni strategiyalar müəyyən ediləcək. Bakıda keçirilən həmin tədbirdə qəbul edilən qərarlardan sonra bu sahədə daha uğurlu addımlar atılması zamanın tələbinə çevriləcək",- deyə mütəxəssis fikrinə yekun vurub.

# Xocalı soyqırımının 32-ci ildönümü ilə bağlı ümumukrayna onlayn konfransı keçirilib

Fevralın 28-də "Xocalı faciəsi - bütün bəşəriyyət üçün faciə" mövzusunda ümumukrayna onlayn konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Ukraynadakı səfirliyi və Ukrayna-Türk Mərkəzinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunan onlayn konfransda Ukraynanın müxtəlif şəhərlərindən 100-dən çox müəllim və tələbə iştirak edib.

Onlayn konfransın məruzəçiləri - ölkəmizin Ukraynadakı səfiri Seymur Mərdəliyev, Ukrayna-Türk Mərkəzinin həmtəsisçisi, Ukrayna Ali Radasının deputatı Sergey Nagornyak, Xocalı soyqırımı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əvəzsiz xidməti olmuş və Xocalı hadisələrinə həsr edilmiş "Endless corridor" filminin müəllifi, litvalı jurnalist Riçardas Lapaytis, tanınmış ukraynalı tarixçi, tarix elmləri namizədi, Taras Şevçenko adına Kiyev Milli Universitetinin dosenti Oleq Kupçik, Sumı Dövlət Universitetinin dosenti, tarix elmləri namizədi Anatoli Qonçarenko, Dnepr Milli Texniki Universitetinin dosenti, filologiya elmləri namizədi Gennadi Onişşenko olublar.

Əvvəlcə konfransın moderatoru, Ukrayna-Türk layihələrinin kuratoru Marına Qonçaruk çıxış edərək bu cür tədbirlərin Xocalı soyqırımının dünya ictimaiyyətində tanınması baxımından əhəmiyyətindən danışıb. Sonra o, Xocalı soyqırımı barədə slaydları təqdim edib.

Azərbaycanın və Ukraynanın tarixlərində oxşar qanlı səhifələrin olduğunu deyən səfir Seymur Mərdəliyev bildirib ki, Ermənistanın ölkəmizə qarşı onilliklər ərzində davam edən təcavüzü zamanı dinc əhaliyə qarşı törədilmiş ən ağır cinayətlərdən, tariximizin ən faciəli səhifələrindən biri münaqişədən əvvəl 7000-dən çox əhalinin yaşadığı Xocalı şəhərinin sakinlərinin soyqırımına məruz qalması olub. Ermənistanın işğalçılıq siyasəti çərçivəsində Xocalı soyqırımından əvvəl Bağanis Ayrım, Meşəli, Kərkicahan, Malıbəyli və Qaradağlı kimi yaşayış məntəqələrində də azərbaycanlı əhaliyə qarşı qırğınlar törədilib.

"Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, bu şəhərdə törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olmuşdur. Təəssüf ki, ikili standartlar nəticəsində dünya ictimaiyyəti Xocalıda baş verənlərin soyqırımı olduğunu dilə gətirmək istəmir. Əgər vaxtında Xocalı soyqırımına lazımi hüquqi qiymət verilsəydi, bəlkə də sonrakı illərdə dünyanın digər bölgələrində qətliamlar baş verməzdi. Cəzasızlıq həmişə yeni qətliamlara yol açır", - deyə səfir vurğulayıb.

Ötən ilin antiterror tədbirləri nəticəsində Xocalının azad edildiyini xatırladan diplomat Azərbaycanın Ermənistanla sülh prosesinə sadiq olduğunu deyib. Bildirib ki, Azərbaycan ilə Ermənistan arasında barışığın olması üçün, ilk növbədə, ədalətin, o cümlədən Xocalı soyqırımının qurbanları üçün ədalətin bərqərar olması zəruridir. Ermənistan bu qara ləkəni silmək üçün törədilən soyqırımı qəbul etməli və bununla bağlı üzr istəməlidir.

Ukraynalı deputat Sergey Naqornyak qeyd edib ki, Ukrayna xalqı Azərbaycan xalqının kədərini bölüşür və Xocalı faciəsi qurbanlarının xatirəsini anır. Bu vəhşi cinayəti törədənlər başqasının torpaqlarının işğalı ilə insanlığa zidd, terrorçu xislətlərini nümayiş etdiriblər.

Sivil dünyanın Xocalı faciəsini unutmağa haqqı yoxdur. Beynəlxalq hüquq cinayətkarların cəzasız qalması hallarına dözmür, çünki bu, cinayətlərin miqyasını xeyli genişləndirir. Təəssüf ki, dünya ictimaiyyəti Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına, azərbaycanlıların öz torpaqlarından qovulmalarına, dinc əhaliyə və müdafiəsiz insanlara qarşı törədilmiş kütləvi qırğınlara, ağır cinayətlərə göz yumdu", - deyə S.Naqornyak əlavə edib.

Deputat vurğulayıb ki, bu cinayəti törədən silahlılar vaxtında cəzalarına çatsaydılar, bəlkə də belə vəhşiliklərin qarşısını almaq mümkün olardı.

Xocalı soyqırımının şahidi litvalı jurnalist Riçardas Lapaytis isə vurğulayıb ki, erməni əsgərləri oğru kimi kəndlərə soxulub, soyqırımları törədirdilər. "Onlar günahsız insanları qırırdılar. İstənilən beynəlxalq məhkəmədə sözümü təsdiqləyə bilərəm", - deyə Riçardas Lapaytis bildirib.

O deyib ki, Xocalı soyqırımı öz miqyasına, bu dəhşətli cinayəti törədənlərin amansızlığına və qəddarlığına görə dünyada baş verən insanlıq əleyhinə ən ağır cinayətlərlə müqayisə oluna bilər. Faciənin bütün məsuliyyəti Ermənistanın üzərindədir və bu cinayəti törədənlər beynəlxalq ədalət məhkəməsi qarşısında cavab verməlidirlər.

Taras Şevçenko adına Kiyev Milli Universitetinin dosenti Oleq Kupçik, Sumı Dövlət Universitetinin dosenti, tarix elmləri namizədi Anatoli Qonçarenko, Dnepr Milli Texniki Universitetinin dosenti, filologiya elmləri namizədi Gennadi Onişşenko çıxışlarında Xocalı soyqırımı barədə fikirlərini bölüşüblər.

# Peru Konqresi Xocalı soyqırımının ildönümü ilə bağlı bəyanat qəbul edib

Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar Peru Konqresi tərəfindən növbəti bəyanat qəbul edilib.

Ölkəmizin Meksikadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində azərbaycanlı mülki əhaliyə qarşı törədilmiş soyqırımı aktından 32 il keçdiyi diqqətə çatdırılıb. Həmçinin misli görünməmiş hadisələr nəticəsində 106-sı qadın, 63-ü uşaq və 70-i qoca olmaqla, 613 nəfərin qətlə yetirildiyi, 1275 nəfərin girov götürüldüyü, 150 nəfərin taleyinin hələ də naməlum qaldığı bildirilib.




Sənəddə baş vermiş soyqırımı aktının çoxsaylı beynəlxalq insan hüquqları təşkilatları tərəfindən tam şəkildə sənədləşdirildiyi, "Human Rights Watch" tərəfindən isə "münaqişə zamanı törədilmiş ən qanlı qətliam" olaraq qeydə alındığı vurğulanıb.

Bundan başqa, bəyanatda 2013-cü ildə Peru Konqresi tərəfindən Xocalı soyqırımı qurbanlarına ədalət tələb edən sənədə istinad olunduğu da əksini tapıb.

Həmçinin bu gün bütün dünya azərbaycanlılarının Xocalı şəhərində qətlə yetirilmiş günahsız insanların xatirəsini ehtiramla yad etdiyi bildirilib, onların əziz xatirəsinə, baş vermiş faciənin 32-ci ildönümünün anılması ilə əlaqədar Azərbaycan hökumətinə və xalqına dərin hüznlə başsağlığı ifadə olunub.

Yüz minlərlə məcburi köçkünün öz evlərinə ləyaqətli və təhlükəsiz şəkildə qayıtmasını təmin etmək üçün Azərbaycanın sülh axtarışında, işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında və orada aparılan minaların təmizlənməsi prosesində göstərdiyi səylərə dəstək ifadə edilib.

Sənəddə xüsusilə mina problemi ilə üzləşən Azərbaycan kimi ölkələrə bu ciddi təhlükəni aradan qaldırmaq və günahsız insanların həyatını qorumaq məqsədilə dəstək göstərilməsi üçün beynəlxalq ictimaiyyətə çağırış da edilib.

Xatırladaq ki, Peru Konqresi 2023-cü ildə də Xocalı soyqırımının ildönümü ilə bağlı bəyanat qəbul edib.

# Xocalı faciəsi ilə əlaqədar Sloveniyanın paytaxtında maarifləndirmə aksiyası baş tutub

Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar Sloveniyanın paytaxtı Lyublyana şəhərində maarifləndirmə aksiyası keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Türk Mədəniyyət Assosiasiyasının təşkilatçılığı ilə şəhərin mərkəzi küçələrində yerləşən 18 rəqəmsal LED ekranda 24 saat ərzində "Xocalını unutmayaq" posteri nümayiş olunub.

Assosiasiyadan bildirilib ki, Xocalı soyqırımının 32-ci ildönümünü ilə əlaqədar rəqəmsal LED ekranlarda QR kodlu posterlər yerləşdirməkdə əsas məqsəd yerli ictimaiyyətin diqqətini erməni vəhşiliyinə çəkmək olub.

Qeyd edək ki, maarifləndirmə aksiyası Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycanın Avstriyada və Sloveniyadakı səfirliyinin dəstəyi ilə həyata keçirilib.

## Naxçıvan Muxtar Respublikası - 100

# Cahanın Nəqşi - Naxçıvan səyyah və coğrafiyaşünasların gözü ilə...

**Əsrlər boyu Naxçıvan bölgəsi siyasi və strateji cəhətdən olduqca əhəmiyyətli bölgələrdən biri olmuşdur. Qədim Oğuz yurdu olan bu bölgədə vahid türk mədəniyyətini, türk yaşam tərzini, türk tarixini özündə əks etdirən yüzlərlə tarixi və memarlıq abidələrinə rast gəlmək mümkündür.**



Tarixin bütün mərhələlərində Şərqlə Qərbi bir-birinə bağlayan mühüm karvan yollarının keçdiyi bu bölgə zəngin ticarət karvanlarının, əzəmətli orduların, diplomatik elçilik heyətlərinin, macəra axtaran səyyahların diqqət mərkəzində olmuş, müsəlman, qeyri-müsəlman səyyahların və coğrafiyaşünasların əsərlərinin mövzusuna çevrilmişdir.

Zaman-zaman Naxçıvan bölgəsini gəzmiş və ya bir müddət burada yaşamış səyyahlar, coğrafiyaçılar bu bölgənin tarixi və memarlıq abidələri, şəhərləri, əhalisi, adət-ənənələri və həyat tərzi haqqında maraqlı məlumatlar vermişlər. İslam coğrafiyaçılarından və səyyahlarından Əbdür-Rəşid əl-Bakuvi, Övliyə Çələbi, alman səyyahı İohan Şiltberqer, fransız Jan Şarden, Jan Babtist Tavernye, ispaniyalı diplomat Ryu Qonsales Klavixo və digərləri öz əsərlərində Naxçıvan bölgəsinin sosial-mədəni və siyasi həyatı, tarixi memarlıq abidələri və adət-ənənələri haqqında çox qiymətli məlumatlar vermişlər.

XV əsrin əvvəllərində azərbaycanlı coğrafiyaşünas Əbdür-Rəşid əl-Bakuvi tərəfindən yazılmış "Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri" adlı əsərində Azərbaycanın şəhərləri haqqında ətraflı məlumatlar verilmişdir. Müəllifin bu əsərində Naxçıvan şəhəri haqqında maraqlı qeydlərə rast gəlirik. O, beşinci iqlim qurşağına aid etdiyi Naxçıvan şəhərini və şəhərin tarixi memarlıq görünüşünü bu şəkildə təsvir edir: "Naqcuvan - divarları və içqalası olan Azərbaycanda gözəl şəhərdir. Şəhər düzənliyin ortasında yüksək yerdə bina olunub. Bu yerdən Araz çayı görünür. Bağlı-bostanlı, meşəli, meyvəli və bərəkətli yerdir. Havası təmiz, suyu şirindir. Orada məşhur binalar, mədrəsələr və xanəgahlar var. Əhalisi nəqqaşlıqda və xələnc ağacından qab-qacaq və müxtəlif əşya düzəltməkdə mahirdir. Bütün bunlar müxtəlif ölkələrə aparılır..."

Coğrafiyaşünas Naxçıvan yaxınlığında Ziya əl-Mülk körpüsü haqqında da məlumat verərək yazırdı: "Təbrizlə Marağa arasında böyük Səhənd dağı var. Dağın başında həmişə qar olur. Orada Uveys çayı axır. Ərzən ər-Rum dağlarından axan bu çayın suları çox gurdur. Bu çay çoxlu ölkələrin torpaqlarından axır və vaxtında Naxçıvan yaxınlığında Ziya əl-Mülkün körpüsünə çatır. Körpü daşdan tikilib və dünyanın möcüzələrindəndir..."

XV əsrdə uzun müddət Yaxın Şərq bölgəsini gəzmiş alman səyyahı İohan Şiltberqer də Naxçıvan bölgəsi haqqında qısa da olsa məlumat vermişdir. O yazırdı: "Naxçıvan şəhəri tufandan can qurtaran, üzərində Nuhun gəmisi dayanan Ağrı dağına gedən yolda yerləşir. Ətrafında məhsuldar torpaqlar var... Həmçinin burada Əlincə şəhəri var. Tamerlan (Əmir Teymur - M.A.) 14 illik mühasirədən sonra buranı ələ keçirmişdir..."

Naxçıvan bölgəsi haqqında məlumat verən elçi-səyyahlardan biri də ispaniyalı diplomat Ryui Qonsales de Klavixodur. O, Kastiliya kralı III Enrikonun 1403-1406-cı illərdə Səmərqəndə Teymur sarayına göndərdiyi elçilər heyətinə başçılıq etmişdir. Onun yol gündəliyində ilk maraqlı məlumat Naxçıvanın Əlincə qalası haqqındadır. Klavixo 1404-cü ildə Səmərqəndə gedərkən iyun ayının 3-də Əlincə (Alancık) qalası önünə gəldiyini yazır və qala haqqında məlumatlar verir.

Naxçıvan bölgəsinin tarixi memarlıq abidələri haqqında yazan ortaçağ səyyahlarından biri də fransız Jan Şarden olmuşdur. O, "Parisdən İsfahana səyahət" adlı əsərində bu bölgə haqqında məlumatlar vermişdir. Fransız səyyah Naxçıvan istiqamətində hərəkət edərkən gördüklərini bu şəkildə təsvir edir: " ...Gün çıxandan bir saat əvvəl (8 aprel /1673) İrivandan (İrəvan-M.A.) yola düşdüm, təpələrdən və vadilərdən keçib dörd lyö qət etdim. Keçib getdiyim ölkə şəhərciklərlə dolu idi... O, dağlarla əhatə olunmuşdu. Sağdakı dağları Nuh dağı adlandırırlar... Biz Qaynar adlı kiçik bir şəhərdə mənzil saldıq... Biz həmin yolla gedib səkkiz lyö qət etdik. Yolun yarısında, sol tərəfdə Sədərək adlı böyük şəhərciyin yanından ötüb keçdik. Mahalın sultanı da bu şəhərcikdə yaşayır... Həmin yolla, həmçinin gözəl, lakin düzənliyi az, daş və təpələrlə örtülü bir ölkə ilə dörd lyö getdik. Bütün qonşu torpaqları suvaran Arpasu adlanan çaydan keçdik. O, bu hissədə paytaxtı İrivan olan bəylərbəyliyini İrivanın digər hissəsindən ayırır. Bu hissənin paytaxtı Naxçıvandır. Beş lyö qət edib, bol bəhrəli və çox hamar düzənlikdən keçib Naxçıvana gəlib çatdıq".

Səyyah səfəvi-osmanlı müharibələri zamanı Naxçıvan bölgəsinin böyük dağıntılara məruz qalmasına baxmayaraq, bölgənin sosial-mədəni inkişafı haqqında da yazırdı: "Naxçıvanda beş karvansara, hamamlar, bazar meydanları, tütün və qəhvə verən iri mehmanxanalar və təxminən iki min ev vardır. Tarixçilər əvvəllər orada qırx min ev olduğunu təsdiq edirlər. Şəhərə kənardan baxdıqda, I Şah Abbas tərəfindən keçən əsrin sonunda osmanlıların əlinə keçməsin deyə dağıdılan çoxlu istehkamlar (qalaça) və böyük bir qalanın viranələri görünür..."

Fransız səyyah Naxçıvan bölgəsinin ətraf əraziləri haqqında da məlumat vermişdir. O, bu haqda yazır: "(13 aprel, 1673) - Naxçıvandan yola düşüb, yeddi lyö getdik. Birinci lyödə lap böyük bir körpüdən keçdik. Bu ölkənin camaatı həmin körpünün altından axan çaya Naxçıvançay deyirlər. Araz çayının kənarında gecələdik. Şərqlilər onu Aras və Ares adlandırırlar. Əski Culfaya və ya qədim Culfaya getmək üçün Arazı keçirlər... Ona görə bunu qədim Culfa adlandırırlar ki, İsfahanla üzbəüz tikilmiş başqa bir Culfadan fərqləndirsinlər..."

Şərq ölkələri haqqında geniş məlumatlar verən səyyahlardan biri də Jan Babtist Taverniyedir. XVII əsrin fransız səyyahı Jan Babtist Taverniye (1605-1689) Şərq ölkələrinə etdiyi səyahətlərdə gördüklərini, əldə etdiyi məlumatları toplayaraq kitab halına gətirmiş və nəşr etdirmişdir. Fransız səyyah 1632-ci ildə ilk səyahətində Bolu-Amasya-Ərzurum-İrəvan yolu ilə hərəkət edərək Naxçıvana gəlmiş və bu bölgə haqqında məlumatlar vermişdir. Taverniye Naxçıvan haqqında yazır: "İrəvandan Təbrizə on günlük yoldur. Naxçıvan şəhəri aşağı yuxarı yolun yarısında yerləşir... "Naksivan (Naxçıvan) dünyanın ən qədim şəhəridir. Üzərində Nuhun gəmisinin olduğu dağdan üç fərsəx uzaqdadır. Mən bu şəhərdən keçərkən şəhər Amuratın (IV Murad) ordusu tərəfindən dağıdılmışdır. Osmanlılar tərəfindən dağıdılan bir çox gözəl məscidlərin qalıqları görünür... Buranın Nuhun gəmisindən çıxıb məskunlaşmağa gəldiyi yer olduğunu deyirlər. Nuhun burada dəfn olunduğunu, həyat yoldaşının məzarının isə Təbriz yolu üzərində Mərənddə olduğunu deyirlər..." Səyyah həmçinin Naxçıvan bölgəsinin digər şəhərləri haqqında da məlumat verərək yazır: "I Şah Abbas türklərlə apardığı müharibə zamanı Culfa və ətrafındakı bütün əhalini köçürmüşdür... Arasdan bir fərsəx uzaqda yerləşən kiçik bir şəhər olan Astobad (Ordubad) özünəməxsus bir bitkisi ilə məşhurdur. Bu "ronas" bitkisidir. Onun kökü biyan kökünə bənzəyir. Qırmızı boyaq üçün istifadə edilir. Dəniz yoluyla Hind məmləkətinə göndərilən "ronas" yüklü karvanları Hörmüzə gələrkən görmək olduqca maraqlıdır. Bu kökdən yüklənmiş bir qayığın Hörmüz limanında batdığına şahid oldum. Bir neçə gün dənizin üzü qıpqırmızı oldu..."

Taverniye səyahəti zamanı şəhər karvansaraları haqqında da maraqlı məlumatlar vermişdir.

XVII əsrdə Naxçıvan bölgəsində olmuş və əsərində bölgə ilə əlaqədar geniş yazmış səyyahlardan biri də məşhur türk səyyahı Övliyə Çələbidir. Övliyə Çələbi, Azərbaycana etdiyi birinci səyahəti əsnasında Azərbaycanın əksər şəhərlərini gəzmişdir. Səyahəti vaxtı Naxçıvan bölgəsində də olmuş Övliyə Çələbi öz "Səyahətnamə"sində onun haqqında tarixi əhəmiyyət daşıyan məlumatlar vermişdir. O, öz əsərində yazırdı: "Üç kilsədən qalxıb şərqə doğru yolumuza davam edərək abad şəhərləri, məhsuldar torpaqları, dağ və uzun yolları, şoran və quraq yerləri keçdik. Naxçıvan hüdudunda bir qəsəbəyə gəldik. Şelon dağının ətəyində idi. On bir minarəsi görünürdü. Burada olan bir Bektaşi təkkəsini ziyarət edərək Şeyx Nemət Dədənin xeyir-duasını aldıq. Ertəsi gün səhər qalxıb bu sonsuz səhra içində on iki saat yol getdik. Sonra səhranın cənub tərəfində yerləşən Zəngi çayı qonağına gəldik. Çay sahilində çadırlarımızı qurduq. Burada olan əhali "Osmanlı gəlmiş!" deyə, sevinərək qonaqpərvərlik göstərdilər..."

Səyyah Naxçıvan bölgəsinin Sədərək qəsəbəsində də olmuşdur: "Sədərək qəsəbəsi Naxçıvan torpağında İmam Əli Rza vəqfidir. Bütün öhdəliklərdən uzaq, gözəl, min evli, saysız bağ və bağçası olan, havası təmiz olan bir qəsəbədir. Əhalisinin hamısı şiədir..."

Övliyə Çələbi Orta Əsrlər dövründə Naxçıvan bölgəsinin şəhərlərindən biri olan Qarabağlar haqqında da maraqlı məlumat vermişdir. O yazırdı: "Bu şəhəri ilk inşa edən Mənüçehrdir. Çox qədimdir. Naxçıvan daxilində bir sultanlıqdır..."

Məşhur səyyahın Naxçıvan haqqında verdiyi qiymətli məlumatlardan biri də Naxçıvan qalası haqqındadır. Övliyə Çələbi bu qalanın "... Əfrasiyab tərəfindən bina edildiyini, 1291-ci ildə monqolların hücumu zamanı dağıdıldığını, XVI əsrdə Azərbaycan hökmdarı Şah I İsmayıl tərəfindən təmir edildiyini..." - bildirir.

Türk səyyahı Cahanın Nəqşi adlandırdığı Naxçıvan qalası haqqında yazırdı: "Naxçıvan qalası cahanın rəngarəng naxışlı bir şəhəridir. Bəziləri Naxçıvan, bəziləri Naxşivan deyərlər. Hələ də Azərbaycan sərhəddində ayrı bir xanlıqdır ki, Xanın çox əsgəri vardır. Bu şəhəri qədim zamanlarda türk hökmdarı Əfrasiyab qurmuşdur ki, hələ də atalarının gömüldüyü qübbələr görünür... Hökmdarlığı zamanında Naxçıvan o dərəcə abad imiş ki, bu yerdə bir addım da boş torpaq yoxmuş. Sonra Moğol tayfası tamaha düşüb, yer götürməz ordu ilə gəlib bu şəhərin cahan naxışını pozaraq xarab və qalasını dağıdıb torpaq etmişdir". Səyyah bu bölgənin tarixi memarlıq abidələri haqqında da qiymətli məlumatlar vermişdir.

Övliyə Çələbi Naxçıvan bölgəsində mövcud olan digər qalaların adını çəksə də, bu qalaları ətraflı təsvir etməmişdir. Bu haqda səyyah yazır: "Naxçıvanda və nahiyələrində möhkəm qalalar vardır. İçərisində ən möhkəmi Alıncak (Əlincə) var ki, Molla Qütbəddin tərəfindən tikilmişdir. Digərləri Seran, Susimərvan qalalarıdır. Bu sonuncusunu Mərvan-i Himar tikdirdiyi üçün Susi Mərvan deyərlər..."

Ümumiyyətlə, tarix boyu Naxçıvan bölgəsinə səyahət etmiş müsəlman və ya xristian səyyahlar bu bölgənin tarixi, sosial-mədəni həyatı və memarlıq abidələri haqqında olduqca maraqlı məlumatlar vermişlər. Səyyahların yazdıqlarında bəzi qeyri-obyektiv təsvirlərə rast gəlinsə də, bölgənin sosial-mədəni həyatının öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Qeyd edək ki, Naxçıvan bölgəsində səyyahların təsvir etdiyi tarixi memarlıq abidələrinin əksəriyyəti bu günümüzə qədər öz mövcudluğunu qorumuşdur.

*Mübariz AĞALARLI,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

# 100 yaşlı "Qələbə"

**Salyan qəzasında ilk qəzet 21 fevral 1924-cü ildə çap edilməyə başlamışdır. Qəza Partiya Komitəsinin və İcraiyyə Komitəsinin orqanı kimi "Qırmızı Muğan"- "Krasnaya Muqan" adı ilə Azərbaycan və rus dillərində nəşrə başlayan qəzet sonrakı dövrlərdə ayrı-ayrı adlarla fəaliyyətini davam etdirmişdir. İndiyədək qəzetin 8700-dən çox sayı işıq üzü görmüşdür.**

Salyan rayonunun, bütövlükdə Muğan bölgəsinin mədəni -ictimai həyatında mühüm rol oynamış "Qələbə" qəzeti uzun illər həm də ətraf ərazilərdə yeganə informasiya mənbəyi olmaqla bərabər, bölgənin ictimai-siyasi salnaməsini yarada bilmişdir. Yüz il əvvəl qəza mərkəzi olan Salyanda gedən proseslər haqqında məlumatları öz saralmış səhifələrində bu gün də yaşadan qəzet regionun tarixini yazmışdır.

İlk nömrəsi tarixi sənəd kimi Əli bəy Hüseynzadə adına Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyində qorunan qəzetin ilk redaktoru Andrey Novaxatski olmuşdur. Ondan sonra qəzetə 9 redaktor rəhbərlik etmişdir. Tağı Məmmədov, Şirinbala Süleymanov, Əfsərağa Məmmədov, Sahib Səfərov, Səfər Səfərov, Mahmud Ağalarov, Məhəmməd Xəlilbəyli, Akif Quliyev, Fərqanə Cəbrayılova qəzetin redaktoru olduqları dövrlərdə regionda mətbuat orqanının dövrün tələbləri səviyyəsində fəaliyyəti üçün böyük əmək sərf etmişlər. 20 ilə yaxındır ki, "Qələbə"yə bu sətirlərin müəllifi redaktorluq edir.







Qəzetimiz bütün dövrlərdə zamanın aynasına çevrilmiş, cəmiyyətin həyatında baş verən yenilikləri, mütərəqqi hadisələri işıqlandırmış, nöqsanlara prinsipial münasibət bildirmiş, qabaqcıl təcrübələrin təbliğatçısı olmuşdur. Bölgəmizin tanınmış elm və sənət adamları, ziyalıları, şair və nasirləri ilk qələm məhsullarını "Qələbə" qəzetində çap etdirmişlər. Bu gün adı xüsusi hörmətlə çəkilən, respublikamızın ictimai-siyasi həyatında xidmətləri olmuş Xalq şairi, "İstiqlal" ordenli Xəlil Rza, Əməkdar incəsənət xadimi Əliağa Kürçaylı, Əməkdar müəllim, şair Oqtay Rza, aşıq-şair, Əməkdar mədəniyyət işçisi Pənah Pənahov, Əməkdar mədəniyyət işçisi Əliqismət Lalayev, Azərbaycan Yazıçılar Birliyinin üzvləri Ağacavad Əlizadə, İmamverdi Əbilov və onlarca ziyalımızın ictimai mühitə, ədəbiyyat və poeziyaya gedən yolu məhz bizim rayon qəzetindən başlamışdır.

Qəzetin fəaliyyətinin 35 ili Ümummilli Lider Heydər Əliyev kimi nəhəng şəxsiyyətin fəaliyyəti, onun qurub-yaratdığı Azərbaycanın tərəqqisinin təbliği, doğma respublikamızın bir parçası Salyanın mədəni-ictimai və siyasi həyatının salnaməsinin yaradılması ilə bağlı olmuşdur. Ona görə də "Qələbə" qəzetinin həyatında yaddaqalan hadisələr, tarixi günlər çoxdur. Sözsüz ki, onların ən şərəflisi Ulu Öndər Heydər Əliyevin Salyan rayonuna səfərlərini işıqlandırmaq, bu mühüm tarixi hadisələrin salnaməsini yaratmaq olmuşdur.

Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Prezident İlham Əliyevin də Salyana səfərləri, ictimaiyyət nümayəndələri ilə görüşləri, rayonun sosial-iqtisadi inkişafı barədə sərəncamları salyanlılarda həmişə yüksək əhvali-ruhiyyə, qurub-yaratmaq əzmi yaratmışdır. Son illər rayonda aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri, həyata keçirilən dövlət layihələri qəzet əməkdaşları üçün maraqlı və rəngarəng mövzular vermişdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Milli Ordumuzun qələbə qazanması, şəhidlərimizin qəhrəmanlığı, qazilərimizin hünəri qəzetimizin son dövr fəaliyyətində əsas yer tutur. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində 70-ə yaxın şəhidi, onlarla qazisi olan Salyanın dörd oğlunun Vətən Müharibəsi Qəhrəmanı adına, yüzlərlə hərbi qulluqçusunun yüksək orden və medallara layiq görülməsi vətənpərvərlik ruhunda yazılar hazırlayan əməkdaşlarımız üçün daimi mövzudur.

***Rüstəm MƏLİKOV,***
***"Qələbə" qəzetinin redaktoru***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Fransada fermerlər Makronu istefaya çağırdılar

## Etirazçılar polisi torpaq, saman və yumurta atəşinə tutublar

**Avropa aylardır davam edən fermer etirazları epidemiyası ilə üzləşib. Nümayişçilər təkcə yolları bağlamaqla kifayətlənmirlər. Son günlər avropalı fermerlərin əsas etiraz aksiyaları Belçikanın paytaxtı Brüsseldə keçirilir. Avropa İttifaqının hər tərəfindən fermerlər kənd təsərrüfatı nazirlərinin iclası olan binanın qarşısına toplaşıblar.**




Etirazçılardan biri deyir: "Biz bütün Avropa fermerləri ilə birləşmək üçün İspaniyadan gəlmişik. Təbii ki, hər bir ölkədə fermerlərin öz problemləri var. Hər kəs üçün aktual olanlar da mövcuddur. Həmin problemlərə qarşı da eyni tələblərimiz var. Məsələn, bürokratiya dəhşətlidir".

Fermer Frans Kallen etiraz aksiyaları iştirakçıları arasında çoxlu gənclərin olduğunu vurğulayaraq, yaranmış vəziyyətlə bağlı narahatlığını bildirib: "Biz gələcəyimizdən narahatıq. Belə şəraitdə heç nə planlaşdıra bilmərik. Kənd təsərrüfatına investisiya qoymağa dəyərmi?"

900 traktorla Brüsselə gələn fermerlər şəhərin mərkəzində peyin səpib və təkərləri yandırıblar. Nəticədə polislə toqquşma baş verib, hüquq-mühafizə orqanları təzyiqli su şırnaqlarından istifadə ediblər. 3 polis əməkdaşının xəsarət aldığı bidirilir.

Xatırladaq ki, Avropa ölkələrində fermerlər ilin əvvəlindən etiraz aksiyası keçirirlər. "Traktor yürüşləri" adlanan aksiyalarda Almaniya, Fransa, Litva, Portuqaliya və Niderlanddan fermerlər iştirak ediblər.

Fermerlər bizneslərinin gəlir gətirmədiyindən şikayətlənirlər. Onlar başqa ölkələrdən ucuz kənd təsərrüfatı məhsullarının gətirilməsinə qarşıdırlar. Özü də bu, Avropa İttifaqı daxilində yüksək istehsal standartlarının mövcudluğu ilə bağlı böyük xərclərin tələb olunduğu bir vaxtda baş verir.

Brüssellə eyni vaxtda İspaniyanın paytaxtında da etiraz aksiyaları keçirilib. "El Mundo" qəzetinin məlumatına görə, Madriddə "Sonumuz sizin aclığınız olacaq" şüarı ilə keçirilən nümayişə 20 min adam və 100 traktor toplaşıb. Fermerlər qəzəblərini nümayiş etdirməyin yollarından biri kimi baş nazir Pedro Sançesin və kənd təsərrüfatı naziri Luis Planasın müqəvvalarını yandırmağı seçiblər.

Fransızlar da Avropa Birliyinin "yaşıl siyasət"lərinə qarşı vahid cəbhə kimi çıxış edərək, ötən həftənin sonunda bir çox dünya mediasının diqqətini çəkiblər. Bazar günü səhər saatlarında etirazçılar Parisdə Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin pavilyonuna daxil olublar. Həmin vaxt prezident Emmanuel Makron orada olub. Etirazçılar dövlət başçısının fermerlər birliklərinin nümayəndələri ilə danışıqlar apardığı yerə yaxınlaşmaq istəsələr də, təhlükəsizlik orqanları əməkdaşları onların qarşısını kəsiblər. Nəticədə toqquşmalar olub, Makronu istefaya çağıran izdiham polisə torpaq, saman və yumurta atıb.

Makron isə öz növbəsində, qəzəbli etirazçıları sakitləşdirməyə çalışaraq bildirib ki, böhranı bir neçə saata həll etmək olmaz və bunun üçün vaxt lazımdır.

Xatırladaq ki, Beşinci Respublikada fermerlərin etirazları yanvarın 18-də başlayıb. Nümayişçilər hakimiyyətə 100-dən çox iddia təqdim ediblər.

Almaniyada etirazlar daha əvvəl - 2023-cü ilin dekabrında başlayıb. Yerli fermerlər davamlı olaraq buldozerlərlə magistral yolları bağlayır və "Berlinə yürüşlər" təşkil edirlər. Traktor nümayişlərinin keçirilməsinə səbəb fermerlərin dizel yanacağına endirimlərdən və vergi güzəştlərindən məhrum olma ehtimalıdır.

Fermerlərin etirazları başqa ölkələrdə də keçirilir. Məsələn, yunan fermerlər hökumətin 2023-cü ildə ölkəni vuran təbii fəlakətlərə görə kompensasiyanı necə ödəyəcəyi ilə bağlı narahatlıq keçirirlər. Meşə yanğınları mövsümü, sonra isə "Elias" qasırğası və "Daniel" fırtınasının səbəb olduğu daşqınlar nəticəsində əkinlər və mal-qara məhv olub, bir çox kənd təsərrüfatı avadanlığı zədələnib və ya tamamilə sıradan çıxıb. Nəticədə fermerlər məhsul itkisinin, eləcə də yatırılan kapitalın 100 faiz kompensasiyasını tələb edərək etirazlarını bildiriblər.

Portuqaliya da quraqlıqdan əziyyət çəkib. Ötən ay ölkə hakimiyyəti bir sıra Avropa ölkələrində artıq tüğyan edən etirazların qarşısını almaq üçün fermerlərə təcili yardım məqsədilə 500 milyon avro ayrıldığını elan edib. Bununla belə, fermerlər kənd təsərrüfatına dəstəyin illik və sabit olacağına dair zəmanət almaq üçün hələ də nümayişlərə gedirlər.

Bir çox ölkələrdə, məsələn, Niderland və Danimarkada fermerlər məhz Avropa Birliyinin "yaşıl siyasəti"nə görə qəzəbləniblər. Onların italiyalı həmkarları isə Avropa Komissiyasına məktub göndərmək qərarına gəliblər və ölkənin daxili işlərinə qarışmamağı tələb ediblər.

Polşada həmkarlar ittifaqlarının məlumatına görə, Varşavada keçiriləcək etiraz aksiyasında 50 minə yaxın insan iştirak edəcək. "Bizsiz aclıq olacaq" - traktorlar belə plakatlarla paytaxta üz tutublar. Onlar baş nazirin iqamətgahına çatmaq niyyətindədirlər.

Bu, polşalı fermerlərin ilk etiraz aksiyası deyil. Onlar yolları və sərhəd-keçid məntəqələrinə giriş-çıxışı bağlayırlar. Xaricdən gətirilən taxılı maşınlardan küçələrə töküb və 160 ton qarğıdalı olan vaqonları aşırıblar.

Ekspertlər hesab edirlər ki, Aİ səviyyəsində kənd təsərrüfatı siyasətinə düzəlişlər edilmədən yaranmış vəziyyətin həlli mümkün deyil.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Goranboyda "Zəfərə aparan yol" adlı tədbir keçirilib

**Goranboydakı Heydər Əliyev parkında rayon icra hakimiyyəti, "N" saylı hərbi hissə və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Zəfərə aparan yol" adlı hərbi vətənpərvərlik tədbiri keçirilmişdir.**




İştirakçılar əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmişlər. Sonra əsgərlərin xüsusi döyüş hazırlığı, tanınmış incəsənət ustalarının ifasında musiqi nömrələri, həmçinin məktəblilərin təqdimatında kitab, rəsm, əl işlərindən ibarət sərgi, idmançıların və mədəniyyət işçilərinin təqdimatında milli kulinariya nümunələri nümayiş etdirilmişdir.

Müxtəlif idman yarışlarında və müsabiqələrdə fəqlənən yeniyetmə və gənclər fəxri fərmanlar, diplom və təşəkkürnamələrlə təltif olunduqdan sonra iştirakçılar "Əsgərə məktub" layihəsi çərçivəsində Vətənimizin keşiyini çəkən əsgərlərə məktub göndərmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bu gün gecə Bakıda 3 dərəcəyədək şaxta olacaq

**Azərbaycanda fevralın 29-na gözlənilən hava proqnozu açıqlanıb.**




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az çiskinli olacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Hava temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-8° isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi normadan yüksək - 775 millimetr civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10° şaxta, gündüz 5-10° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Hava temperaturunun gecə 5-10°, gündüz 0-5° şaxta olacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

Şərqi Zəngəzurda: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Hava temperaturunun gecə 5-10°, yüksək dağlıq ərazilərdə 14°, gündüz 0-5° şaxta olacağı proqnozlaşdırılıb. Gecə və səhər bəzi dağlıq ərazilərdə yollar buz bağlayacaq.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Hava temperaturunun gecə 0-5° şaxta, gündüz 5-10° isti olacağı gözlənilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-8° şaxta, gündüz 3-8° isti, dağlarda gecə 8-13°, yüksək dağlıq ərazilərdə 14-17°, gündüz 1-6° şaxta olacağı güman edilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə yollar buz bağlayacaq.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Hava temperaturunun gecə 0-5° şaxta, gündüz 5-10° isti olacağı proqnozlaşdırılıb.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacağı ehtimalı var. Şərq küləyi 5-10 metr/saniyə olacaq. Hava temperaturunun gecə 0-5° şaxta, gündüz 5-9° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Metallurgiya və materialşünaslıq fakültəsinin dekanı Nizami Poladova atası

**QƏDİM ABBASQULU OĞLU POLADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, professor-müəllim heyəti və ictimai təşkilatları universitetin qocaman alimi, fizika-riyaziyyat elmləri doktoru, professor

**TAHİR PƏNAHOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4244**
**Sifariş 454**

**Qiyməti 60 qəpik**